*İSBN: 5253-9004*

***İSBN: 5253-9004***

# Qərbi Kaspi Universiteti

# "XII-XV əsrlər Ön Asiya və Qafqazın tarixi-etnoqrafik məsələlərinə baxış"

***adlı Respublika Elmi Konfransı***

## 18 dekabr 2020-ci il

**Bakı - 2020**

*İSBN: 5253-9004*

# TƏŞKİLATİ VƏ ELMİ KOMİTƏ

**Prof. Hüseyn Bağırov**
*Qərbi Kaspi Universiteti Qəyyumlar Şurasının sədri (Azərbaycan)*

**Assoc. Prof. Nabil Al-Tikriti –** *Mary Washington University (ABŞ)*
**Dos. Lalə Əliyeva** – *Bakı Dövlət Universiteti (Azərbaycan)*
**Monika Rind-Pawlowski** – *Frankfurt Goethe University (Almaniya)*
**Nurlan Nəsirov –** *Qərbi Kaspi Universiteti (Azərbaycan)*
**Irina Shingiray –** *University of Oxford (Böyük Britaniya)*
**Assist. Prof. Mariam Darchiashvili** – *Ilia State University (Gürcüstan)*
**Dos. Natəvan Kərəmova –** *Qərbi Kaspi Universiteti (Azərbaycan)*
**Dos. Elnara Qazı-zadə –** *Qərbi Kaspi Universiteti (Azərbaycan)*
**Tural Vəlizadə –** *Qərbi Kaspi Universiteti (Azərbaycan)*

İSBN: 978-9952-539-04-2

# MÜNDƏRİCAT

**Ön söz**.......................................................................................... 5
**Abbasova Könül Akif qızı**
Qafqaz regionunda tarixi münaqişələr zonası.................................................... 6
**Ağayev İslam**
Hülakülər dövlətinin Misir Məmlük Sultanlığı ilə müharibələri haqqında............................... 8
**Aliyeva Lala A.**
The Caucasıan Albanıan Church after spread of Islam.............................................. 9
**Baxşıyeva Yeganə**
Ermənistan-Azərbaycan münaqişəsi: Tarix və reallıqlar........................................... 10
**Başirli Nubar**
Azərbaycanın geosiyasi və diplomatiya baxımından Osmanlı imperiyası ilə münasibətləri, bugünkü Türkiyənin mövqeyi.................................................................... 11
**Darchiashvili Mariam**
Muslim Meskhetians' Economic and cultural practices in everyday lıfe: Case of Village Nasakıralı.......................................................................................... 15
**Erol İbrahim Nurettin oğlu**
Ön Asiya və Qafqaz bölgəsində İşraqiyyə və Xəlvətilik........................................................ 16
**Etibarlı Sabir**
XII-XV əsrlərdə Ön Asiya və Qafqazın etnoqrafiyası və ona təsir edən amillər...................... 19
**Əsədli Dilarə**
XII-XIV əsrlər Azərbaycan miniat sənətinin inkişaf tarixi.................................................... 20
**Hasanov Elnur Latif oglu**
Study of Multıcultural Tradıtıons and Tolerance Culture in Ganja City During Renaissance Period.................................................................................................................. 24
**Hüseynova Südabə Novruzəli qızı**
Terroristin psixoloji portreti: Erməni terrorçusu nümunəsində................................................ 27
**İbrahimov Anar**
Orta əsrlər Qafqaz mədəniyyəti və onun inkişafına təsir edən xarici amillər.......................... 31
**Kəlbizadə Elnur**
İrandakı erməni icması və "Böyük sürgün" (1603): Həqiqətlər və miflər............................... 35
**Гасанов Эльнур Лятиф оглу**
Средневековое Архитектурное Наследие Гянджи Как Пример Толерантности.... 36
**Quliyeva Ulker**
The Christian Monasteries of Azerbaijan.......................................................................... 38
**Qurbanova Günel**
Azərbaycanda gender siyasətinə tarixi baxış..................................................................... 38
**Məmmədova Aygün Musa qızı**
Eldənizlər dövründə Azərbaycan zərbxanaları.................................................................. 39
**Məmmədova Badam Sahib qızı**
Ermənistanda daxili siyasi vəziyyətin dəyişməsi və bunun Rusiya ilə münasibətlərə təsiri.................................................................................................................... 45
**Məmmədova Bədircahan Əmrullah qızı**
XII-XV əsrlərə dair Qax abidələri...................................................................................... 46
**Məmmədov Aydın Balamirzə oğlu**
XII-XV əsrlər Azərbaycan və Ön Asiya alimlərinin tarixi demoqrafik baxışları..................... 49
**Nəcəfli Ramiz Hüseyn oğlu**
XX əsrin I rübündə müsəlman türklərin soyqırımı Kəlbəcər muzeyi materiallarında.............. 50
**Piriyeva Afaq Yusif qızı**
XII-XV əsrlərdə Ön Asiya regionunun mədəniyyət tarixi...................................................... 55

İSBN: 978-9952-539-04-2

**Rınd-Pawlowskı Monıka**
Identity Versus Lınguistic Evidence in the Shahdag Area of Azerbaıjan................................. 57
**Rüstəmli Sevda**
Orta əsrlər Ön Asiya memarlığının bədii xüsusiyyətləri.......................................................... 58
**Rüstəmova Aysel Ağaşirin qızı**
Ortaçağ Azərbaycan mədəniyyətində Əcəmi Naxçıvani sənədli filminin sənətkarlıq xüsusiyyətləri........................................................................................................................... 61
**Salayev Kamal**
Gürcüstanın orta əsrlər dövründəki mədəniyyət tarixi.............................................................. 61
**Səfərova Çinarə Qabil qızı**
XII-XV əsrlərdə Ön Asiya və Qafqaz regionun etnoqrafiyası və ona kənar təsirlərin nəticələri........................................................................................................................... 67
**Şəmilzadə Şəbnəm**
XX əsrin 20-30-cu illərində Türkiyənin xarici siyasətində Mosul və Kərkük məsələsi............ 71

İSBN: 978-9952-539-04-2

# Ön söz

*XII-XV əsrlər Ön Asiya və Qafqaz bölgəsi tarixində çox ziddiyyətli, həmçinin hadisə və proseslərin zənginliyi ilə seçilən bir dövrə təsadüf edir. Bu, yüzilliklər boyu baş verən ictimai-siyasi hadisələrin bolluğu, eləcə də təsərrüfat-mədəni həyatın inkişafı və müxtəlifliyi baxımından bütövlükdə adı çəkilən bölgə xalqlarının tarixində fərqlənən bir dövrdür. Orta əsrlərin bu dövrünün tarixi-etnoqrafik cəhətdən araşdırılması Ön Asiya və Qafqaz xalqlarının həyatında baş verən dəyişiklikləri və dinamikanı izləməyə imkan yaradır və bugünkü bir sıra etnik, milli, dini problemlərin başlanğıcına işıq tutur.*

*Ön Asiya və Qafqazın orta əsrlər (XII-XV əsrlər) tarixini müstəqil, ideologiyadan kənar və mümkün real faktların əsasında araşdırılması günümüz üçün elmi aktuallıq kəsb edir. Konfransın məqsəd***i** *Ön Asiya və Qafqaz bölgəsinin XII-XV əsrlər tarixinin müxtəlif mövzuları üzrə təhrif olunmuş, zəif öyrənilmiş, ümumiyyətlə tədqiqata cəlb olunmayan aktual problemlərini tarix elminin müasir metodlarından da istifadə edərək yenidən araşdırmaq və tarixi gerçəklikləri rekonstruksiya etməkdir.*

*İSBN: 978-9952-539-04-2*

# QAFQAZ REGİONUNDA TARİXİ MÜNAQİŞƏLƏR ZONASI

**Abbasova Könül Akif qızı**
**Bakı Dövlət Universiteti**
**abbas.k@bk.ru**

## XÜLASƏ

Müasir dövrdə çoxmillətli və polietnik region olan Qafqazda münaqişələr qeyri-sabitliyin əsas amilərindən birinə çevrilmişdir. Bu regionda mənşəyinə və xarakterinə görə müxtəlif olan bu münaqişələr içərisində etnik və millətlər arası münaqişələr mühüm yer tutur. Bu münaqişələrin müasir dövrümüzə qədər davam etməsi regionun bir çox sahələrində inkişafın qarşısını alaraq böyük təhlükələr yaradır.
**Açar sözlər:** Qafqaz, münaqişə, region, tarix, atəşkəs, işğal, məcburi, döyüş.

## ABSTRACT

## HISTORICAL CONFLICT ZONE IN THE CAUCASUS REGION

Conflicts have become one of the main factors of instability in the modern Caucasus, a multi-ethnic and multi-ethnic region. Ethnic and inter-ethnic conflicts play an important role in these conflicts, which are different in origin and nature in this region. The continuation of these conflicts to the present day poses great threats to development in many areas of the region.
**Keywords:** Caucasus, conflict, region, history, ceasefire, occupation, coercion, war.

## РЕЗЮМЕ

## ИСТОРИЧЕСКАЯ КОНФЛИКТНАЯ ЗОНА В КАВКАЗСКОМ РЕГИОНЕ

Конфликты стали одним из основных факторов нестабильности на современном Кавказе, в полиэтническом и полиэтническом регионе. Этнические и межэтнические конфликты играют важную роль в реализации этих конфликтов, которые многочисленны по своему происхождению и характеру в регионе. Продолжение этих конфликтов до настоящего времени представляет собой серьезную угрозу для развития региона во многих областях.
**Ключевые слова:** Кавказ, конфликт, регион, история, прекращение огня, оккупация, принуждение, война.

Qafqaz regionu Qara və Xəzər dənizi arasında yerləşən Gürcüstan, Azərbaycan, Ermənistan (Cənubi Qafqaz) və Rusiya Fererasiyasının bir hissəsini (Stavropol Krasnadar diyarlarını və Kabardin-Balkan, Qaraçay-Çərkəz, Şimali Ostesiya, Dağıstan, Adıgey, İnquşetiy, Çeçenistan Respublikalarını) əhatə edir.

Dünyanın bir neçə yerlərində olduğu kimi Qafqaz regionunda da münaqişə yerləri mövcuddur. Xüsusi olaraq Cənubi Qafqazın münaqişə zonasının əsas mərkəzlərindən birinə çevrilmə səbəbi burada etnik müxtəlifliyin daha çox hiss olunduğu regionlardan biri olmasıdır.

Qafqan regionu qədim dövrlərdən başlayaraq münaqişə zonalarından biri olması ilə seçilib. Xususi ilə possovet dövründə və sovet dövrünün sonlarında baş veren münaqişənin izləri müasir dövrümüzə qədər gəlib çıxmışdır. Bu münaqişələrə hal hazırda davam edən Ermənistan-Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi, Gürcüstan ərazisində baş verən vətəndaş müharibəsini və həmçinin Gürcüstan-Osetiya və Gürcüstan-Abxaziya münaqişəsi, Rusiya ərazisində baş verən Osetiya-İnquşetiya və Rus-Çeçen münaqişələrini göstərmək olar.

**Dağlıq Qarabağ**. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 7 iyun 1923-cü tarixli fərmanı ilə "İnzibati mərkəzi Xankəndi olmaqla, Dağlıq Qarabağda muxtar vilayətin yaradılması" haqqında qərar qəbul edildi. 1923-cü ilin sentyabr tarixində Xankəndi şəhərinin adı dəyişdirildi və S.Şaumyanın (bolşevik-daşnak lideri) şərəfinə Stepanakert adlandırıldı [1, 167].

*İSBN: 978-9952-539-04-2*

1987-ci il 18 noyabrın tarixində, akademik A.Aqanbekyanın (Mixail Qorbaçovun köməkçisi olmuş) Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi məqsədəuyğunluğun hesab etməsi barədə verdiyi bəyanatı münaqişələrin daha da alovlanmasında şərait yaratdı. Bu hadisədən sonra Dağlıq Qarabağ vilayətinin Ermənistana birləşdirilməsi şüarı ilə İrəvanda nümayişlər keçirildi.

1988-ci ilin 15 iyununda Ermənistan SSR-nin AH Soveti tərəfindən Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSRİ-yə birləşdirilməsi haqqında antikonistitusion qərar qəbul etmişdir.

1988-ci il 27-29 noyabr tarixlərindən başlayaraq Ermənistan SSRİ-nin ərazisində yaşayan azərbaycanlıların (220 mindən çox) məcburi şəkildə köçürülməsinə başlanıldı. 1992-ci ilə qədər davam edən bu köçürmədə 250 minə qədər azərbaycanlı öz dogma yurdlarını məcburi şəkildə tərk etmişlər [2, 169].

1988-ci ildən başlayaraq Dağlıq Qarabağda yaşayış məskənlərində məcburi şəkildə köçürmələr həyata keçirilməyə başlanıldı. Azərbaycan SSRİ-nin qərarı ilə həmin əhali Bakı və Sumqayıt şəhərlərində məskunlaşdılar.

Ermənistan SSRİ Ali Sovetinin 1988-ci il 1 dekabr tarixində verdiyi qərarında Dağlıq Qarabağın Ermənistan SSRİ-yə birləşdirməsini açıq elan etdi. Bununla belə Ermənistan hökuməti beynəlxalq huquqi norma və əsasları pozaraq, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına səbəb oldu. Bunun nəticəsində Respublikamızın 20%-i işğal edilmiş olundu [3, 97].

Ermənilər 1992-ci ildə 25 fevral tarixində Xankəndi şəhərində yerləşən SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməkliyi ilə Xocalı şəhərinə hücum etmişlər. Fevralın 26-sı bu şəhər ermənilər tərəfindən işğal edilmiş oldu. Bundan sonra digər rayonlarımızın işğal tarixi başlandı. Beləliklə erməni hərbi qoşunları tərəfindən Respublikamızın yeddi rayonu amansızlıqla işğal olundu [1, 23].

1992-ci ilin iyun ayında Dağlıq Qarabağ konfilikti üzrə ATƏT-in Minsk qrupunun yaradılması ilə Dağlıq Qarabağ münaqişələrinin beynəlxalq problemə çevrilməsinə təkan verdi.

1994-cü il 12 may tarixində Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ münaqişəsində atəşkəs elan olundu.

Ermənilərin təcavüzü nəticəsində 20 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 100000-ə qədər insan yaralanıb və 45000-ə qədər adam itkin düşmüşdür.

**Gürcüstan-Cənubi Osetiya.** Paytaxtı Şıxinvali şəhəri olan Cənubi Osetiya uzun zamanlardan bəri Gürcüstanın tərkibindədir. 1801-ci ildən 1918-ci ilə qədər Gürcüstan Rusiyanın tərkibində qatıldığı vaxtlarda Cənubi Osetiya da Rusiyanın tərkibində olmuşdur. Gürcüstan müstəqillik əldə etdikdən sonra Cənubi Osetiya da Gürcüstanın tərkib hissəsi olaraq Rusiyadan ayrıldı. 1918-1921-ci ilə qədər Gürcüstanın müstəqil olduğu vaxtlarda osetirinlər müstəqillik uğrunda dəfələrlə üsyana başlamışlar. 1921-ci ildə Gürcüstan SSRİ yaranmış və bir il sonra 1922-ci ildə Cənubi Osetiya Muxtar Vilayəti elan olundu. 20 sentyabr 1990-cı ildə SSRİ-nin tərkibində Cənubi Osetiya Demokratik Respublikası müstəqil elan edildi.

Lakin buna razı olmayan gürcü ordusu 1991-ci il 5 yanvar tarixində osetiyaya daxil olması ilə Gücustan və Cənubi Osetiya müharibəsi başladı. Lakin Rusiya ordusu və osetinlərin birləşmiş qüvvəsi tərəfindən gürcü ordusu məğlub edilərək geri çəkildər. Lakin Rusiyanın təzyiqi ilə 1992-ci ildə Gürcüstan atəşkəsin imzalanmasına razılıq verdi.

2004-cü ildə osetin rus qoşunları ilə gürcülər arasında münaqişələr yenidən başlandı. Lakin bu döyüşlərdə də heç bir tərəf uğur əldə edə bilmədiyindən həmin ilin avqust ayında atəşkəs imzalandı.

26 avqust 2008-ci ildə Rusiya Federasiyası, 3 sentyab 2008-ci ildə Nikaraqua, 10 sentyabr 2009-cu il tarixində isə Venesuella tərəfindən Cənubi Osetiya müstəqil dövlət kimi tanındı. Digər dövlətlər isə Cənubi Osetiyanı Gürcüstanın tərkibində əyalət kimi tanıyırlar.

**Gürcüstan-Abxaziya**. Gürcüstanın şimal qərbində yerləşən Abxaziya şimalda Rusiyanın Krasnodar vilayəti və Qaraçay-Çərkəz Respublikası ilə, cənub-şərqdə və cənubda Gürcüstanın Sameqrelo və Zemo Svaneti regionları ilə həmsərhəddir.

1992-ci ildə gürcülərlə gedən müharibə nəticəsində Gürcüstanın tərkibindən çıxmışdır. Rusiya, Venesuella, Nikaraqua, Vanuatau və Nikaraqua tərəfindən müstəqil dövlət kimi tanınan Abxaziya digər dövlətlər tərəfindən isə Gürcüstanın tərkib hissəsi olaraq tanınır.

İSBN: 978-9952-539-04-2

Abxaziya regionu Gürcüstanın tərkibinə daxil edilsə də bu ölkənin hökuməti tərəfindən idarə edilmir. Abxaziyada hələ də münaqişələr baş verdiyindən Gürcüstanın problemli ərazilərindən biri hesab olunur. Bu ərazi dünyanın bir çox ölkə və təşkilatları tərəfindən Rusiyanın işğal etdiyi Gürcüstan torpağı kimi tanınır.

**Rus Çeçen münaqişələri.** SSRİ-nin 1991-ci ildə dağılması ilə Çeçenistan özlərini müstəqil olaraq elan etsələr də onun müstəqilliyini heç bir ölkə tanımadı. Buna baxmayaraq çeçenlər həmin ili Cövhər Dudayevi prezident olaraq seçdilər. Lakin Rusiya hakimiyyəti bu seçkiləri qeyri-qanuni hesab edərək onu tanımadı.

1994-cü il 11 dekabrdan 1996-cı il avqustun 31-nə qədər çoxsayda ölümlə nəticələnən Birinci Çeçen müharibəsi baş vermişdir. Müharibə dövründə ilk olaraq ruslar üstünlük əldə edərək paytaxt olan Qroznu şəhərinə qədər irəliləmişlər. Lakin sonradan çeçen mücahıdlərinin birləşmiş qüvvələri rus ordusunu Qroznudan mühasirəyə almağı bacarmışlar. Bu müharibədə 6000-dən çox rus əsgəri və 50000-dən çox çeçen hərbiçilərin həyatina son qoyulmuşdur. Bu döyüşdə Çeçen-İçkeriyanın ilk prezidenti olan Cövhər Dudayev də həlak olanların içində yer almışdır. Həmin müharibənin nəticəsi olaraq Xasavyurt Müqaviləsi imzalanmışdır.

Bu müqavilənin şərtlərinə əsasən Çeçenistan Respublikasının müstəqilliyi Rusiya hökuməti tərəfindən rəsmi olaraq tanındı. Daha bir faciəvi ölümlə nəticələnən İkinci Çeçen-Rus müharibəsi isə 1999-cu il 26 avqust tarixində baş verdi. Həmin ilin oktyabr ayının 1-i rus ordusu Çeçenistan Respublikası ərazisinə daxil olaraq müharibənin başlamasına səbəb oldu. 2000-ci ilə qədər davam edən bu müharibənin nəticəsində Çeçen-İçkeriya dövlətinin müstəqilliyinin itirilməsi ilə Rusiyanın vahid ərazi bütövlüyü təmin edildi [5, 67].

Beləliklə, Rusiya 2009-cu ildə çeçenlərə qarşi hücumların başa çatmasını bəyan edərək müharibəyə son qoyuldu. Bundan sonra müharibə zamanı ən çox zərər görmüş Qroznı şəhərində yenidən təmir-bərpa işləri aparılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.** Ağayev Ə.Ə. – Güney Qafqaz xalqlarının pedoqoji əlaqələri tarixindən, – Bakı: Təhsil, – 2004, – 136.

**2.** Ağayev İ.K. – XVIII əsrin sonu XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması, – Bakı: Təhsil, – 2009, – 303s.

**3.** Ağayev K.C. – Qafqazda gender məsələləri, – Baku: Elm və təhsil, – 2017, – 435s.

**4.** Qazıyev Y.X. – Erməni məsələləri, – Bakı: Nurlan NPM, – 2003, – 322s.

**5.** Əliyev Q.Ə. - Qafqaz tarixi I hissə, - Bakı: Elm, – 2009, – 448s.

**6.** Ordubadi M.S. Qanlı illər 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi – Bakı: Elm və təhsil – 2012 – 118s.

# HÜLAKÜLƏR DÖVLƏTİNİN MİSİR MƏMLÜK SULTANLIĞI İLƏ MÜHARİBƏLƏRİ HAQQINDA

**Ağayev İslam**
**Azərbaycan Milli Elmlər Akademiyası**

XIII əsrin birinci yarısında monqolların viranedici yürüşlərinə məruz qalsada, tamamilə işğal olunmamış Yaxın və Orta Şərq ölkələrini ələ keçirmək məqsədilə bu ərazilərə 1256-cı ildə Hülakü xanın rəhbərlik etdiyi monqol ordularının hücumu baş verdi. İsmaililərin Elbrus dağlarında möhkəmləndirilmiş qalalarını fəth edən monqollar İran və Azərbaycana yiyələnərək, 1258-ci ildə Bağdad şəhərini tutdular. Bununla da Abbasilər xilafətinin dini-siyasi hakimiyyətinə son qoyuldu. Hülakü xan Ali monqol xanı Menku xanın ölümü ilə əlaqədar Monqolustana qayıtdığından 1260-cı ildə Kitbuğa Noyonun komandanlığı altında Fərat çayını keçən monqollar Suriya və Fələstinə hücum edərək Misir hüdudlarına yaxınlaşdılar.

İSBN: 978-9952-539-04-2

Misirdə Əyyubilər sülaləsini taxtdan salaraq Məmlük dövləti yaratmış Kutuz və sərkərdəsi Bəybarsın hərbi birlikləri həmin ilin sentyabrın 3-də Əyn-Cəlut adlı yerdə baş vermiş döyüşdə monqol ordusunu məğlub etdilər. Əsir düşmüş Kitbuğa edam olundu. Monqolları ciddi məğlubiyyətə uğradaraq onların qarşısında keçilməz səddə çevrilmiş Məmlüklərə qarşı növbəti yürüş də uğursuzluqla nəticələndi.

Belə ki, Homs yaxınlığında 1260-cı il dekabrın 10-da Misir qoşunları ilə qarşılaşan monqollar məğlub oldular. 1277-ci ildə Məmlük sultanı Bəybars Fərat şayını keçərək şimala doğru irəlilədi və Elxanilər dövlətindən asılılığı qəbul etmiş Kiçik Asiyakı səlcuq sultanlığının ərazisinə daxil oldu.Aprelin 15-də Elbistan (Abulistan) ovalığında Məmlük ordusu Tatavun noyonun başçılıq etdiyi monqol qoşunları ilə toqquşdu. Qalib gələn Bəybars Qeysəriyyəni ələ keçirdi.1280-ci ildə Suriyaya hücum edən monqollar Hələbi tutaraq zəngin qənimətlə geri qayıtdılar. 1281-ci ildə yenidən Hələbi ələ keçirən elxaniləri məmlüklər Homs yaxınlığında məğlub etdilər.

XIII əsrin ikinci yarısında Azərbaycan torpaqlarını işğal etmək məqsədilə dörd dəfə Cənubi Qafqaza hücum etmiş Qızıl Ordu dövləti ilə Misir Məmlük Sultanlığı arasında, onların əsas rəqibi olan Elxanilər dövlətinə qarşı hərbi-siyasi ittifaq yarandı. İlk dövrdə onların bütpərəst Hülakülər dövlətinə qarşı mübarizəsi “islam müdafiə etmək” adı altında aparılırdı. Həmçinin Hülakülər dövləti də Fərat çayından qərbdə yerləşən əraziləri ələ keçirmək uğrunda müharibələrdə Misir dövlətinə qarşı müttəfiq qazanmaq üçün Avropa ölkələri ilə diplomatik əlaqələr qurmağa səy göstərirdi.

Bu məqsədlə Elxani hökmdarları Roma papalarına, Fransa və İngiltərə krallarına, Genuyaya və s. səfirliklər və məktublar göndərərək, 1289-1291-ci illərdə Qərbi Avropa səlibçilərini Yaxın Şərqdən tamamilə qovmuş Misir əleyhinə ittifaq yaratmağa cəhd etdilər. Avropada xaç yürüşlərinə maraq azaldığından monqollar heç bir real yardımla müşaiyət olunmayan vədlərlə kifayətlənmək məcburiyyətində qaldılar.

Misirlə müharibəni təkbaşına davam etdirən Elxanilər 1299-cu ildə baş verən Vadi əl-Xəznədar döyüşündə qalib gəlsələr də, 1303-cü ildə Mərc-əs-Səffar vuruşmasında ağır məğlubiyyətə düçar oldular. Bir müddət Fərat şayından qərbə doğru yürüşlərini dayandıran monqolların Suriyaya sonuncu böyük yürüşü 1312-ci ilin sonuna Hülakü hökmdarı Məhəmməd Olcaytunun hakimiyyəti dövrünə təsadüf edir. Dekabrın 23-də Rahbe şəhərini mühasirəyə alan monqol ordusu sakinlərin və şəhərdəki Misir qarnizonunun inadlı müqaviməti üzündən 1313-cü il yanvarın 26-da geri çəkilərək Suriyanı tərk etdi.1318-ci ildə Elxanilər Diyarbəkir istiqamətində Misir məmlüklərinin hücumuna məruz qaldılar.

Şimalda Qızıl Ordu dövləti, şərqdə Cağatay ulusu, qərbdə Misirlə müharibələr, istismar olunan xalq kütlələrinin üsyanları, feodal qruplarının hakimiyyət uğrunda çəkişmələri Hülakülər dövlətini zəiflətmişdi. Buna görə də, Elxani Əbu Səid Misir Məmlük sultanı Nasir Məhəmmədlə danışıqlara başladı və 1323-cü ildə tərəflər arasında təxminən 60 il davam etmiş müharibələrə son qoyan sülh müqaviləsi imzalandı.

## THE CAUCASIAN ALBANIAN CHURCH AFTER SPREAD OF ISLAM

**PhD Aliyeva Lala A.**
**Baku State University**

This paper deals with the circumstances, created by the spread of Islam in the Eastern Caucasus, which influenced the Albanian church and Christian population of Azerbaijan.

Having position of an official religion of the Arsacid dynast y of Albania, Christian church in Albania one might say was apostolic and autocephalous, in accordance to some primary written sources. However, Christianity could not strengthen its positions in the country because of many reasons. One of them was the hesitation to choose between two teachings of Christianity in the 4$^{th}$ and 5$^{th}$ centuries: dyophysitism and monophysitism, in fact that further, majority of neighboring Armenians chose monophysitism and Georgians dyophysitism. This could be observed during the rule of Mihranid dynasty, when several times the Albanian church changed its directions. All this problems of uncertainty

İSBN: 978-9952-539-04-2

with belonging to one of branches Christianity were aggravated by the attempts of the Armenian Catholicosate, which tried to subjugate the Albanian Church. Even though Armenian catholicos Ilia could persuade the Caliph to eliminate autocephality of the Albanian church, it could preserve an independent church for a long time. Nonetheless, the Albanian Christianity could not survive in these circumstances as main religion of the country, giving up its positions to Islam.

## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ: TARİX VƏ REALLIQLAR

**Baxşıyeva Yeganə**
**AMEA Qafqazşünaslıq İnstitutu**
**ybakhshiyeva@gmail.com**

**Açar sözlər:** Azərbaycan bölgəsi, Erməni məsələsi, "Şərq məsələsi", Dağlıq Qarabağ, Ermənistan.
**Key words:** Azerbaijan territory, the Armenian issue, "Eastern Problem", Nagorny Garabakh, Armenia.

İlkin mənbə və ədəbiyyatın təhlili göstərir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirərək "Böyük Ermənistan" yaratmaqdan ibarət olmuşdur. Ermənilər bir neçə yüz illərdən bəri öz krallarından və müstəqil idarəçilikdən məhrum olmaqla dövlətçilik prinsiplərindən uzaq olmuşdurlar. Ermənilərin kiçik qruplar halında məskunlaşdığı ərazilər türklər və iranlılar tərəfindən idarə edilmişdir və kiçik bir hissəsi Qarabağda bəzi məlikliklər formasında qalmışdır. Qarabağ xanlığında mövcud olan bu məlikliklər Rusiyaya meyilləndikləri səbəbindən zaman-zaman daxili ixtilaflar yaşamış və birləşə bilməmələri üzündən zəifləmişlər.

Eləcə də tarixboyu elə bir ciddi, sanballı və davamlı dövlətçiliyə malik olmayan ermənilər çox vaxt dərəbəyliklər halında yaşamışlar. Belə bir şəraitdə geniş coğrafiyada ayrı-ayrı köçlər halında məskunlaşan ermənilərin bir araya gəlmələri və toplum şəklini almaları, nəticə etibarı ilə dövlət yaratma missiyasını kilsə öz üzərinə götürmüşdü. Kilsə minilliklər ərzində öz dövlətini qura bilməyən, ermənilərin dünyadakı təmsilçisi statusuna nail olunması və erməniləri bir millət kimi formalaşdırmağı əsas amalı hesab edirdi.

Ermənilərin Qafqaza köç etmələri Avropa dövlətlərinin tarixən yürütdüyü çoxsahəli siyasəti ilə əlaqəlidir. Erməni məsələsini ərsəyə gətirən dövlətlər onun gerçəkləşməsi məqsədi ilə zaman-zaman şəraitə uyğun olaraq müharibələrdən, diplomatik və iqtisadi təzyiqlərdən yararlanmışdılar. Erməni məsələsindən faydalanmağa çalışan dövlətlərin baş vurduqları hərəkətlər arasında Osmanlıdakı milli azlıqlardan, xristianlıq daxilindəki məzhəb ayrılıqlarından maksimum səmərəli istifadə olunması da mühüm yer tutmuşdur. Bu baxımdan Erməni məsələsi bir çox tərəflərə malik olan beynəlxalq siyasət kimi də dəyərləndirilə bilər. Erməni məsələsinin meydana gəlməsini onların Türkiyədə və Azərbaycandakı acınacaqlı durumları, müxtəlifyönlü təzyiqlərə məruz qalmaları ilə "əsaslandırmağa" çalışan baxış və mövqelər kökündən yanlışdır.

Eyni zamanda bugünkü erməni iddiaları XVIII əsrin sonlarından etibarən beynəlxalq münasibətlər sisteminə daxil olan "Şərq məsələsi" problemi ilə sıx bağlılıq təşkil edir. "Şərq məsələsi"-nin əsas hədəfi olaraq Osmanlı imperatorluğu seçilmişdi. Osmanlının çökməsi prosesi XIX yüzillikdə müxtəlif amillərə görə daha da sürətləndi. "Şərq məsələsi"-ni ərsəyə gətirən dövlətlər onun "həlli" üçün çeşidli üsullar və vasitələr müəyyənləşdirməklə bu problemi daha böyük müstəviyə gətirdilər.

Belə ki, erməni məsələsini ortaya çıxaran məqamları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

-böyük dövlətlərin maraq və mənfəətləri;
-missioner fəaliyyətləri;
-Avropada "xaçlı düşüncəsi"nin hələ də tamamilə ortadan qalxmaması;
-erməni kilsəsi və din adamlarının təbliğatı;

İSBN: 978-9952-539-04-2

-Böyük Fransa inqilabı ilə yayılan millətçi cərəyanlar;
-Osmanlı imperatorluğunun dağılmağa üz tutması.

XVIII-əsrdən başlayaraq Qafqaz regionunda Rusiya imperiyasının başlıca qayğısı Xəzər dənizinə çıxmaq, burada hərbi donanma yaratmaq və regiona sahiblik etmək olmuşdur. Çarizmin regionda öz imperiya siyasətini yeritməsini artıran "şanslardan" biri ermənilərin Rusiyanın hakim dairələri ilə əlbir hərəkəti idi. Belə ki, erməni millətçiləri özlərinin "böyük siyasətlərinə" atılarkən başlıca məqsədləri Türkiyə Ermənistanında "azad hökmranlıq edən demokratik respublika", "dənizdən dənizə qədər (Bakı da daxil olmaqla) Böyük Ermənistan dövlətini" yaratmağı planlaşdırırdılar.

## AZƏRBAYCANIN GEOSİYASİ VƏ DİPLOMATİYA BAXIMINDAN OSMANLI İMPERİYASI İLƏ MÜNASİBƏTLƏRİ, BUGÜNKÜ TÜRKİYƏNİN MÖVQEYİ

**Bəşirli Nubar**
**AMEA-nın Tarix İnstitutunun oktorantı**
**nubar.besirli@mail.ru**

**РЕЗЮМЕ**

Еще в XV веке отношения между Османской империей и рядом феодальных государств, образовавшихся на территории Азербайджана, особенно с государством Аггоюнлу, были натянутыми. Враждебность двух тюркских государств была результатом хитрой политики европейских государств. Эта враждебность, длившаяся веками и оказавшая негативное влияние, привела к ослаблению двух тюркских государств. Однако дальновидность и дружественные шаги, предпринятые политическими лидерами в наше время, позволили Азербайджану и Турции выступить в качестве политических союзников на международной арене, а также подать пример братства между двумя странами с одними и теми же корнями. Сегодня политическая позиция Азербайджана и Турции является основой общих интересов обеих стран. В частности, решительные шаги, предпринятые Турцией в урегулировании карабахского конфликта, высоко оцениваются азербайджанским народом, в особенности Президентом Азербайджанской Республики Ильхамом Алиевым.
**Ключевые слова:** государство Аггоюнлу, Османская империя, Узун Хасан, султан Фатех Мехмет, Азербайджан, Турция, Гейдар Алиев, Ильхам Алиев, Реджеп Тайип Эрдоган

**SUMMARY**

As early as the 15th century, relations between a number of feudal states established in the territory of Azerbaijan, especially the Aghgoyunlu state and the Ottoman Empire, were strained. The hostility of the two Turkic states was the result of the cunning policy of the European states. This hostility, which lasted for centuries and had a negative effect, led to the weakening of the two Turkic states. However, the foresight and friendly steps taken by political leaders in modern times have allowed Azerbaijan and Turkey to act as political allies in the international arena, as well as to set an example of brotherhood between two countries with the same roots. Today, the political position of Azerbaijan and Turkey is the basis of the common interests of both countries. In particular, the decisive steps taken by Turkey in the settlement of the Karabakh conflict are appreciated by the people of Azerbaijan, especially the President of the Republic of Azerbaijan Ilham Aliyev.
**Key words:** Aghgoyunlu state, Ottoman Empire, Uzun Hasan, Sultan Fateh Mehmet, Azerbaijan, Turkey, Heydar Aliyev, Ilham Aliyev, Recep Tayyip Erdogan

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, dövrün ümumtarix hadisələrini əks etdirən müxtəlifdilli mənbələrin bolluğuna baxmayaraq, onların heç birində sırf Ağqoyunlu-Osmanlı münasibətləri əks

İSBN: 978-9952-539-04-2

etdirilməmiş və həmin regionda mövcud olan ölkələrin ictimai-iqtisadi və hərbi-siyasi məsələlərində bəhs olunan zaman ötəri olaraq bu münasibətlərə toxunulmuşdur. Buna görə də, bu sahədə müstəsna əhəmiyyətə malik epistoylar qaynaqlara müraciət etmək tədqiqatçılar üçün müstəsna əhəmiyyətə malikdir [3,128]

Kiçik Asiyadakı Osmanlı dövlətinin yeritdiyi fəal xarici siyasət Cənubi Qafqazın inkişafı üçün mənfi bir amil idi. Uzun Həsən bəylikdə hakimiyyət başına gələrkən (1453) Osmanlı türkləri Konstantinopolu fəth edərək Qara dəniz boğazlarında ağalığa başlamışdılar. Bu hal Cənubi Qafqazın Balkan ölkələri ilə qədim ticarət və diplomatik münasibətlərinin gedişinə təsir etdi. Osmanlı sultanlarının Avropa-Asiya tranzit ticarətinə böyük zərbə vuran gömrük siyasəti Cənubi Qafqazın Avropa ilə ticarət əlaqələrinin zəifləməsinə səbəb olurdu [1, 86].

Osmanlı imperiyası Konstantinopolu ələ keçirdikdən sonra Avropa və Asiya dövlətlərinin vahid antitürkiyə blokunun yaradılması başlandı. Blokun yaradılmasında Ağqoyunlu dövləti də fəal iştirak edirdi. Ağqoyunlular qərb ölkələri ilə hələ hakimiyyətə gəlməmişdən əvvəl əlaqə yaratmışdılar. Kanstantinopolun fəthindən sonra Avropa ölkələri ilə ticarət əlaqələri məhdudlaşmış gürcü knyazları da 1458-ci ildə yaranmış Ağqoyunlu-Papa-Trabzon ittifaqına qoşuldular [5,86]

1453-cü ildə İstanbulun Sultan Mehmed tərəfindən fəthindən sonra Fateh təxəllüsü daşıyan Osmanlı sultanı olduqca təkəbbürlü olmuş, get-gedə fəthlərinin sayını artırmağa başlamışdı. O, İstanbul fəthindən sonra özünü Roma imperiyasının yeganə qanuni varisi saymışdı. Hətta, Yunanıstanın feodal (13961485) Fatehə belə yazmışdı: Kimsə şübhə etməz ki, sən romalıların imperatorusan, çünki imperiyanın mərkəzini rəsmən əlində saxlayan bir şəxs imperatordur və Roma imperiyasının mərkəzi də İstanbuldur. Qara Yusifin və Qara Osmanın vəfatından sonra Qaraqoyunlu-Ağqoyunlu münasibətləri bir neçə il nisbətən qansız-qadasız davam etmişdirsə də, məlum olduğu kimi, Cahan şahın Qaraqoyunlu taxtına çıxması ilə (1435) həmin münasibətlər kəskin şəkildə pisləşir. II Murad II Mehmedə yazdığı son məktubunda Osmanlı sultanının Uzun Həsənə hücum etməyə çağırır.

1467-ci ilin mayında Cahanşah Osmanlı sultanı tərəfindən şirnikləndirilərək öz silahlı qüvvələri ilə Diyarbəkirə tərəf yollandı. Sultan Məhmedin hökmü ilə onun Amasya valisi olan oğlu Bayazid öz döyüşçülərini gərək Cahanşaha köməyə göndərəydi. Lakin Qaraqoyunlu qüvvələri Ağqoyunluların müdafiə xəttini yarıb keçə bilmədiklərini üçün geri çəkilməyə məcbur oldular, nəticədə isə onları təqib edən Uzun Həsən Ərzincana doğru irəliləyərək, Qaraqoyunluları təqibə başladı. Hadisələrin sonrakı gedişi göstərir ki, Osmanlıların Qaraqoyunluları himayə etməsinə baxmayaraq, Uzun Həsənin qəfil hücumu nəticəsində Cahanşahın qoşunu məğlub olmuş, özü isə qətlə yetirilmişdi. Beləliklə, Qaraqoyunlu dövləti süqut etdi. Bu hadisədən sonra Ağqoyunlu dövləti ilə Türkiyə arasında əlaqələr bir qədər gücləndi və zahiri dostluq xarakterində davam etməyə başladı [3,130].

Osmanlı sultanları Cənubi Qafqazı, xüsusilə Azərbaycanı ələ keçirməyə cəhd edirdilər. XV əsrin 60-cı illərinin əvvəllərində Osmanlı dövlətinin təcavüzünə qarşı Ağqoyunluların apardıqları mübarizə diqqəti daha çox cəlb edir.

Azərbaycanda hakimiyyətə gəlməmişdən xeyli əvvəl Ağqoyunlu bəyləri Trabzon hökmdarları ilə dostluq, hətta qohumluq əlaqələri yaratmışdılar [1,88]

1471-1473-cü illərdə Ağqoyunlu dövlətində səfir olan venesiyalı Katerino Zeno Osmanlı hökmdarı II Sultan Mehmed və Ağqoyunlu şahı Uzun Həsən arasındakı münasibətlərdən bəhs edərkən, onların hər birinin böyüklüyünü qeyd etmiş, birinin digəri üçün təhlükəli rəqib olduğunu nəzərə çatdırmışdır [3,132]

Uzun Həsən hələ Azərbaycan və İraqa yiyələnməmişdən əvvəl osmanlıların da bu ölkələrə hücum edəcəyi təhlükəsini duymuşdu, çünki XV əsrin ortalarından başlayaraq türklər fəallaşmağa doğru üz qoymuşdular. I Sultan Mehmedin (hakimiyyət illəri: 1451-1481) dövlət sərhədi artıq ağqoyunluların sərhədinə qədər uzanırdı ki, bu da Uzun Həsəni narahat etməyə bilməzdi. Bundan əlavə, türk sultanı şərq istiqamətincə də təcavüzə başlamışdı. Hələ 1461-ci ildə ağqoyunluların Qara dənizə yeganə çıxış yolu olan Trabzon osmanlılar tərəfindən tutulmuş və bu imperiya süqut etmişdi. Məlum olduğu kimi, Uzun Həsən Trabzon hökmdarının yaxın qohumu idi. Buna görə də, II Sultan Mehmedin nəhayət Zaqafqaziya və İrana da hücum edəcəyini duyan Uzun Həsən gec-tez sultan Türkiyəsi ilə toqquşacağını yaxşı bilirdi. Odur ki, o, döyüşə hazırlaşır və rəqibini qabaqlamaqdan ötrü bir fürsət gözləyirdi.

İSBN: 978-9952-539-04-2

Keçmişdə qaraqoyunluların əllərində olan yerlərə bütünlüklə yiyələnən Uzun Həsən Suriyanı da almaq fikrinə düşdü. Ancaq tezliklə bu fikrini dəyişən ağqoyunlu hökmdarı Türkiyənin əlində olan Qaraman ölkəsinə qoşun göndərməyə başladı, çünki II Sultan Mehmedin yaxın qohumu və Qaramanın hakimi İbrahim bəyin oğlanları Pirəhməd bəy və Qasım bəy sultanın hücumuna məruz qaldıqlarından Uzun Həsəndən kömək istəmişdilər. Belə bir bəhanə gözləyən ağqoyunlu hökmdarı Türkiyə istiqamətinə dərhal qoşun yollamış və beləliklə də, ağqoyunlu-osmanlı müharibəsi başlanmışdı Hadisələrin gedişini araşdırıb Osmanlıların qalib gəldiyi bu müharibədə ağqoyunluların məğlubiyyətini iki mərhələyə ayırmaq olar ki, onların hər biri ayrı-ayrılıqda şərh ediləcəkdir.

Birinci məğlubiyyətdən özü üçün nəticə çıxaran Uzun Həsən daha Osmanlılarla müharibə etməkdən çəkinərək hücumun istiqamətini nisbətən zəif bir dövlətə doğru yönəltdi və 1471-72-ci ildə əvvəllər də ələ keçirmək istədiyi Şam diyarına (Suriyaya) hücum etdi. Ancaq qələbəyə böyük ümidi olan Uzun Həsən orada da Misir sultanı Qayıtbayın göndərdiyi qoşun tərəfindən məğlub edildi.

1472-73-ci ildə isə osmanlıların təşəbbüsü ilə ağqoyunlu-osmanlı müharibəsi yenidən başlandı. Döyüşün ilk günündə üstünlüyü ələ alan Uzun Həsən Uğurlu Mehmedin – Osmanlılar üzərinə dərhal hücum etmək lazımdır‖ sözlərinə əhəmiyyət vermədiyindən hücumu təxirə salmış və bunun nəticəsində güclü osmanlı qoşunu tərəfindən məğlubiyyətə uğramışdı. Bu, ağqoyunlu döyüşçülərinin osmanlı qoşununa məğlub olmalarının ikinci və son mərhələsi idi [2,256].

Göstərmək lazımdır ki, II Sultan Mehmedlə etdiyi müharibədən əvvəl Uzun Həsənin təşəbbüsü ilə Osmanlılar əleyhinə bir ittifaq yaradılmışdı. Həmin ittifaqa Ağqoyunlu dövləti, Roma papalığı, Neapol krallığı, Venetsiya, Macarıstan, Polşa, Burqun hersoğluğu, Kipr krallığı və Kiçik Asiyanın yuxarıda adı çəkilən Qaraman knyazlığı cəlb olunmuşdu. Lakin Osmanlılarla olan müharibədə müttəfiqlərin ağqoyunlulara köməyi dəyməmişdi [4, 556].

Ağqoyunlu məğlubiyyətindən sonra Uğurlu Mehmed dövlətdə mərkəzləşdirmə ənənəsini həyata keçirən atasına qarşı düşmən mövqe tutmuş, qardaşı Maqsud bəy də onunla əlbir olmuşdu. Bu münasibət məlum olandan sonra qardaşı Sultan Xəlilin təqibinə məruz qalan Uğurlu Mehmed Türkiyəyə getmiş, sultanın kürəkəni olmuş, sonradan Ərzincanda analığı Səlcuqşah xanımın sui-qəsdi nəticəsində öldürülmüşdü [2,257]

15 iyul 1478-ci ildə Mərənd yaxınlığında iki şahzadə arasında həlledici döyüş başladı. Xəlil məğlub edildi və Ağqoyunlu taxtına Sultan Yaqub əyləşdi.

Yeni Ağqoyunlu hökmdarının 12 illik hakimiyyəti dövründə Osmanlılarla açıq-aşkar düşmənçilik etmək, onlara pis münasibəti nümayiş etdirmək meyli aradan çıxmış, Sultan Yaqub və Fateh arasında yazışmalar və elçi get-gəli normal vəziyyətə düşmüşdü. Lakin bir sıra başqa ölkələrin dövlət başçıları Ağqoyunlu-Osmanlı münasibətlərində uzun illərdən bəri yaranmış soyuqluğu istifadə etməyə cəhd göstərirdilər [6, 339]

Müəyyən vaxtlarda Ağqoyunlu və Osmanlı hökmdarları bir-birilərini fəth xəbərləri ilə sevindirməklə kifayətlənmir, öz şəxsi xahişləri barədə də məktublaşırdılar. Yeni Ağqoyunlu hökmdarı Rüstəmin hakimiyyəti dövründə Ağqoyunlu – Osmanlı münasibətləri nisbətən yaxşı olmuş, hökmdarlar arasında yazışma davam etmişdir [3,135]

Müxtəlif ölkələrin, həmçinin Azərbaycanın şərqşünas və tarixçi alimlərinin orta əsrlər tariximizin müxtəlif məsələlərinin, o cümlədən Azərbaycan-Türkiyə münasibətlərinin öyrənilməsi sahəsində dəyərli əsərləri vardır. Lakin bizim tərəfimizdən tədqiq edilən bu məsələ ilk dəfədir ki, ayrıca götürülmüş bir mövzu kimi sırf Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələri baxımından işlənilmişdir. Mövzunun qələmə alınmasının beynəlxalq əhəmiyyəti də böyükdür, çünki hər iki ölkə tarixinin baş verən hadisələrin zənginliyi və mürəkkəbliyi baxımından obyektiv şəkildə araşdırılmasının bu gün üçün faktiki əhəmiyyəti az deyildir. Belə ki, bu sətirlərin müəllifi XV əsrdə Azərbaycan-Türkiyə münasibətlərinin məhz hansı zəmin üzərində yaranmış olduğunu göstərməklə, illər boyu böyük insan təlefatı, iqtisadi çətinlik və məhrumiyyətlərə səbəb olmuş qanlı döyüş və müharibələrin gərəksizliyini bir daha nəzərə çatdırmış, dinc yanaşı yaşamaq prinsipinin zəruriliyini bir daha xatırlatmışdır.

Problemin tədqiqində ilkin mənbələrin, o cümlədən Şərq mənbəşünaslığında sənəd xarakterli tarixi qaynaqların-məktubların, hökmlərin, fəthnamələrin, səfir məlumatlarının diqqətlə öyrənilməsi qarşıya qoyulan mövzunun aktuallığını səciyyələndirən amillərdən olmuşdur, çünki tarixi salnamə

İSBN: 978-9952-539-04-2

xarakterli mənbələr tədqiqatçılar tərəfindən gen-bol istifadə olunduğu halda, əhəmiyyəti böyük olan sənədli mənbələr tədqiqata nisbətən çox az cəlb edilmişdir.

Tədqiq olunan dövr boyu bütün Azərbaycan feodal dövlətləri ilə qonşu Osmanlı imperiyası arasında münasibətlər birmənalı olmamış, hər iki əsr boyu dövlətlərarası mənafe baxımından müxtəlif dəyişikliyə məruz qalmışdır. Oxucuların nəzərinə xüsusi olaraq çatdırılmışdır ki, XV əsrdə Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması və fəaliyyəti, Şirvanşahlar dövlətinin öz müstəqilliyini qorumaq məqsədi ilə Osmanlı imperiyasına qarşı tutduğu düzgün mövqe Osmanlılarla əlaqələri Azərbaycan tarixinin ən əlamətdar mərhələlərindən biri olmuşdur. Əsərdə Azərbaycan-Türkiyə müharibələrinin başvermə səbəblərinə xüsusi diqqət yetirilmişdir.

Bizim qənaətimizə görə, əgər əsasən müxtəlif Qərb dövlətlərinin təhriki ilə Osmanlı imperiyası və müxtəlif Azərbaycan dövlətləri arasında XV əsrdə tez-tez baş vermiş qanlı münaqişə və ixtilaflar olmasaydı, həmçinin bu dövlətlər arasında qarşılıqlı münasibətlər düzgün istiqamətə yönəldilsəydi, bəlkə də dünyanın bu günkü xəritəsi başqa görünüş almış olardı [3,450].

Əsrlər boyu Avropa dövlətlərinin türk dövlətlərini bir biri ilə düşmən vəziyyətində saxlaması nəticəsində baş vermiş bir çox ərazi və canlı qüvvə itkisindən nəticə çıxaran türk dövlətləri günümüzdə beynəlxalq aləmdə siyasi müttəfiq rolunu oynayırlar. Xüsusi ilə XX əsrin sonlarında Azərbaycan və Türkiyənin strateji müttəfiq olması bir çox siyasi və iqtisadi məsələlərdə hər iki dövlətin nüfuzunun artmasına müsbət təsir göstərmişdir. Azərbaycan – Türkiyə strateji münasibətlərinin yüksək səviyyəsi dövlətlərarası əlaqələrin tarixində nadir hadisə kimi qiymətləndirilir. Hər iki ölkə dünyanın bir sıra mühüm geosiyasi və geoiqtisadi proseslərinin cərəyan etdiyi mürəkkəb regionda etibarlı strateji tərəfdaşlar kimi münasibətlərin daim inkişafında və daha da gücləndirilməsində maraqlı olduğunu əməli addımlarla nümayiş etdirmişdir. İstər Azərbaycanda, istərsə Türkiyədə yeni hökumət fəaliyyətə başlayan zaman yüksək vəzifəli dövlət xadimlərinin ilk xarici səfərlərini Ankaraya və Bakıya etmələri əlaqələrin qarşılıqlı etimad və inam əsasında qurulmasından xəbər verməklə yanaşı, dünyaya "Bir millət, iki dövlət" deyiminin reallığı əks etdirdiyini təsdiqləyən mühüm ismarıc da göndərir [7,3].

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər dövründə Türkiyə Prezidenti, Baş nazir və parlamentin rəhbəri ilə görüşən Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında məlumat verib. Səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşlıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı [8]

5-8 may 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri zamanı həyata keçirilən görüşlər, danışıqlar nəticəsində imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin yeni bir mərhələyə daxil olmasının təzahürü idi.

12-17 mart 2001-ci ildə isə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə növbəti dəfə rəsmi səfər edib. Türkiyənin dövlət və hökumət rəhbərləri ilə görüşlərdə iki dövlət arasında münasibətlərin hazırki vəziyyəti və inkişaf perspektivləri müzakirə mövzusu olub. Səfər zamanı imzalanan vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə şərait yaradılması baxımından əhəmiyyət kəsb edir [8].

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev də Türkiyə ilə münasibətlərin inkişafına müstəsna diqqət ayırıb. Prezident İlham Əliyev Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdiyini də xatırlatmış və xüsusilə vurğulamışdı ki, dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana ən böyük dəstək verən ölkə Türkiyədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da ölkələrimiz arasında

İSBN: 978-9952-539-04-2

münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək bildirmişdi ki, Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlimizdən gələni etdik: "Bu məsələni daim diqqət mərkəzində saxladıq, bundan sonra da saxlamaqda qətiyyətliyik. Naxçıvanla ölkəmiz arasında quru yolundakı problemlər həll edilmiş vəziyyətdədir. İndi yeni bir addım olaraq, – bu məsələ ilə əlaqədar daha əvvəl də İlham qardaşımla danışmışdıq, – lazım gələrsə dəmir yolu məsələsini də həll etməklə aradakı bu əlaqələri daha yüksək səviyyəyə çatdırmaq hər iki ölkəyə əlavə güc verəcək" [7,3].

Hal hazırda Türkiyə Azərbaycanın beynəlxalq arenada əsas siyasi müttəfiqidir. Qardaş ölkənin Ermənistanla sərhədlərini bağlaması və Qarabağın Azərbaycana geri qaytarılmasını əsas şərt kimi Ermənistanın qarşısına qoyması bunun əsas örnəyidir. Yaxın zamanlarda Azərbaycan və Ermənistan arasında münasibətlərin gərginləşməsi və Ermənistanın Tovuz bölgəsinə təxribat xarakterli təcavüzlərində Türkiyə Cümhuriyyəti bir daha Azərbaycanın yanında olduğunu rəsmi şəkildə bəyan etmişdir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan tarixi, VII cilddə VII cild, Bakı, 2008
2. Şahin Fərzəliyev, Azərbaycan XV-XVI əsrlərdə. Bakı 1983, 534 səh.
3. Şahin Fərzəliyev, Azərbaycan və Osmanlı İmperiyası (XV-XVI əsrlər). Bakı 1995, 456 səh.
4. Tofiq Mustafazadə. Ümumi tarix.I cild. Bakı 2012, 827 səh.
5. Yaqub Mahmudov, Azərbaycan diplomatiyası. Bakı 1996, 296 səh.
6. Ziya Bünydov. Azərbaycan tarixi-Bakı 2007, 719 səh.
7. Xalq qəzeti**.** Bakı 2018.28 iyul. №166. 3 səh.
8. www.prezident.az


# MUSLIM MESKHETIANS' ECONOMIC AND CULTURAL PRACTICES IN EVERYDAY LIFE: CASE OF VILLAGE NASAKIRALI

**Darchiashvili Mariam**
**Ilia State University**

The repatriation and inclusion of Muslim Meskhetians, forcefully displaced by the Soviet government from Georgia to Central Asia during the 1940s, is still ongoing. In 1977, 9 Meskhetian families settled in the village of Nasakirali, Ozurgeti district. The Soviet Georgian government built houses for the repatriates in a separate district, referred to as the "Island." The location acquired a symbolic meaning. After 40 years of repatriation, Meskhetians still remain "islanders:" isolated from the majority population, speaking a different language, practicing a different religion, and facing different educational and employment opportunities. The presentation will focus on the coping mechanisms used by Muslim Meskhetians to sustain themselves and their families and improve their social conditions in a strictly Christian post-socialist country where "Islam is taken as a historical other." I have studied how economic and cultural practices changed the lives of Meskhetians by adapting their social, cultural, economic, and symbolic capital. I will elaborate how informality on the one hand and religiosity on the other, allows social mobility, changes gender attitudes, and helps "islanders" reach the "mainland". Meskhetians living space "Island" is analyzed from the perspective of Bruno Latour's Actor-Network theory. I also apply Pierre Bourdieu's concepts of "capital", "practice", "field" and "symbolic power".

İSBN: 978-9952-539-04-2

# ÖN ASİYA VƏ QAFQAZ BÖLGƏSİNDƏ İŞRAQİYYƏ VƏ XƏLVƏTİLİK: (ŞİHABƏDDİN SÜHRƏVƏRDİ VƏ SEYİD YƏHYA ŞİRVANİ)

**PhD Erol İbrahim Nurettin oglu**
**Recep Tayyip Erdoğan Universiteti**
**ibrahimerol1976@mail.ru**

## РЕЗЮМЕ

## ИШРАГИЗМ И ХАЛВАТИЗМ НА КАВКАЗСКОМ РЕГИОНЕ И ПЕРЕДНЕЙ АЗИИ (ШИХАБЕДДИН СУХРАВАРДИ И СЕЙИД ЯХЬЯ ШИРВАНИ)

В статье освещен жизненный и творческий путь двух известных личностей, представителей - философов Кавказа и Передней Азии – Яхьи ибн Хабаша Сухраварди (1155 – 1191) и Сейида Яхья Ширвани – Бакуви (1410-1462). В итоге отмечено влияние средневековых философских течений Ишрагизма и Халватизма на последующие философские и религиозные течения, а также роль азербайджанских ученых в расширении международных связей.
**Ключевые слова:** средние века, Кавказ, Анадолу, суфизм, Ишрагизм, Халватизм

## SUMMARY

## ISHRAQISM AND KHALVATISM IN THE CAUCASUS AND NEAR ASIYA (SHIHABEDDIN SUHRAWARDI AND SEYID YAHYA SHIRVANI)

The article covers the life and work of medieval Caucasian and Central Asian philosophers, prominent personalities - Yahya ibn Habash Suhrawardi (1155 - 1191) and Seyid Yahya Shirvani - Bakuvi (1410 - 1462). As a result, it was emphasized that the teachings of medieval Sufi philosophy - Ishraqism and Khalvatism - influenced later philosophical currents, and the international activities of Azerbaijani scholars served to expand cultural ties.
**Keywords:** Middle Ages, Caucasus, Anatolia, Sufism, Ishraqism, Khalvatism.

Ön Asiya və Qafqaz bölgəsinin XII – XV əsrlər dövrü bir sıra tarixi və sosial-mədəni hadisələrlə tarixdə iz qoymuşdur. Məqalədə uyğun dövrdə fəaliyyət göstərmiş iki görkəmli şəxsiyyət – Yəhya ibn Həbəş Sührəvərdi (1152 – 1191) və Seyid Yəhya Şirvani - Bakuvinin (1410 - 1462) həyat və yaradıcılığı işıqlandırılmışdır.

Tarixi Azərbaycan şəhəri olan Zəncan yaxınlığındakı Sührəvərd kəndindən olan Yəhya ibn Həbəş ibn Əmirək (künyəsi – Əbülfütuh; ləqəbi - Şihabəddin; nisbəsi - Sührəvərdi) İslam fəlsəfəsi (hikmət) və hüququnun (fiqh) təmsilçisi olmuşdur (alimin dünyaya gəldiyi il mübahisəlidir - 1150-1155-ci illərə aid edilir; 3, s. 36].

Əş-Şihab (axan ulduz) ləqəbi və Əbülfütuh (“Qələbələr atası”) künyəsi ilə tanınan Sührəvərdi fəlsəfə təlimini Marağada Məcduddin_Cili, İsfəhanda isə Həsən uz-Zahir, İbn Səhlan Savidən öyrənmişdir [3, s. 41].

Bəlağətli natiqlik qabiliyyətinə malik olan Sührəvərdi həm pedaqoji, həm də siyasi fəaliyyət göstərmişdir. “Şeyx əl-işraq” və ya “Şeyx əl-Məqtul” adları ilə tanınan Sührəvərdi Şərqin tanınmış Nizamiyyə və Əbunnəcib Universitetlərində müəllim olaraq fəaliyyət göstərmişdir. 1067-ci ildə türk-Səlcuq hökmdarlarının vəsaiti ilə vəzir Nizamül mülkün şərəfinə inşa edilmiş Nizamiyyə universitetində təhsil alan tələbələrin və çalışan müəllimlərin bütün maddi tələbatı Səlcuq hökmdarlarının hesabına ödənilirdi. Elm və mədəniyyətin inkişafında əsaslı rola malik bu Universitetdə dünyanın nüfuzlu alimləri məruzə etmək üçün dəvət edilirdi [2, s. 264].

Dövrünün dahi sufi şeyxi olan Sührəvərdi digər sufilərdən fərqli olaraq, dünyadan təcrid halında yaşamamışdır. Məlum olduğu kimi, orta əsrlərdə hakimiyyətdə olan siyasi və mədəni simalar dövrünün savadlı ziyalıları ilə əməkdaşlıq edirdilər. Bu aqibət Sührəvərdiyə də nəsib olmuşdur. O, Abbasi xəlifəsi

İSBN: 978-9952-539-04-2

ən-Nasir lidinillahın (1180 - 1225) sarayında katib vəzifəsində çalışaraq, hüquqşünas və diplomatiya fəaliyyəti ilə məşğul olmuşdur.

Xəlifənin sərəncamı ilə Suriya və Hələb şəhərlərində diplomatik danışıqlarda iştirak edən Sührəvərdi, 1217-1218-ci illərdə xarəzmşah Muhəmmədlə (1200-1220), növbəti il isə Anadoluya Səlcuqilərin Konya hökmdarı – I Əlaəddin Keyqubadla (1219-1236) görüşmüşdür. Xəlifə ən-Nasir lidinillah nüfuzlu alim olan Sührəvərdinin şərəfinə geniş kompleks - ribat inşa etdirmişdi. Həmin ribatda alim məruzələr edər, müxtəlif məkanlardan olan çoxsaylı dinləyicilərlə müzakirələr təşkil edərdi [13, s. 215].

Abbasilər sülaləsinin hakimiyyəti dövründə Sührəvərdiyyə sufi məktəbini formalaşdıran alimin və ardıcıllarının fəaliyyəti sayəsində bu təlim daha geniş məkana yayılmışdır. Sührəvərdiyyə mistik ordeni müxtəlif şaxələrə malik olmuş və sonrakı mərhələlərdə İranda formalaşan "İsfəhan məktəbi" nümayəndələrinə (Sədi Şirazi – 1208 - 1292 və d.) təsirini göstərmişdir. Hindistandakı Sührəvərdi ardıcılları (Cəlaluddin Buxari) yalnız müəllimlərinin təlimini deyil, həm də İslam dinini yaymağa nail olmuşlar. Sührəvərdi ərəb və fars dilində çoxsaylı əsərlərin müəllifi olmuşdur.

İbn Sina (980 - 1037) və Qəzəlidən (1058 - 1111) fərqli olaraq Sührəvərdinin heç bir əsəri latın dilinə tərcümə edilməyi üçün Qərb dünyasında yetərincə tanınmamışdır. Onun əsərləri sırasında 1186-cı ildə tamamladığı "Kitab hikmət əl-işraq" əsəri xüsusilə fərqlidir. Məhz bu əsərdə alim, əsasını qoyduğu İşraqilik fəlsəfi təliminin prinsiplərini - işıq və qaranlıq metafizikasını açıqlamışdır [12, s. 14-28].

Alimin digər üç böyük əsəri ərəb dilində yazdığı "Təlvihat", "Mukavvəmat" və "Mutərahat"dır. Onun bir qismi ərəbcə, digər qismini isə fars dilində olan "Həyaqil əl-nur", "Əl-əlvah əl-imadiyə", "Partavnamə", "İtiqad əl-hukəma əl-ləmahat", "Yəzdan şinaht" və "Bustan əl-qulub" adlı risalələrində müxtəlif fəlsəfi mövzular (hikmət, qəlb, nur və zülmət anlayışları) araşdırılmışdır.

Alimin mərifət təlimindən bəhs edən "Əql-i surh", "Avaz-i Pər-i Cəbrail", "Əl-qurbət əl-qarbiyyə", "Luğət-i Muran", "Risale fi'l-Mirac", "Risalə fil halat əl-Tufuliyye", "Ruzi ba cəmaət-i sufiyan" və "Safir-i Simurq" adlı simvolik dildə farsca yazılmış əsərlərində seyrü-suluk hekayələri və b. anlayışlar şərh edilmişdir. İbn Sina yaradıcılığına müraciət edən Sührəvərdi, onun "Risalə əl-Tairi", "İşarat" və "Tənbihat" əsərlərini fars dilinə tərcümə etmiş, "Risaleye fi həqiqət əl eşq" əsərində yer alan Quran və hədislərlə bağli izahlara öz şərhlərini əlavə etmiş, Əflatun, Ərəstun, Zərdüştilik, sufilik fəlsəfi təlimlərinə əsaslanmışdır [13, s. 215].

Yaxın və Orta Şərq ölkələrinin mühüm şəhərlərində (Ərdəbil, Miyanə, Diyarbəkir, Harput, Konya, Sivas, Mardin, Bağdad, Dəməşq) olan Sührəvərdi sufi mütəfəkkirlərlə görüşmüş, elmi-fəlsəfi fikirlərini yaymışdır. Rum Səlcuqlu dövlətinin hökmdarı İzzəddin Qılıc Arslanın (1156–1188) rəğbətini qazanmış və onun uşaqlarına (Süleyman, Börküyarıq və Məlikşaha) dərs demişdir.

Alimin dini-fəlsəfi görüşləri bir sıra nüfuzlu şəxslər (faqihlər) tərəfindən bəyənilməmiş və o, 1191-ci ildə Hələb şəhərində edam edilmişdir [13, s. 215].

Sührəvərdinin ardıcılları - Şəhrəzuri ( vəfatı - 1250), İbn Qamun İsraili (vəfatı - 1277), Qütbəddin Şirazi (1236 - 1311), Vədud Təbrizi (vəfatı - 1524), Sədrəddin Şirazi (vəfatı - 1640) və d. onun əsərlərindəki fəlsəfi prinsipləri davam etdirmişlər [9, s. 49].

Sührəvərdinin bəzi əsərləri yox olmuş, bəziləri nəşr edilmiş, yüzədək əlyazması isə hazırda dünyanın 30-dan artıq kitabxanasında (AMEA Əlyazmalar İnstitutunda, Sankt-Peterburqda Şərqşünaslıq İnstitutunda, Türkiyədə Sultan Fateh, Yusif Ağa, Əsəd Əfəndi, Saray III Əhməd, Raqib, Rza Paşa, Aşir, Cərullah, Aya Sofiya Muzeyi, İstanbul Universiteti, Laləli, Nuri Osmaniyyə, Emniyyə, Şəhid Əli Paşa kitabxanalarında, İranda Astan-qüds Rzəvi, Səltənət, Milli, Şura Məclisi, Tehran Universiteti, Sepəhsalar ali mədrəsəsi, Firdovsi milli kitabxanalarında, Suriyada Zahiriyyə, Misirdə Xidiviyyə, Dar əl-kütub, Bələdiyyə kitabxanalarında, İraqda Bağdad universiteti kitabxanasında, Hindistanda Bankipur kitabxanasında, İngiltərədə Britaniya muzeyi kitabxanasında və Fransada Paris Milli Kitabxanası) saxlanılmaqdadır.

Müxtəlif dillərdə nəşr edilmiş bir sıra tədqiqatlar Sührəvərdiyə həsr edilmişdir [11; 15; 16], bəzi mülahizələrə görə müasir dövrümüzdə alimin ardıcılları mövcuddur [13, s. 215].

Seyid Yəhya Cəlaləddin Şirvani (Bakuvi) 1410-cu ildə Şamaxı şəhərində dünyaya gəlmişdir. İlk təhsilini Şamaxı alimləri – Şəmsəddin Əhsikəsi, Qutbəddin əs-Sərabî ve Mövlana Tacəddindən alan

İSBN: 978-9952-539-04-2

Şirvani, sonralar sufiliyə (əsasən Xəlvətilik təriqətinə) maraq göstərmiş və məşhur təriqət şeyxi - Sədrəddin Hiyavinin (Xəlvəti - ? - 1455) tələbəsi və müəllimi təriqətə rəhbərliyi ona vəsiyyət etmişdir. Lakin müəllimi dünyasını dəyişdikdən sonra vəsiyyətə riayət edilməmiş və Şirvani Bakı şəhərinə köçmüşdür [9, s. 144].

Şirvanşah I Xəlilullahın (1417 - 1465) dəvəti ilə Bakıda Keyqubad məscidinə rəhbərlik edən Şirvani hökmdar sarayında alim, filosof və astroloq olaraq şöhrət qazanmışdır [7, s. 22; 8, s. 45].

Qırx illik şeyxlik fəaliyyətində o, ərəb, fars, türk dillərində ontologiya, etika məsələləri, Batiniyyə təlimi, Xəlvətiyyə (Cəmaliyyə) və d. məsələlərə həsr edilmiş 18 əsər yazmışdır. Bu əsərlərin orijinalı hazırda Türkiyə Cumhuriyyətinin İstanbul (Muradiyyə kitabxanası), Konya, Manisa şəhərlərində qorunur.

Özünü əsərlərində "seyid" adı ilə qeyd edən Yəhya Bakuvinin əsərlərində ("Şərhe Gülşəni-raz", "Əsrar ət-talibin", "Virdü's-settar", "Şifaul-əsrâr", "Kəşful-qulub", "Adâbu'l-vudu vəssalat", "Məkarim-i Ahlak", "Makamat", "Atvarul qəlb", "Bəyânul ilm (ilmi lədunni)" və d.) fəlsəfə, astrologiya və riyaziyyat elmləri üçün dəyərli töhfələrdir [1, s. 631].

Ön Asiyada on minlərlə ardıcılı olan Bakuvi 1462-ci ildə dünyasını dəyişmişdir, türbəsi Bakı şəhərindəki Şirvanşahlar Sarayındadır. 1501-ci ildə Səfəvilərlə olan müharibə dövründə türbə dağıntıya məruz qalsa da, sultan III Murad (1546 - 1595) dövründə Özdemiroğlu Osman Paşanın (sədrəzəmlik dövrü - 5584 - 1585) əmri ilə bərpa və təmir etdirilmişdir.

2013-cü ildə YUNESKO-nun qərarına əsasən Bakuvinin vəfatının 550 illiyi qeyd edilmiş, yaradıcılığı bir sıra tədqiqatlarda işıqlandırılmış, bir simpozium və saytlar tərtib edilmiş, əsərləri tərcümə və tədqiq edilmişdir [4; 5; 6; 14].

Əli Əlaəddin Rumi, Muhamməd Bahaəddin Ərzincani, Dədə Ömər Rövşəni, Həbib Qaramani, Afyonlu Pir Şükrullah, Yusuf Ziyaəddin Müsküri, Seyid Əhməd Sünnəti alimin Anadolulu ardıcıllarıdır (xəlifələridir).

2002-ci ildən İçərişəhər Tarix-Memarlıq Qoruğunda Bakuvi əsərlərinin mikrofilmləri və surətləri saxlanılır [10], Bakı şəhərində alimin adını daşıyan küçə vardır.

Beləliklə, azərbaycanlı alimlər - Sührəvərdi və Bakuvinin yaradıcılığı və səyahətləri nəticəsində orta əsrlərdə Qafqaz və Ön Asiya fəlsəfəsində İşraqiyyə və Xəlvətiyyə (Cəmaliyyə) təlimlərinin əsas prinsipləri yaranaraq formalaşmış, sonrakı mərhələlərdə isə bu cərəyanlar - etika, gözəllik fəlsəfəsi və d. elmlərin başlıca xüsusiyyətlərini ehtiva etmiş, alimlərin ardıcıllarının təbliğatı sayəsində inkişaf edərək, ölkələrarası mədəni mübadiləyə rəvac vermişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əzizova F. Şirvanşahlar dövlətinin şair və ədibləri – XIII - XV əsrlər // Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət. Beyn. elmi konfrans materialları (23-24 oktyabr 2018). Bakı, 2018, s. 625 – 638

2. Biçer B. Kuruluş devrinde Nizamiyye medreselerinin müderrisleri // Türk okulu dergisi. Sayı XVI, Ankara: 2013, s. 263 – 287

3. Okudan R. İşrak filozofu Sühreverdi Maktul ve eserlerindeki üslup ve belağat. Doktora tezi. İsparta: 2001

4. Rıhtım M..Seyid Yəhya Bakuvi ve Xəlvətilik. Bakı: Qismət, 2005

5. Rıhtım M. Şəfa əl-əsrar. Bakı: Elm, 2010

6. Алескерова Н. Э. Средневековое суфийское братство Халватия в трудах европейских и американских ученых // Ученые записки Казанского Ун-та, Т. 158, Казань, 2016, с. 1510 – 1521

7. Ашурбейли С. Б. История города Баку. Период средневековья. Баку: Азернешр, 1992

8. Бакуви // Философская Энциклопедия. В 5-х т. Под редакцией Ф. В. Константинова. М.: Советская энциклопедия, 1960

9. Каджар Ч. Выдающиеся сыны древнего и средневекого Азербайджана. Баку: изд. Азербайджан, 1995

10. Получены микрофильм и копии произведений Сеида Яхьи Бакуви // azertag.az

11. Смирнов А.В. Смыслополагание и инаковость культур // Россия и мусульманский мир: инаковость как проблема. М.: Языки славянских культур, 2010

İSBN: 978-9952-539-04-2

12. Смирнов А.В. Шихабеддин ад-Дин Йахйа ас-Сухраварди. Мудрость озарения // Ежегодник исламской философии. М.: Восточная литература, 2011, с. 14 - 28

13. Сухраварди // Ислам. Энциклодический словарь. М.: Наука, 1991

14. John J. Curry. "The Transformation of Muslim Mystical Thought in the Ottoman Empire: The Rise of the Halveti Order, 1350-1650. Edinburgh University Press, 2010.

15. Sohrawardi. Euvres philosophiques et mystiques de Shihabaddin Yahya Sohrawardi Henry Corbin. Prolégomènes en français et éd. critique. Téhéran, Institut franco-iranien, 1952

16. The Philosophy of Illumination. A New Critical Edition of the Text of Hikmat al-Ishrāq with English Translation, Notes, Commentary and Introduction by John Walbridge & Hossein Ziai. Provo, Utah: Brigham Young University Press, 1999

# XII-XV ƏSRLƏRDƏ ÖN ASİYA VƏ QAFQAZIN ETNOQRAFİYASI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

**Etibarlı Sabir**
**Qərbi Kaspi Universiteti**

## XÜLASƏ

Etnik qrupların uzaq yerlərə köçü ilə müşayiət olunan monqol işğalları xalqların bir-birinə qarışmasını sürətləndirirdi. 1258-ci ildə Bağdadda Abbasilər xilafətinə son qoyan monqollar Azərbaycanda islama biganə münasibət bəslədilər; onu dövlət dini statusundan məhrum etdilər. Monqollar ölkədə bütpərəstliyin yayılmasına cəhd etdilər. Lakin XIII əsrin sonlarında Qazan xanın məcburiyyət qarşısında qalıb islam dinini qəbul etməsi və bütün gəlmə monqol-türk qəbilələrini bu dinə cəlb etməsi islamın tərəqqəsi ilə nəticələndi.

XIII əsrin ortalarında Hülaku xanın hərbi hissələrinin tərkibində Cənubi Qafqaza bir çox türk-monqol mənşəli qəbilə gəlmişdi. Mənbələrin məlumatı və toponimik materiallar 20-dən artıq qəbilənin, o cümlədən sulduz-çobani, cəlairi, cığatay, kurqan, sukait, corat, budat, oyrat, tatar, dolan, onqut və s. qəbilələrin həmin dövrdə Azərbaycana gəlib məskunlaşdıqlarını təsdiqləyirdi. Onların tərkibində türkdilli tayfalar çoxluq təşkil edirdi. Belə tayfaların Azərbaycanda məskunlaşması türkdilli əhalinin sayının daha da artmasına səbəb oldu.

Qaraqoyunlu və Ağqoyunlu adlanan oğuz mənşəli tayfa birləşmələri XIII əsrdən etibarən Anadoluda yanmköçəri həyat sürürdülər. Hər iki tayfa birləşməsi "türkman" adlanırdı. Qaraqoyunluları və Ağqoyunluları təşkil edən tayfa və boyların bu əraziyə Orta Asiyadan gəlməsini Səlcuqların Yaxın şərqə köçməsi ilə bağlayırlar. Lakin onların Azərbaycana və Qərbi İrana köçməsini daha erkən dövrə (VIII-IX əsrlər) aid etməyə müəyyən əsasımız vardır. Ehtimal etmək olar ki, həmin etnik qruplar monqol işğalı dövründə Azərbaycan və İrandan qərbə doğru hərəkət etməyə məcbur olmuş, Kiçik Asiya, İraq və Suriyada məskunlaşmışdılar

Oğuz tayfalarından olan Qaraqoyunlulara baharlılar başçılıq edirdilər. Ağqoyunlu ittifaqına daxil olmuş qəbilə və etnik qruplar da Qaraqoyunlu tayfaları kimi oğuz mənşəlidir. Ağqoyunlulara bayundurlar başçılıq edirdi.

## SUMMARY

The Mongol invasions, accompanied by the migration of ethnic groups to distant lands, accelerated the intermingling of peoples. The Mongols, who ended the Abbasid caliphate in Baghdad in 1258, were indifferent to Islam in Azerbaijan; he was deprived of the state religious status. The Mongols tried to spread idolatry in the country. However, at the end of the 13th century, Qazan khan was forced to convert to Islam and attracted all the foreign Mongol-Turkic tribes to this religion, which resulted in the progress of Islam.

In the middle of the 13th century, many tribes of Turkic-Mongol origin came to the South Caucasus as part of Hulagu Khan's military units. Sources and toponymic materials of more than 20 tribes, including sulduz-shepherd, jalairi, jigatay, kurgan, sukait, corat, budat, oyrat, tatar, dolan, ongut,

İSBN: 978-9952-539-04-2

etc. confirmed that the tribes came to Azerbaijan at that time. They were dominated by Turkic-speaking tribes. The settlement of such tribes in Azerbaijan led to a further increase in the number of Turkic-speaking people.

Tribal associations of Oghuz origin, called Garagoyunlu and Aghgoyunlu, have been nomadic in Anatolia since the 13th century. The union of both tribes was called "Turkmen".

The tribes and tribes that make up the Garagoyunlu and Aghgoyunlu connect the arrival of this area from Central Asia with the migration of the Seljuks to the Middle East. However, we have some reason to attribute their migration to Azerbaijan and Western Iran to an earlier period (VIII-IX centuries). Presumably, these ethnic groups were forced to move west from Azerbaijan and Iran during the Mongol occupation and settled in Asia Minor, Iraq and Syria.

The Garagoyunlus, one of the Oghuz tribes, were led by the Baharli. Tribes and ethnic groups that joined the Aghgoyunlu union are of Oghuz origin, as are the Garagoyunlu tribes. The Aghkoyunlus were led by bayundurs.

**РЕЗЮМЕ**

Монгольские нашествия, сопровождавшиеся переселением этнических групп в далекие страны, ускорили смешение народов. Монголы, положившие конец халифату Аббасидов в Багдаде в 1258 году, были безразличны к исламу в Азербайджане; он был лишен государственного религиозного статуса. Монголы пытались распространить в стране идолопоклонство. Однако в конце 13 века Казан-хан был вынужден принять ислам и привлек к этой религии все иностранные монголо-тюркские племена, что привело к прогрессу ислама.

В середине 13 века многие племена тюрко-монгольского происхождения пришли на Южный Кавказ в составе воинских частей Хулагу-хана. Источники и топонимические материалы более 20 племен, в том числе сулдуз-пастух, джалаири, джигатай, курган, сукаит, корат, будат, ойрат, татар, долан, онгут и др. подтвердил, что племена пришли в Азербайджан в то время. В них преобладали тюркоязычные племена. Расселение таких племен в Азербайджане привело к дальнейшему увеличению числа тюркоязычных народов.

Племенные объединения огузовского происхождения, называемые Гарагоюнлу и Аггоюнлу, кочевали в Анадолу с 13 века. Союз обоих племен получил название «туркменский».

Племена, составляющие Гарагоюнлу и Аггоюнлу, связывают приход в эту область из Центральной Азии с миграцией сельджуков на Ближний Восток. Однако есть основания относить их переселение в Азербайджан и Западный Иран к более раннему периоду (VIII-IX вв.).

Предположительно, эти этнические группы были вынуждены переселиться на запад из Азербайджана и Ирана во время монгольской оккупации и поселились в Малой Азии, Ираке и Сирии. Гарагоюнлу, одно из племен огузов, возглавляли бахарлы. Племена и этнические группы, присоединившиеся к союзу Аггоюнлу, имеют огузское происхождение, как и племена Гарагоюнлу. Агкоюнлулары возглавляли баюндуры.

## XII-XIV ƏSRLƏR AZƏRBAYCAN MİNİAT SƏNƏTİNİN İNKİŞAF TARİXİ

**Əsədli Dilarə**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
dila.asadlee.00@mail.ru

**XÜLASƏ**

Orta əsrlərdə Azərbaycanda miniatür sənəti xüsusi inkişaf yolu keçmişdir. XIII əsrdən etibarən ərsəyə gələn miniatür nümunələrində əsasən çin- uyğur təsirini görmək olar. Bu təsir daha çox özünü süjetlərdə yer alan əfsanəvi əjdaha təsvirlərində və ümumi kompozisiya quruluşunda göstərir. Artıq XIV əsrdən etibarən yerli məktəb formalaşmağa başlayır və bunu isə XV-XVI əsrə aid nümunələrdə görmək olar.

**Açar sözlər:** Qafqaz, Azərbaycan, miniatür, süjet, obraz, çin-uyğur, kompozisiya

## РЕЗЮМЕ
## ИСТОРИЯ РАЗВИТИЯ ИСКУССТВА МИНИАТЮРЫ АЗЕРБАЙДЖАНА В XII-XV вв.

В средние века искусство миниатюры в Азербайджане получило особое развитие. Китайскоуйгурское влияние прослеживается в миниатюрах 13 века. Наиболее ярко этот эффект проявляется в изображениях легендарного дракона в сюжетах и в общей композиционной структуре. Местная школа начала формироваться в 14 веке, и это можно увидеть на примерах 15-16 веков.

**Ключевые слова:** Caucasus, Azerbaijan, miniature, plot, image, Chinese-Uyghur, composition

## SUMMARY
## XII-XV CENTURIES HISTORY OF DEVELOPMENT OF AZERBAIJAN MINIATURE ART

In the Middle Ages, miniature art underwent a special development in Azerbaijan. The ChineseUyghur influence can be seen mainly in the miniatures created since the 13th century. This effect is most evident in the depictions of the legendary dragon in the plots and in the overall compositional structure. The local school began to form in the 14th century, and this can be seen in the examples of the 15th and 16th centuries.

**Key words:** Кавказ, Азербайджан, миниатюра, сюжет, образ, китайско-уйгурский, композиция

Orta əsr Azərbaycan mədəniyyətinin bir mərhələsini təşkil edən XII-XV əsrlər özünəməxsusluğu ilə seçilir. Bu dövlərdə Azərbaycan ərazisində olan incəsənətin formalaşmasında islam dini xüsusi bir rol oynayıb. Məlumdur ki, VII əsrdən etibarən Azərbaycanda yayılan İslam dini burada olan həm sosial mühitə, həm də sənət tarixinə təsirlər edərək onlarda mühüm dəyişikliklərin olmasına səbəb olmuşdur. Bu cür təsirlər özünü miniatür sənətində də göstərmişdir. Adı çəkilən sənətin tarixinə nəzər keçirsək görə bilərik ki, XIII əsrdən etibarən Azərbaycanda miniatüra məktəbi formalaşmağa başlayır. Bu məktəb “Marağa miniatüra məktəbi” adlanır. İlk olaraq miniatür sənətinin yaranması tarixindən bəhs etsək deyə bilərik ki, bu sənət sahəsi XII əsrdə yaranmış kitab illüstrasiyası kimi formalaşmışdır. Qeyd etmək lazımdır ki, əlyazma kitabların bədii tərtibatında miniatürlərin önəminin artması kitabların illüstra edilməsinə duyulan ehtiyacla bağlı idi. Əsas sifarişçilər isə hökmüdarlar, əyanlar, feodal cəmiyyətin yuxarı təbəqəsi olmuşdur. Miniatürlərin ərsəyə gəlməsi prosesində rəssamlar, xəttatların əməyi böyük hesab edilir. Sujetə uyğun kompozisiya müəyyənləşdirən miniatürçü rəssamın bədii ideyasının zəngin olmasıdan aslı olaraq bir-birindən fərqli nümunələr ortaya çıxırdı. Bu cür nümunələrin ərsəyə gəlməsi böyük zəhmət, maliyyə və xüsusi məkan tələb etdiyindən əlyazma kitabları köçürmək və tərtib edilməsinə görə xüsusi emalatxanalar inşa edilir, amma əsasən belə məkanlar hökmüdarların saraylarında olurdu.

Miniatür sənətinin Azərbaycanda inkişaf tarixinə nəzər keçirsək görə bilərik ki, bu günə kimi qorunub saxlanmış ilk nümunələri XII-XIII əsrlərə aiddir. Çox maraqlı bir haldır ki, qurulan mədəni əlaqələrdən savayı edilən yürüşlər və ya istilalar da mədəniyyətə mənfi təsirindən əlavə müsbət təsirlər də göstərə bilir. Deyilən fikirə misal olaraq Azərbaycan ərazisinə XIII əsrdə edilən monqol yürüşləri zamanı onların özləri ilə gətirdikləri Çin-uyğur miniatür məktəbinin ənənələrinin burada hazırlanan nümunələrdəki izlərini buna açıq-aşkar bir sübutdur. Qeyd edilən təsiri biz daha çox miniatür nümunələrində yer alan süjetlərdə və təsvirlərin formasında görə bilərik. Buna ən bariz nümunə isə hazırlanan miniatür əsərlərində geniş istifadə olunan əjdaha təsvirini göstərmək olar. Ancaq, sonrakı dövlərdə hazırlanan nümunələrdə olan kompozisiya həllində və obrazlarda artıq yerli miniatür məktəblərinin formalaşmasın şahidi olururq. Nümunə olaraq Mosul, Marağa, Təbriz, Şirvan miniatür məktəblərinin adını çəkə bilərik. Miniatürlərdə portret, batal, tarixi, animalistik, fantastik, məhəbbət mövzulu əsərlər yaradılır. İlk əsərlərdən ”Kitab əl-mahi” XII əsrin sonlarına aid “Kitab əl-Tiryək” əlyazmaları və XIII əsrdə rəssam Əbu əl Mömin ibn-Məhəmməd əl Xoyinin “Vərqa və Gülşah” əsərinə çəkdiyi 71 miniatürü qeyd etmək olar. Sadə və lakonikliyi ilə fərqlənən bu miniatürün kompozisiyası frizvaridir. Məhəbbət dastanına aid olan bu miniatür özündə faciəli bir sevgi hekayəsini birləşdirir. Kompozisiyada yer alan obrazlar ornament motivləri isə stilizə edilmiş biçimdədir. Nümunələr arasında yer alan “Vərqanın düşmənlə təkbətək vuruşu”, “Vərqanın əsir düşməsi”, “Vərqa ilə Gülşahın bağda

İSBN: 978-9952-539-04-2

son görüşü”, “Gülşahın bayılması” miniatürlərdə təsvir olunan çoxfiqurlu kompozisiyada qəhrəmanların başına gələn iztirablı hadisələr təsvir edilib. Lakin, “Vərqanın əsir düşməsi“ nümunəsi xüsusi olaraq digərlərindən fərqlənir. Əsərin məzmunun kulminasiya nöqtəsini əks etdirən bu nümunə üçün qurulan kompozisiya iki və ya üç fiqurdan ibarət olmasına baxmayaraq rəssam dolğun bir obrazlılıqla əsərin məzmun dəyərini olduqca dəqiq çatdırmışdır. Süjetin məzmun və formasına diqqət yetirsək görə bilərik ki,əsir düşmüş Vərqanı azad etmək üçün kişi paltarı geyinərək əzmlə vuruşur Gülşahın təsvir olunma forması maraq doğuran elementlərdəndir. Qeyd etmək lazımdır ki, Mesopotamiya (Beynəlnəhr) məktəbinin üslubuna aid rənglərin əlvanlığı ilə qızılı tonlarından geniş istifadə kimi bənzərliklər haqqında bəhs olunan nümunədə hiss olunur. Bundan əlavə olaraq, obrazların etnoqrafik xüsusiyyətləri, ornament motivləri və digər ünsürlərinə görə əsər Yaxın şərq və Türküstandan gələn təsiri də özündə əks etdirir.

Tarixin sonrakı dövlərdə Azərbaycan miniatür sənətində yüksək inkişaf bilavasita Hülakilər (Elxanilər) dövlətinin Azərbaycan ərazisində yaranması ilə əlaqədar idi. Marağa şəhərinin paytaxt olması ilə əlaqədər şəhərdə xüsusi diqqət və qayğı göstərilən incəsənət öz müsbət təsirini miniatürlərin hazırlanmasına da göstərmişdir. Bu dövrlərdə Azərbaycan miniatür sənətinin qiymətli miniatürlərindən sayılan və ABŞ-ın Nyu-York şəhərində olan Morqan kitabxanasında mühafizə edilən “Mənafi əl-heyvan” əlyazması öz gözəlliyi ilə fərqlənir. 1297-1299-cu illərdə aid olan “Mənafi əl-heyvan” əlyazması 94 miniatürlə tərtib edilmiş və bu əlyazma nümunəsinə nəzər yetirdikdə çin-uyğur ənənələrinin təsirini görmək mümkündür. Daha çox sadə obrazların və heyvan təsvirlərinin çoxluğu ilə fərqlənən bir miniatürləri aid olan “Adəm və Həvva”nın təsvir olunduğu nümunədə yarıçılpaq formada verilmiş 2 obrazın antropoloji xüsusiyyətləri arasında monqollara xas olan qıyıq gözlülük və dairəvi sima diqqətləri özünə cəlb edir. Əsərdə yer alan obrazların bədii xaraqteristikasına gəlincə demək olar ki, rəssam onları dolğun, dekorativliyi ilə bəlli olub və saç- bəzək nümunələri ilə xüsusi ahəngdarlığa sahibdir. Ümumiyyətlə, əlyazmanın sifarişçisi Şəmsəddin ben Ziyəddin Züşəkinin ekslibrisi vardır. Təsvirlərdən əvvəl mətn 4 sütunda nəsx xətti ilə yazılır və daha sonra bu yazı bölmə başlıqlarında öz yerini iri kufi xətti ilə yazılmış hərflərə verir. Təsvir texnikasında isə xüsusən qalın qara tuşla qrafik üsulda işlənilib. Şərtilik xüsusiyyətlərini isə 2 qoçun təsvir edildiyi 1291 ci ilə aid başqa bir miniatür nümunəsində görə bilərik.Statik formada göstərilən qoçlar kiçik ağac ətrafında təsvir edilib. Bir sıra heyvan, quş motivləri ilə zəngin olan bu miniatürlərdə üslub baxımdan müəyyən qədər səthiliyi də izləyə bilərik. Qeyd etmək lazımdır ki, ekslibrislə sifarişçinin adı “tövqi” xətti ilə yazılmışdır. XIV əsrin digər mühüm əhəmiyyət kəsb edən miniatür nümunələri arasında ”Cami ət -təvarix” əlyazmasında adını qeyd etmək vacibdi.

Bir çox rəssamların müəllifi olduğu illustrasiyaların hər biri Azərbaycan miniatür sənətinin inkişafında xüsusi mərhələnin yaranmasında əsaslı rola malikdir. Əlyazmanın yaradılması ideyası Elxanilər dövlətinin hökmdarı olan Qazan xanın adı ilə bağlıdı. “Cami ət- təvarix “əlyazmalarının ikinci adı isə “Tarixin külliyatı” da adlanır. Görkəmli tarixçi və dövlət xadimi olan Fəzlullah Rəşidəddinin (1247-1318) göstərişi ilə “Cami ət-təvarix”in üzünü köçürülür və bir sıra əlyazma nüsxəsi hazırlanır. Cami ət təvarix 2 hissədən ibarətdir: 1-ci hissə-“Monqolların tarixi” 2-ci hissə isə “İslamdan əvvəlki və sonraki tarix“dir. Bədii cəhətdən önəmli olan əlyazma nüsxələri Rəşidəddin sağ olarkən hazırlanıb. 2 nüsxələrdən biri Edinburq Universitetinij kitabxanasında və digəri isə London Kral Asiya Cəmiyyətində mühafizə edilir. 1318-ci il tarixinə aid olan nüsxə sənətşünas Məhəmməd Ağa oğlu (1896-1949) tərəfindən tədqiq edilib.

Cami ət-təvarix əlyazmasında daxil olan miniatürlərdə batal janrında verilən təsvirlər daha çox diqqəti cəlb edir. Tarixi və döyüş səhnələrdən əlavə olaraq isə miniatürlərdə dini mövzulu təsvirlərə də mühüm hissə ayrılmışdır. Monqol sərkərdələrinin döyüş səhnəsi verilən miniatürdə əsgərlər düşməni oxla hədəf alaraq verilmişlər. Orta əsr sərkərdələrinə xas döyüş geyimi, simalarındakı əzm, qalibiyyət hissini təsvir olunan obrazlarda sezmək mümkündü. Tünd rənglərdən istifadə, səthilik, obrazların şərti formada əks edilməsi və geniş mənzərə fonu kompozisiyada əhəngdarlığı yaradan nüanslar arasındadır. Monqolların tarixinə xas əsərlərdə daha çox monqol döyüşçülərinin etdiyi işğalçı yürüşləri görmək mümkündür. Əsas olaraq rəqib ordu, sərkərdələr bir-birinə qarşı dayanmış formada təsvir edilir. Hər bir döyüşçünün geyimlərinə nəzər yetirdikdə orta əsr aid geyimlərin bəzədilməsində istifadə olunan ornamentləridə görə bilərik. Buna misal olaraq İlək xanın təslim olması səhnəsinin əks olunduğu “İlək

İSBN: 978-9952-539-04-2

xanın məğlub olması" miniatür nümunəsində təsvir olunan döyüşçülərin geyimindəki müxtəlif bəzək elementləri və təsvirdə yer alan atın üzərinə salınmış xalçada yarpaqlarla verilmiş nəbati ornamentləri göstərmək olar. "Mahmud Qəznəvinin Hindistana yürüşü" və "Mahmud və İsmayılın döyüşü" təsvirləri də Mahmudun güclü ordusu düşmən ilə müharibəsi özünəməxsus bədii və tarixi xüsusiyyətlərinə görə xüsusi yerə malikdir. Mövcud nümunələr arasında Hindistana aid olan təsvirlərdə əsas hissəsni Qautama Buddanın təsvirləritəşkil edir.

Daha həcmli, böyük ölçüdə və ifadəli formada Budda obrazlarına təsadüf edilir. Təsvirlər əsasən mərkəzi hissədə suluboya və mürəkkəb tuş qələm texnikasıyla işlənirdi. Bu texnikadan daha çox Çində istifadə edilmişdir. Mövzu cəhətdən geniş olan miniatürlərdə İsanın doğulmasına aid İncildən götürülmüş nümunələrin təsvirlərdən başlayaraq İslam dinin yayılması ilə bağlı və əsasəndə Məhəmməd peyğəmbərin həyatı ilə islamın əsas din olaraq bərqərar edilməsinə qədər böyük bir tarixi dövrü özündə canlandıra bilir. Təsvir üçün qurulan kompozisiyalarda tək insan obrazları deyil, həm də memarlıq formalarına və elementlərinə də diqqət verilmişdir. Ümumiyyətlə, "Mənafi əlheyvan" və "Cami ət-təvarix" əlyazmalarına aid miniatürləri işləyən miniatürçü rəssamlar Çin-uyğur və Mesopotamiya ənənələrindən bəhrələnmişlər. Lakin həm də təqlid xüsusiyyətləri daha çox nəzərə çarpır.

Miniatür tarixində XIV əsrə aid nümunələrdə əsasəndə 1340-1350 ci illərdə hazırlanan "Böyük Təbriz Şahnaməsi" (Demot Şahnaməsi) və "Kəlilə və Dimnə" yerli məktəbin inkişafını göstərirdi. "Kəlilə və Dimnə" sanskrit dilində yazılmış qədim Şərq təmsillərinin toplusudur. Tərcümə isə VIII əsrdə yaşamış nüfuzlu əyan və yazıçı Fars ibn əl-Müqəffa tərəfindən ərəb dilinə tərcümə edilib. Əsasən saray sosial həyatından götürülmüş hekayələr və heyvanlar aləminə aid İbrətamiz hekayələrlə zəngin olan bir topludur. Müəyyən məişət janrlı təsvirləri özündə əks edən bu əlyazmada əsasən təsvirlər daha ifadəli və reallığı ilə seçilir. "Sadəlövh oğrunun yaxalanması" səhnəsi isə xüsusi ilə maraqlıdır. Məişət janrlı illustrasiya olan bu nümunədə oğru ev sahibi və gənc qadın əsas obrazlardır. Ev sahibinin oğrunu çomaqla döydüyü an təsviri verilmişdir. Ümumi olaraq uğurlu obrazlı ifadə vasitələrinə görə digər əvvəl yaranmış nümunələrdən fərqlidir. "Aslan və filin döyüşü", "Gölməçə də öz əksinə baxan it", "Arvadını döyən ər" və digər illustrasiyalar yer aldığı nümunələr məna və məzmunun ifadəliyi ilə seçilir. Daha çox dekorativ rəng koloritinə malik olan bu miniatürlərdə artıq monqol miniatürlərində olan obrazlara bənzərlik müşahidə edilmir. Təsvirlər yazıdan mərkəzdə yerləşdirilir və mənzərə fonu ilə tamamlanır.

"Kəlilə və Dimnə" əlyazma miniatürləri hal hazırda İstanbul universitetinin kitabxanasında nümayiş etdirilir. Təbriz rəssamları qrafik və boyakarlıq üslublarının uğurlu sintezindən ibarət olan bir bədii üslub XIV əsrin ortalarında etibarən formalaşdırılmaöa başlamışdı. Bu üslubun ilk nümunələri arasında "Demot Şahnaməsi"ni qeyd etmək olar. Həmçinin fransız sənətşünası Östaş dö Lorey yazırdı ki, miniatür sənəti heç vaxt bu qədər əzəmətli və akademizmdən uzaq və orjinal özünəxas üslubi xüsusiyyətləri ilə seçilməmişdir. XIV əsrin 30-40 cı illərinə aid "Demot Şahnaməsi" ("Böyük Təbriz Şahnaməsi") də adlanan bu nümunə əsrin əsas əlyazma nümunələrindən biridir. Müxtəlif sujetləri əhatə edən kompozisiyalar mövzu etibarı ilə müstəqil səciyyə daşımaları miniatürlərdə olan obrazların bədii həlində özünü açıq şəkildə göstərir. Məsələn miniatürlərdən birində ov səhnəsi, digərində isə padşahın saray məclisi əks edilib. Demot Şahnaməsi əlyazmasına çəkilən miniatürlər XIV əsr miniatür sənətimizin inkişafında xüsusi bir mərhələni birləşdirir. Nəsx xəttilə 4 sütunda yazılmış bölmələrin sərlövhəsi "rüqə" xətti lə işləmişdir. X əsrin görkəmli fars şairi Firdovsinin öz poemasını Qəznəvilər dövlətinin sultanı olan Sultan Mahmud Qəznəviyə təqdim etdiyi anı isə miniatürçü rəssam əlyazmanın ən sonuncu bölməsində təsvir edib. Həmin dövrün görkəmli miniatürçü rəssamları olan Əhməd Musa və Şəmsəddin tərəfindən çəkilmişdir. Təxminın 58-60 miniatür nümunəsi bizə bəllidir. Azərbaycan miniatür sənətinun xüsusi üslub xüsusiyyətləri XIV əsrin əvvəllərində daha geniş vüsət almışdır. Miniatür sənəti tariximizi araşdıran tədqiq edın tədqiqatçı İvan Şukinə görə bu miniatürləri sənətkarlıq baxımdan fərqli cəhətləri olduğunu qeydlərində göstərmişdir.

Lakin "Demot Şahnaməsi"nin illustrasiyaları imzasızdır. Dramatikliyinə görə isə müqayisədə digər nəzərdən keçirdiyimiz miniatürlərdən xüsusi olaraq fərqlənir. Çoxfiqurlu kompozisiya həmçinin rəngarəngliyi, obrazların psixoloji ifadəliliyi kimi nüansları ilə seçilir. "İrəcin ölüm xəbəri", "Ərdəvan və Ərdəşir ", "Firudinin oğluna ağlaması", "Rüstəmin dəfni", "İskəndərin cənazəsi üzərində ağlaşma" və s. kimi nümunələrin adını qeyd etmək vacibdir. Şah Firudinin oğlunun ağlaması süjetində olan məzmunda belə deyilir ki, Firudin öz var-dövlətini 3 oğlu arasında bölür.

İSBN: 978-9952-539-04-2

Böyük qardaşlar: Tur və Səlim acgözlükdən kiçik qardaşı İrəci öldürdüyü səhnə verilmişdir. Firudinin saray əyanları ilə birlikdə oğlunun cənazəsini qarşılaması və İrəcin ölüm xəbərinu eşidən anasının Firudinin qolları arasından yerə düşməsi təsvir edilib."Ərdəvan və Ərdəşir" adlı əsərdə Sasani dövlətinin ilk hökmdarı Ərdəşirə əsir düşmüş Ərdəvanın edama məhkum edilməsi təsvir olunur. Məğlub Ərdəvanla qalib Ərdəşirin fərqli xarakteri qarşılaşdırılıb. Ərdəşirin şux qaməti üzünün sərt və məğrur ifadəsi, Ərdəvanın məyus, yazıq duruşu qəmli ifadəsi əsərin ideya məzmununun açılmasında böyük rol oynayır. "Rüstəmin dəfni" və "İsgəndərin cənazəsi uğrunda ağlaşma" kimi çoxfiqurlu, mürəkkəb kompozisiyalı Şərq miniatürünün nadir incilərindən sayılır.

İlk nümunədə cənazənin arxasınca irəliləyən insanların böyük kədəri, hüznü bəlli formada təsvir edilib. 2-ci qrupa aid əsərlərin bir çoxu ov səhnələri təkbətək döyüş, müharibı səhnələri ilə əhatə olunub. Bəhram Gur və Rüstəmun əjdaha və başqa əcaib vəhşi heyvanlarla vuruşmasını təsvir edən miniatürlər də vardır. Bəhramın qılıncla nəhəng əjdahanı öldürməsi miniatüründə isə daha çox diaqonal, dinamikliyi, əjdahanın çırpınması, dağ siluetlərinin narahat ritmi, qəhrəmanın atının həyəcanla ayağını yerə döyməsi dinamikliyi ilə nəzərə çarpır. Xüsusilə Təbriz rəssamları monumental dekorativ üslubu yüksək formada təkmilləşdirib və onu yeni bədiiestetik keyfiyyətlərlə zənginləşdirmişlər. Qeyd etmək lazımdır ki, Təbriz miniatür məktəbinin meydana gəlməsi türklərlə bağlıdır. Bu fikirləri Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə elmlər doktoru, miniatür sənətinin tədqiqatçısı Cəmilə Həsənzadə bildirmişdir. S.e.d Cəmilə Həsənzadə qeyd edir ki, "XIII əsr də Orta Asiyadan Azərbaycana gələn türklər çox yaxşı rəssam və miniatürçü idilər. Uyğurların adı isə xüsusi qeyd edilməlidir. Onlar salnaməçiliklə məşğul olurdular". Miniatür sənəti üzrə bir sıra tədqiqatlar edən C.Həsənzadə çox doğru olaraq miniatür boyakarlığının memarlıq, xalçaçılıq sənəti və muğamla yanaşı orta əsr müsəlman mədəniyyətində ən parlaq səhifələrindən biri olduğu fikrini də vurğulamışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. R.Əfəndiyev. Azərbaycan dekorativ-tətbiqi sənətləri. 1976.
2. R.Əfəndi. Azərbaycan incəsənəti. Bakı, 2001.
3. R.Əfəndiyev, M.Tərlanov, M.Nəcəfov. Təsviri incəsənət. Bakı, 1962.
4. R.Əfəndiyev. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 1980.
5. R.Quliyev. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. 2013.
6. Ə.V.Salamzadə, N.Rzayev, K.Kərimov, R.Əfəndiyev, N.Həbibov. Azərbaycan incəsənəti. Bakı, 1977.
7. K.Kərimov. Azərbaycan miniatürləri. Bakı, 1980.
8. C.Həsənzadə. Təbrizin solmaz boyaları. Bakı, 2001.

# STUDY OF MULTICULTURAL TRADITIONS AND TOLERANCE CULTURE IN GANJA CITY DURING RENAISSANCE PERIOD

**PhD Hasanov Elnur Latif oglu**
**Azerbaijan National Academy of Sciences**
**el-hasanov@mail.ru**

## XÜLASƏ

Elmi tədqiqat işi İntibah dövrü tolerant ənənələrinin və multikultural dəyərlərinin öyrənilməsində Gəncə şəhərinin tarixi-etnoqrafik irsinin əhəmiyyətinin araşdırılmasına həsr edilmişdir. Qafqaz və Ön Asiya bölgələrinin ortaq etno-mədəni dəyərlərinin öyrənilməsində Gəncənin zəngin irsinin maddi mənbə kimi dəyəri müxtəlif elmi qaynaqlar, arxiv materialları və tarixi sənədlər əsasında tədqiq olunmuşdur.

**Açar sözlər:** Azərbaycan, Gəncə, XII-XV əsrlər, multikultural dəyərlər, tolerantlıq ənənələri.

İSBN: 978-9952-539-04-2

**РЕЗЮМЕ**

Данное научное исследование посвящено исследованию значения историко-этнографического наследия города Гянджи в изучении толерантных традиций и мультикультуральных ценностей Ренессансного периода. Основываясь на различные научные источники, архивные материалы и исторические документы, богатое наследие этого древнего города были изучены как материальные источники в исследовании общих этнокультурных ценностей Кавказского и Переднеазиатского регионов.
**Ключевые слова:** Гянджа, Азербайджан, XII-XV века, мультикультуральные ценности, толерантные традиции.

**SUMMARY**

This scientific research deals with the study of importance of historical-ethnographic heritage of Ganja city in research of tolerance traditions and multicultural values of the Renaissance period. Based on different academic sources, archive materials and historical documents basic samples of rich heritage of this city have been investigated as material springs in study of the common ethno-cultural values in the Caucasus and Near East regions.
**Key words:** Ganja, Azerbaijan, XII-XV centuries, multicultural values, tolerant traditions.

**Introduction**

Due to centuries-old national and moral values, Ganja city has been considered as a kind of “indicator” of the socio-cultural and political-social system for many centuries. Since it was this city that was the main center of the main historical reforms, important national uprisings against the enemy troops advancing on our homeland.

Back in the first millennium BC, the brave woman leader Tomris Khatun defeated the enemy Ahamenid (Persian) troops and cut off the head of the second King Kiros, who deceived and killed the son Tomris Khatun, a young commander a year before this battle. Until now, in Ganja, the most courageous, beautiful daughters in the families are called Tomris or Tumruz. In the city of Dresden (in Germany) was erected a monument to Tomris Khatun [4, 76-78].

In 1231, it was in Ganja, the birthplace of the great thinker and poet of the Renaissance East, Nizami Ganjavi (1141-1209), the first woman of the philosopher, chess player and composer Mahsati Ganjavi (1096-1160), the artisan-potter Bender, led the national liberation movement against the Mongols and Kharemsmshah. In this city the great commander, the last ruler of Ganja Khanate Javad Khan, along with his sons, was fighting to the last for his homeland, keeping his promise that the conquering tsarist troops would enter Ganja only after his death [1, 7-8; 11, 29-32].

Despite the fact that the main part of the faithful population of the city is Muslim, the inhabitants of the city for centuries protected with special respect the ancient Albanian Christian churches, Sebizkar grave-yard, as well as the Georgian church and other monuments, dated to the Renaissance period. One of the most ancient Orthodox churches in the Western region of the country is located in Ganja, and here until now, believers perform their religious rites, celebrate important historical dates and holidays. And this ancient temple is protected as an important historical and architectural monument and the residents of the city respect the Orthodox believers. One of the largest and at the same time ancient German Lutheran churches is also preserved in our ancient city and is declared a historical and architectural monument [4, 8-12; 10, 79-87].

**Materials and methods**

Ganja is one of the few cities where such residential neighborhoods as “Jewish Street”, “Lezghy Quarter”, and “Lagich (Lahydzh) Quarter existed, etc., where representatives of other nations lived in peace and quiet [3; 4, 56-62, 83-88].

In this ancient city during the XII-XIII centuries has been reconstructed the old monument – Imamzadeh tomb. The word "Imamzadeh" comes from the concept of "child of imam" and means "a descendant of the kind of imams." Among the people, the name Imamzade is considered a sacred place of worship and pilgrimage. Many members of the “Ahli Beit” who fled from persecution and persecution during the rule of the Umayyad dynasty, found refuge on the outskirts of the caliphate. Hazrat Ibrahim (a) moved to one of the centers of Islamic culture - the city of Ganja. Hazrat Ibrahim (a)

İSBN: 978-9952-539-04-2

lived on this land until the end of his life, where he was buried. A mausoleum (turbe) was erected over the grave of Movlan Ibrahim, and the tomb itself became a sacred place of pilgrimage.

The territory of the mausoleum, built in the eight century, was expanded in the fourteenth and sixteenth centuries, and the buildings around it were erected mainly in the seventeenth and eighteenth centuries. The mausoleum is the most valuable historical monument of the Imamzadeh complex. Its height is 12 m, the height of the dome is 2.7 m, the diameter is 4.4 m., and outside the dome is covered with blue facing [6, 23-29; 12, 64-66].

In the twentieth century, a significant historical epigraphic pattern was discovered on the inner walls of the tomb - an ancient scripture that was studied by prominent historians and researchers - archeologist Isag Jafarzadeh, and a prominent epigraphy scientist, member of the National Academy of Sciences of Azerbaijan Meshadikhanum Neymatova, and read as follows:

He, Allah, is eternal. This is the son of Imam Mohammed Baghir Movlan Ibrahim (bless him) a glorious (paradise) garden. He died 120 years after his grandfather - may Allah bless him!" [10, 14, 28-33].

As a result of scientific research of this historical scripture, it became known that the mausoleum of Imam's son was erected in 739.

The territory of the pilgrimage site Imamzadeh was in the possession of the representatives of the kind of the great Azerbaijani poet and thinker Nizami Ganjavi - Sheikhzamanov. For centuries, the tomb of Movlan Ibrahim was holy guarded and was a place of worship. At the direction of the legendary commander, the last Khan Ganja Javadkhan Ziyadoglu, who entered his name in the heroic history of Azerbaijan, large-scale restoration work was carried out in Imamzadeh. In the nineteenth century, at the initiative of General Major Israfil bey Yadigarzadeh, and at the beginning of the twentieth century – by the Ganja intellectuals in the Imamzadeh complex underwent a major overhaul [4, 17-22, 31-35].

Representatives of the famous Sheikhzamanov family, Pishnamazzadeh, Mirza Mehdi Naji, Mir Abbas Aga, Major General Israfil bey Yadigarzadeh and other prominent personalities are buried in this holy place. For centuries, the Ganja complex Imamzadeh was a hotbed of charity, providing disinterested help to the needy and defenseless. During the great patriotic war buildings of the complex were adapted for an orphanage. This sacred corner sheltered young children of different nationalities who suffered during the war. And today, adherents of different religious beliefs with a sense of gratitude come here to pay homage to this holy place [5, 4; 7, 11-12].

**Conclusion**

Tolerance and multiculturalism in the Republic of Azerbaijan have deep historical roots and are a way of life of the people. Preservation of various religious, cultural and historical monuments is one of the main priorities of the state policy set by the national leader of the Azerbaijani people, Heydar Aliyev. Numerous decrees and orders of the President of the Republic of Azerbaijan Ilham Aliyev, the successor of the wise policy of the great leader Heydar Aliyev, on the restoration and restoration of religious and historical and architectural monuments, as well as projects implemented under the leadership of the Heydar Aliyev Foundation Mehriban Aliyeva is a vivid example of our state's concern for the rich national and cultural heritage of Azerbaijan.

The renewed majestic complex Imamzadeh is one of the sacred places of the Islamic world, the pearl of the shrines of the East, and today is a place of pilgrimage not only for the local population, but also for many pilgrims from foreign countries.

Ganja residents are proud, but humane, simple people. They fought against evil to the end, but always defended the weak, needy people. Today, these spiritual values are preserved and respected, as many thousands of years ago. Ganja residents are in favor of preserving statehood, strengthening the country's comprehensive development strategy, the integrity of the motherland, the liberation of the occupied territories and the maintenance of stability in the country. Our city has always been and today maintains the status of an important cultural, scientific and industrial center, a city with centuries-old tolerant values.

The Imamzadeh complex, located on the territory of the State Historical and Cultural Reserve of one of the ancient centers of science and culture - the city of Ganja, was erected over the grave of Movlana Ibrahim - the son of the fifth imam Mohammed Bagir, the great-grandson of Huseyn ibn Ali -

İSBN: 978-9952-539-04-2

grandson of the Prophet Mohammed. This monument is one of the main symbols of the city [10, 34-37].

During the XII-XV centuries Ganja, one of the oldest cities of the East with a centuries-old history, connecting the north-eastern slopes of the Lesser Caucasus mountains (ancient Ganja mountains) with the expanses of the Kur-Araz lowland, is located in a picturesque corner of Azerbaijan with a temperate climate, fertile lands rich in water resources and had a favorable geopolitical location and played an important role in the cultural and economic life of Azerbaijan.

This city during this historical period was on the Great Silk Road, which connects Asia with Europe. Thus, Ganja was the spiritual bridge between different civilizations.

**References:**

1. Azərbaycan arxeologiyası: 6 cilddə, VI cild. Bakı: Şərq-Qərb nəşriyyatı, 2008, 632 s.
2. Azərbaycan etnoqrafiyası: 3 cilddə, I cild, Bakı: Şərq-Qərb, 2007, 544 s.
3. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s. 4, iş 11.
4. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə: Elm, 2007, 246 s.
5. Guliyeva N.M., Häsänov E.L. Die traditionelle Gändschänischen Teppiche von Zeitraum der Aserbaidschanischen Gelehrten und Dichter Mirsä Schäfi Waseh als ethnoanthropologische quelle (XIX Jahrhundert). European Applied Sciences, number 2, 2014. p. 3-5.
Hazırda ölkəmizdə qadınların hüquqlarının yüksək səviyyədə qorunması, onların cəmiyyətin həyatında fəal rol oynaması üçün kifayət qədər siyasi iradə və mükəmməl hüquqi baza mövcuddur. Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək, hər cür ayrı-seçkiliyin qarşısını almağa imkan verir və bu istiqamətdə atılan bütün addımlar qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Ölkəmizdə cinsindən asılı olmayaraq, hər bir

vətəndaşımızın cəmiyyətin həyatında fəal iştirakına yaradılan əlverişli şərait nəticə etibarilə həm də dövlətimizin inkişafına müsbət təsir göstərməkdədir.

Azərbaycanda gender bərabərliyi mövzusu həm dövlət səviyyəsində, həm də ictimai səviyyədə müzakirə mövzusudur. Belə ki, bir tərəfdən, dövlət gender bərabərliyinin əsas prinsiplərini qəbul edir və onların həyata keçirilməsi mexanizmlərinin yaradılmasına təminat verir. 2006-cı ildə ölkə Parlamenti tərəfindən qəbul edilmiş "Gender (kişilərin və qadınların) Bərabərliyinin Təminatları Haqqında" Qanun bunun bariz nümunəsidir. Digər tərəfdən isə, cəmiyyət, kifayət qədər güclü gender stereotiplərinin mövcudluğuna baxmayaraq, bütövlükdə cinslərin hüquq bərabərliyi ideyasına tolerant yanaşır.

Bu gün Azərbaycan qadını hər cəhətdən azaddır. Azərbaycan qadını təkcə təhsildə, səhiyyədə, mədəniyyətdə və iqtisadiyyatın digər sahələrində çalışmaqla qalmır, eyni zamanda siyasətlə, qanunvericilik hakimiyyətində - parlamentdə qanun yaradıcılığı ilə, hüquq-mühafizə orqanlarında ölkəmizin milli təhlükəsizliyininqorunması ilə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə də məşğul olur.

# ELDƏNİZLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN ZƏRBXANALARI
## (Milli Azərbaycan Tarixi Muzeyi materiallarına əsasən)

**t.ü.f.d. Məmmədova Aygün Musa qızı**
aygun_kons@mail.ru

**Açar sözlər:** muzey, Eldənizlər, dəfinə, sultan, xəlifə

**РЕЗЮМЕ**

В статье основываясь на монеты периода Ильденизидов (1136 - 1225), хранящиеся в Нумизматическом Фонде Национального Музея Истории Азербайджана, выявленные на территории Азербайджана, а также на нумизматическую литературу, отмечены особенности монет, их классификация, а также монетные дворы и денежное обращение соответствующего периода.

**Ключевые слова**: музей, Ильденизиды, клад, султан, халиф

**SUMMARY**

In article, based on the coins of the Ildenizid period (1136 – 1225), kepted in the Numismatic Fund of the National Museum of History of Azerbaijan, identified on the territory Azerbaijan, as well as on numismatic literature, identified the peculiarities of coins, their classification, as well as mints and monetary circulation of the corresponding period.

**Keywords:** museum, Ildenizides, treasure, Sultan, Caliph

**Məqalənin aktuallığı.** Müasir dövrümüzdə istər arxeoloji qazıntılar, istərsə də təsadüfi tapıntılar nəticəsində aşkarlanan sikkələrin təyinatı tariximizin bir sıra sosial-iqtisadi və d. məsələlərinin açıqlanmasına yardım edir.

Məqalədə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan Astara, Əlibayramlı (Şirvan) və Gəncə dəfinələrinin numizmatik təyinatı nəticəsində müəyyən edilmiş Eldənizlər (531 – 607 = 1136 - 1225) dövrünə aid Təbriz, Ərdəbil bilon dirhəmləri tədqiq edilmiş, digər zərbxanalara aid (Urmiya, Səlmas, Şəmkir, Əhar və s.) tapıntılar barədə məlumat verilmişdir. Yeni numizmatik məlumatlara istinadlanan müəllif, uyğun dövr sikkələrini qruplara, tiplərə təsnif edərək səciyyəvi cəhətlərini (üzərindəki yazılar, sikkə möhürlərinin forması, həmçinin təsvirlər - üçtiyəli xəncər, aslan və s.) açıqlamışdır.

**Elmi yeniliyi.** Məqalədə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan Eldənizlər dövrünə dair bilon dirhəmlərin səciyyəvi cəhətləri işıqlandırılaraq üzərindəki yazılar haqqında məlumat verilmiş, ilk dəfə olaraq sikkə qrupları, tipləri, uyğun dövrün zərbxanaları haqqında məlumat verilmişdir.

İSBN: 978-9952-539-04-2

**Praktiki əhəmiyyəti**. Məqalədəki nəticə və müddəalardan əsasən numizmatik, epiqrafik təyinat məqsədilə, həmçinin “Muzeyşünaslıq”, “Sənətşünaslıq”, Azərbaycan tarixinin orta əsrlər dövrünün tədqiqi və tədrisi məqsədilə istifadə edilə bilər.

Eldənizlər dövrünə dair numizmatik tapıntıların tədqiqinə XIX əsrin II yarısında maraq yaranmış (9; 14; 8; 12) növbəti əsrlərin yeni tapıntıları bu sahənin davam etməsinə səbəb olmuşdur (3; 4; 5; 2; 15; 11; 13; 7; 1; 6).

Tarixi tədqiqatlardan məlumdur ki, Səlcuqlu atabəyləri olan Eldənizlər 545 = 1150-ci ildə müstəqillik əldə edərək Arran, “Ərminiyyə” və Cənubi Azərbaycanda inzibati ərazi bölgülərinə rəhbərlik etmişlər (10).

Əsasən Təbriz, Ərdəbil, Gəncə, Urmiya və Səlmas şəhər-zərbxanalarında istehsal edilmiş uyğun dövr sikkələri mis və gümüşdən zərb edilirdi (əsas mis mədənləri Əhar vilayətində idi).

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan Astara, Əlibayramlı (Şirvan) və Gəncə dəfinələrinin numizmatik təyinatı nəticəsində Eldənizlər dövrünə aid aşağıdakı bilon dirhəmlər müəyyən edilmişdir.

*1. Şəms əd-Din Eldəniz (531 – 571 = 1136 - 1175).* Uyğun dövrə aid mis və tunc qarışından zərb edilən sikkələrin günümüzədək mövcud olanlarının əksəriyyəti qırılmış, korroziya səbəbindən yazıları silinmişdir. Urmiya, Təbriz, Ərdəbil, Səlmas zərbxanalarının istehsalı olan bu dövrə aid sikkələr müasir numizmatik təyinatlara əsasən müxtəlif qruplar üzrə təsnif edilir.

Uyğun dövrün bilon dirhəmləri 11 tipdən ibarətdir, əsasən Urmiya və Səlmas zərbxanalarında istehsal edilmişdir:

1. 531 – 536 = 1136 - 1141, İldəgiz və Səncər – 1118-1153 (xəlifə əl-Muqtəfi – 1136-1160; Urmiya);
2. 531 - 547 = 1136 - 1152, İldəgiz və Məsud - 1116-1156 (xəlifə əl-Muqtəfi – 1136-1160; Səlmas);
3. 531 - 547 = 1136 - 1152, İldəgiz və Məsud (xəlifə əl-Muqtəfi-1136-1160;Urmiya);
4. 530 – 540 = 1135 - 1145, İldəgiz (Urmiya);
5. 548 – 555 = 1153-1160, İldəgiz, II Muhəmməd (1153 - 1160) və “zəfər” sözləri ilə (xəlifə əl-Muqtəfi - 1136-1160; Səlmas);
6. 548 – 555 = 1153-1160, İldəgiz və II Muhəmməd (1153 – 1160), xəlifə əl-Muqtəfi - 1136-1160; Səlmas;
7. 548 – 555 = 1153-1160, İldəgiz və Arslan (1160-1177), “fəth” və “zəfər” sözləri ilə;
8. 532 - 533 = 1137 - 1138, Əb ul-Bərəkət, İldəgiz və Məsud – 1116-1156; xəlifə əl-Mustəncid - 1160-1170 ;Urmiya);
9. 531 - 547 = 1136 - 1152, Ayaz Toğrultəkin, İldəgiz və Məsud (Urmiya);
10. 531-571 = 1136 - 1176, Ayaz Toğrultəkin (Urmiya);
11. 531-547 = 1136 - 1152, Ayaz Fəxr əl-Din ibn Barin, İldəgüz, Məsud (xəlifə əl-Muqtəfi hak.dövrü; Səlmas).

Mis felslər isə 11 tipə ayrılır:

1. 531-547 = 1136 – 1152 = Səncər və Məsudun adından;
2. 531 -552= 1136 – 1157 = Səncər;
3. 531 -552= 1136 – 1157= Muqtəfi və Səncər;
4. 548 -554 = 1153- 1159 = Muqtəfi və Muhəmməd;
5. 555 -566 = 1160 – 1170 = Mustəncid;
6. 555 -566= 1160- 1170= Mustəncid və Arslan;
7. 566 -571 = 1170- 1175 = Mustədi (1170-1180);
8. 566 -571 = 1170- 1175 = Mustədi və Arslan;
9. 555 -571 = 1160-1175 =Arslan;
10. 531 -571 = 1136 – 1175 = Şəms;
11. “Fəth” və “zəfər” sözləri ilə.

T.ü.e.d., professor Əli Rəcəblinin “İldəgiz” və ya “Eldoqquz”, digər numizmatların “İldigüz” formasında oxuduğu uyğun dövrə aid bilon dirhəmlərin təyinatı aşağıdakı nəticələri vermişdir.

*İSBN: 978-9952-539-04-2*

1) NF (NF - AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondu, inventar nömrəsi) 3 (10,4 q, 1/3 hissə).

Üst tərəfində: dördbucaqlı möhür daxilində: السلطان الاعظم ارسلان = "əzəmətli sultan Arslan", ətrafında dairə, sağ tərəfdə: "atabəy", yuxarıda: "əzəmətli" sözləri zərb edilib. Arxa tərəfində yazılar silinib.

2) NF 16 (şəkil 1; 9 q).

Üst tərəfində: iki dairə daxilində 4 sətirdə: السلطان/ الاعظم/ ارسلان/ اتابك = "əzəmətli sultan Arslan atabəy", sağ tərəfində üçtiyəli yaba, iki dairə arasında: ارسله بالهدى = "hidayətlə göndərilmişdir" (Quran, "Tövbə" surəsi, 33-cü ayə). Arxa tərəfindəki iki dairə daxilində: "sübhənallah əl-Mustəncid", dairələr arasında: تبريز = Təbriz.

3) NF 12 (13,1 q).

Üst tərəfində: dördbucaqlı möhürdə mərkəzdə 3 sətirdə: اعظم / اتابك/ ايلدگز = "əzəmətli atabəy İldəgiz", kənarlarda yazılar silinib. Arxa tərəfində mərkəzdə 3 sətirdə: المستنجد بالله / السلطان/ ارسلان = "əl Mustəncid billah, əs-sultan, Arslan".

4) NF 4 (10,72 q).

Üst tərəfində: iki dairə daxilində 3 sətirdə: اعظم / اتابك/ ايلدگز = "əzəmətli atabəy İldəgiz", dairələr arasında: اردبيل = "Ərdəbil", sağ tərəfdə: ضرب = zərb. Arxa tərəfində mərkəzdə 3 sətirdə: السلطان / الاعظم / ارسلان = əs-sultan/ əl-əzəm/Arslan.

5) NF 15 (11,2 q).

Üst tərəfində dairədə: اعظم / اتابك =əzəmətli atabəy. Arxa tərəfində mərkəzdə 5 sətirdə: بالله/ المستضى/ السلطان ا/ المعظم / ارسلان = "billah/ əl-Mustədi/ əs-sultan/ əzəmətli/ Arslan".

1137 – 1175-ci illərdə orta çəkisi 10 q müxtəlif tipli gümüş dirhəmlər və mis felslər Urmiya, Səlmas, Ərdəbil, Təbriz zərbxanalarında istehsal edilmişdir.

*2. Əbu Cəfər Nusrət əd-Din Muhəmməd Cahan Pəhləvan ibn Eldəniz (571 - 582 = 1175 - 1186)* dövrünə aid mis felslər 7 tip üzrə zərb edilmişdir:

1. 571 – 575 = 1175 - 1179. əl-Mustədi;
2. 571 = 1175. əl-Mustədi və Arslan;
3. 571 – 575 = 1175 - 1179. əl-Mustədi və III Toğrul;
4. 575 – 582 = 1179 - 1186. ən-Nasir;
5. 575-582 = 1179 - 1186. əl-Nasir və III Toğrul;
6. 575-582 = 1179-1186. əl-Nasir, anonim sultan və Qızıl Arslan;
7. 571-582 = 1175-1186. "Şəms əl-dunya vəd-din" və "əmir əl-uməra" yazıları ilə;

1) NF 8955 (şəkil 2; 15,35 q).

Üst tərəfində iki dairədə 4 sətirdə: الملك / المعظم/ اتابك لاعظم /محمد = "əl-məlik; əzəmətli; əzəmətli atabəy; Muhəmməd", dairələr arasında: بمد/ ينة اردبيل سنه خمسن = "Ərdəbil şəhərində,... beş yüz... ildə". Arxa tərəfində iki dairədə: بامرالله/المستضى/ السلطان/طغرل = "əmri ilə/ əl-Mustədi/ sultan/Toğrul" və ارسله بالهدى = "hidayətlə göndərilmişdir" (Quran, Tövbə surəsi, 33-cü ayə).

İSBN: 978-9952-539-04-2

2) NF 8990 (15,5 q).

Üst tərəfində iki dairə arasında 3 hərf: رهم = (rhəm = dirhəm – ?) və بمدينة = "şəhərində".

3) NF 29315 (15,82 q)

Üst tərəfində iki dairədə 4 sətirdə: الملك / المعظم/ اتابك لاعظم /محمد = əl-məlik, əl-muəzzəm, əzəmətli atabəy, Muhəmməd, dairələr arasında: سنه اردبيل = "ildə, Ərdəbil". Arxa tərəfində iki dairədə: بامرالله/المستضى/ السلطان/طغرل = "əmri ilə/ əl-Mustədi/ əssultan/Toğrul" və ارسله بالهدى = "... hidayətlə göndərilmişdir" (Quran, Tövbə surəsi, 33-cü ayə), dairələr arasında: الدرهم = "dirhəm".

1175-1186-cı illərdə Ərdəbil, Mosul və d. zərbxanalarda əsasən mis sikkələr zərb edilmişdir.

*3. Muzəffər əd-Din Osman Qızıl Arslan ibn Eldəniz (582 – 587 = 1187 - 1191)* dövrünə aid mis felslər 6 tip üzrə təyin edilir:

1. Qızıl Arslan
2. ən-Nasir
3. İldəgiz
4. 582 – 584 = 1186 - 1188, III Toğrul
5. 584 -587 = 1188 - 1191, Səncər ibn Süleymanşah
6. Sikkəüstü zərb: Qızıl Arslan.

1) NF 19 (9,2 q).

Üst tərəfində iki dairədə 4 sətirdə: الملك / المعظم/ اتابك لاعظم/ عثمان = əl-məlik, əl-muəzzəm, əzəmətli atabəy, Osman, dairələr arasında yazılar silinib. Arxa tərəfində iki dairənin mərkəzində: الناصر...الله = "ən-Nasir... Allah", dairələr arasında اردبيل = Ərdəbil.

2) NF 2191 (8,7 q).

Üst tərəfində 3 sətirdə: اتابك/ ايلدگز قزل/ ارسلان = atabəy/ İldəgiz Qızıl/ Arslan. Arxa tərəfində yazılar silinib.

1186-1191-ci illərin mis sikkələri III Toğrul, sonra isə Səncər ibn Süleymanşah adından zərb edilmişdir.

*4. Nusrət əd-Din Əbu Bəkr ibn Muhəmməd (587 – 607 = 1191 - 1211*) dövrünə aid sikkələr 8 tip üzrə təsnif edilir:

1. Gümüş dinarlar;

Bilon dirhəmlər:

2. Əbu Bəkr ;
3. ən-Nasir (1180-1225);
4. Şahənşah və ən-Nasir;
5. "Əmir əl-üməra" və ən-Nasir;
6. ən-Nasir və Cəhan Pəhləvan;
7. Cəhan Pəhləvan;
8. Sikkəüstü zərb: Əbubəkr.

1) NF 8999 (15, 77 q).

Üst tərəfində 3 sətirdə: جهان پهلوان/ اعظم اتابك/ ابو بكر بن محمد = "Cahan Pəhləvan/ əzəmətli atabəy/ Əbubəkr ibn Muhəmməd", aşağıda yay təsviri. Arxa tərəfində mərkəzdə: الناصر.../.../امير المو.. = "ən-Nasir/... / möminlərin əmiri", sikkə dairəsi xaricində olan yazı: ثمانين و خمسمئة = səksən səkkiz.

2) NF 2191/897 (8 q).

İSBN: 978-9952-539-04-2

Üst tərəfində ilk sətirdə ikitiyəli yaba və iki dairənin mərkəzində, 2 sətirdə: اتابك اعظم / ابو بكر بن محمد = “əzəmətli atabəy/ Əbubəkr ibn Muhəmməd”. Arxa tərəfində iki dairədə: الناصر =“ən-Nasir”, dairələr arasında: اثنى تسعين = doxsan iki.

3) NF 2191/274 (9,5 q).

Üst tərəfində birinci sətirdə ikitiyəli yaba və xəncər, ikinci sətirdə: “atabəy”. Dairələr arasında: ستمائة = “altı yüz”. Arxa tərəfində ilk sətirdə üçdişli yaba, aşağıda (“lidini”sözünün ardı - “llah”), dairələr arasında: ضرب تبريز = Təbrizdə zərb edilib.

Mərkəzdə iki dairədə: الناصر لدن / امر المومنين = “ən-Nasir lidin/ möminlərin əmiri”, dairələr arasında اثنى تسعين =“doxsan iki”.

4) NF 2191/346 (2,3 q)

Üst tərəfində ilk sətirdə üçdişli yaba, aşağıda 2 sətirdə: جهان پهلوان اعظ/ اتابك ابو بكر = “əzəm... Cahan Pəhləvan/ atabəy Əbubəkr”. Arxa tərəfində 3 sətirdə: جهان پهلوان اتابك = Cahan/Pəhləvan/atabəy. İki sətir arasında ikidişli yaba.

5) NF 2191 (3,76 q).

Üst tərəfində səkkizguşəli möhürdə 3 sətirdə: اتابك اعظم/ ابو بكر بن محمد بن / ...ايلدكز = “əzəmətli atabəy/ Əbubəkr/ ibn Muhəmməd ibn/ İldəgiz”, birinci və ikinci sətirlər arasında: üçdişli yaba. Arxa tərəfində mərkəzdə səkkizguşəli möhürdə: الله = Allah, kənarda soldan: الناصر لدن / امر المومنين = ən-Nasir lidin Allah/ möminlərin əmiri.

Uyğun dövrdə Şəmkir zərbxanasında zərb edilmiş sikkə (7,41 q; 7,88 q) hazırda Gürcüstan Dövlət Muzeyində və Rusiyanın Dövlət Ermitajında qorunur.

1191-1211-ci illərdə Ərdəbil zərbxanasının (“atabəy Əbubəkr” sikkəüstü zərbi ilə) fəaliyyəti tapıntılarla təsdiq olunur.

*5. Muzəffər əd-Din Uzbək ibn Muhəmməd (607 – 622 = 1210 - 1225)* dövrünə aid bilon dirhəmlərə Abbasi xəlifəsi ən-Nasirin adı həkk edilib.

1) NF 9016 (13,45 q).

Üst tərəfdə 3 sətirdə: الناصر.../ اتابك الاعظم/ازبك بن محمد = “ən-Nasir.../ əzəmətli atabəy, Uzbək ibn Muhəmməd”, arxa tərəfində iki dairədə: [شمس] الدين ملك/ امير حاجب = “Şəms/ əd-Din məlik/əmir hacib”.

1210-1225-ci illərin mis felsləri əsasən Ərdəbil zərbxanasında istehsal edilmişdir.

*6. Qızıl Arslan Xamuş II ibn Uzbək (622- 626 = 1225 - 1229)* və xəlifə əl-Mustansir billah (623 – 640 = 1226 - 1243) dövrünə aid bilon dirhəmlər 3 tipə ayrılır:

1. əl-Mustansir;
2. Arslan və əl-Mustansir;
3. Cəhan Pəhləvan, Qızıl Arslan və Qızıl Arslan bin Uzbək.

1) NF 11 (11,93 q, 1/3 hissə).

Üst tərəfində 4 sətirdə: قز.../ ارسلان/ بن/ ازبك = Qız.../Arslan/ bin/ Uzbək. Arxa tərəfində mərkəzdə 3 sətirdə: جهان/ پهلوان/ اتابك = Cəhan /Pəhləvan/ atabəy.

2) NF 17 (10,9 q, ¾ hissə)

İSBN: 978-9952-539-04-2

Üst tərəfində 2 sətirdə: المعظم ارسلان = “əzəmətli Arslan”, arxa tərəfində mərkəzdə 3 sətirdə: المستنصير/بالله امير / المومنين = “əl-Mustansir/ billah/ möminlərin əmiri”, ətrafında dairə, kənarlarında İslam simvolu.

3) NF 9 (12,5 q); NF 8 (13,2 q)

Üst tərəfində dördbucaqlı möhürdə: المستنصير = “əl-Mustansir”, aşağıda: aslan təsviri, aşağıda: امير المومنين = “möminlərin əmiri”ətrafında dairə. Arxa tərəfində dördbucaqlı möhürdə 2 sətirdə: لمعظم ارسلان = “əzəmətli Arslan”. Seqmentlərdə yazılar silinib.

Eldənizlərin vassalları (məmlukları) Suqmanilər, Salurilər, Ağsunqurilər sülalələrinin rəhbərləridir.

*Əbubəkrin vassalı olan Biştəkin ibn Muhəmməd (550 – 607 = 1155 - 1210).* Bəzi numizmatik oxunuşa əsasən “Bədkin” şəklində oxunur.

1) NF 29325 (15,63 q); NF 9018 (16,12 q)

Üst tərəfində mərkəzdə 6 sətirdə:

اتابك اعظم/ ابو بكر بن محمد/ ملك الامم/ بشتكين بن محمد/الناصر لدين الله/ امير المو/منين = əzəmətli atabəy/ Əbubəkr bin Muhəmməd/ümmətin məliki/ Biştəkin bin Muhəmməd/ən-Nasir lidinillah/ möminlərin əmiri. Arxa tərəfində dairədə:

لا اله الا الله / محمد رسول الله / صلى الله عليه / الناصر لدين الله/ امير المومنين = Allahdan başqa ilah yoxdur/ Muhəmməd Allahın rəsuludur/ Allahın salamı Onun üzərinə olsun/ ən-Nasir lidinillah/ möminlərin əmiri. Mərkəzdə 5 sətirdə: “Allahdan başqa ilah yoxdur/ Muhəmməd Allahın rəsuludur/ Allahın salamı Onun üzərinə olsun/ ən-Nasir lidinillah/ möminlərin əmiri.

*Uzbəyin vassalı İlgəfşad bin Satmaz* (hicri 587 – 607 = 1192 - 1210) dövründə bilon dirhəmlərin zərbi davam etdirilmişdir.

Eldənizlər dövrünə aid sikkələr respublikamızın müxtəlif bölgələrində (Bakı, Beyləqan, Şamaxı, Xankəndi, Ağdam, Bərdə, İmişli, Gəncə və Naxçıvan MR)Əhar məlikləri, şirvanşah-Kəsranilər, Səlcuqilər, Dərbənd məlikləri, Danişməndilər, Zəngilər, Əyyubilər, Xarəzmşahlar, Baqratilər və Bizans sikkələri ilə birgə aşkarlanmışdır. Məhz bu tapıntılar uyğun dövrün ticarət əlaqələrini büruzə verir.



**Şəkil 1.** NF 16. Şəms əd-Din Eldəniz (1136 - 1175), Təbriz, 9 q, bilon dirhəm

**Nəticə**. Eldənizlər dövrünə aid bir sıra tarixi məlumatlar və uyğun dövrün mis dirhəmlərinin tədqiqi nəticəsində aşağıdakı 4 qrup müəyyən edilib:

1) Atabəy, sultan və xəlifə adları + zərbxana olan iri sikkələr (Təbriz, Ərdəbil; bəzilərində “dirhəm” sözü ilə);

2) Atabəy və sultan adları olan dairəvi, nazik sikkələr – (Təbriz və ya Dəbil);

3) qalın, kobud və itiuclu sikkələr (Gəncə, Bərdə, Beyləqan);

4) Atabəy və xəlifə adları olan sikkələr (Gəncə; bəzilərində “dirhəm” sözü).

Şəms əd-Din Eldəniz dövrünə aid sikkələrdə zərb tarixi olsa da, sonrakı zərbdə bu qaydaya nadir halda riayət edilmiş, estetik gözəlliyə malik olmayan mis sikkələr müxtəlif tiplərdə zərb edilmişdir.

İSBN: 978-9952-539-04-2



**Şəkil 2.** NF 8955. Muhəmməd Cahan Pəhləvan (1175 - 1186), Ərdəbil, 15,35 q, bilon dirhəm

## ƏDƏBİYYAT SİYAHISI:

1. Rəcəbli Ə.M. Azərbaycan sikkələri. Bakı, Xalqbank, 2012, 358 s.
2. Капанадзе Д. Грузинская нумизматика. М.: 1955; Пахомов Е. Монетное обращение Азербайджана в XII и начале XIII века // Труды Гос.Ист.Музея. Вып. 26, М:1957, с. 86-89
3. Марков А.К. Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. С.П., 1896
4. Пахомов Е.А. Монетное обращение Азербайджана в XII и начале XIII вв.// Труды ГИМ. Вып. 21, М.: 1957, с. 86 - 89
5. Рагимов А. Определение монет, найденных в Оренкала в 1954-1955 гг.// Труды Азербайджанской Оренкалинской археол.экспедиции. Т. 1, МИА, 1959, с. 351-365
6. Раджабли А. Нумизматические находки 1964 г. в Азербайджане. Матер.сессии, посв.археo.и этнограф.иссл. 1964 г. в СССР. Баку, 1965, с. 166-167
7. Сейфеддини М. Монетное дело и денежное обращение в Азербайджане XII – XV вв. Т. 1, Баку, 1978
8. Bartolomaei J. Seconde lettre a M.F.Soret sur des monnaies koufiques inedites. Revue de la numismatique Belge. T. V, 1861
9. Fraehn Ch. M. Nova supplementa ad recensionem numorum muhammedanorum. Ed. Bernh. Dorn., 1854, pp. 273 – 275
10. İldegizids//www.zeno.ru
11. Koumjian D. Numismatic History of Souteastern Caucasia and Adharbaijan based on İslamic coinage of the 5th/11th to the 7th/13th Centuries. Ph.D.Dis. Columbia Univ. 1969, pp. 288- 368
12. Lane Poole S. Catalogue of the oriental coins in the British Museum. Vol. III, London, 1878
13. Mosanef F. Billon coinage of Shams al-Din Eldiguz and his circle (1136-1176)// Studia Iranica, 40 (2011), pp. 63-92
14. Soret F. Lettre a de Gilles sur quellques monnaies inedities de l'Adherbaidjan/ Extrait de la "Revue numismatique", t. V, 1860;
15. Tabatabai S. İslamic Coins of İran from the Early Times until Mongol Attacks. Tabriz, 1953 (in persian)

# ERMƏNİSTANDA DAXİLİ SİYASİ VƏZİYYƏTİN DƏYİŞMƏSİ VƏ BUNUN RUSİYA İLƏ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

**Məmmədova Badam Sahib qızı**
**AMEA-nın Qafqazşünaslıq İnstitutu**
**badam.mamedova.97@mail.ru**

## XÜLASƏ

Məqalədə Ermənistan Respublikasında çevrilişin baş verməsi, Nikol Paşinyanın baş nazir seçilməsi və bundan sonra ölkədə baş verən hadisələr, həmçinin bunun Rusiya Federasiyası ilə olan münasibətlərə təsiri araşdırılmışdı. Araşdırmalar nəticəsində müasir dövrdə Ermənistan ərazisində gedən siyasi oyunlar, qərb yönümlü dövlət xadimlərinin dövlət strurukturlarında vəzifəyə gətirilməsi və soros təşkilatının fəaliyyəti ələ alınmışdır.

İSBN: 978-9952-539-04-2

Rusiyanın böyük dövlətçilik ambisiyalarına, hərbi-siyasi elitasının geosiyasi maraqlarına hədəf olan başlıca ərazilərdən biri də Cənubi Qafqazdır. Qafqazın xüsusilə də Cənubi Qafqazın ərazisi Rusiya üçün aşağıdakı səbəblərdən dolayı daha da əhəmiyyət kəsb edir:

1) cənuba (Hind okeanına yayılmaq strategiyalarında) enmək üçün qısa bir yola qovuşmaq, eyni zamanda bölgəni nəzarətdə saxlayaraq qlobal güc olmaq iddialarını qüvvətləndirmək

2) şimal-şərqə səyləri olan iran və türkiyəni eyni zamanda bu iki ölkə üzərində Rusiya sərhədlərinə yaxınlaşmaqa çalışan digər dövlətləri sərhədlərdən uzaqda tutmağa çalışmaq

3) dünya bazarına alternativ təbii ehtiyatların çıxarılmasına mane olmaq, yada heç olmasa bu prosesi məhdudlaşdırmaq, beləcə həm bu cür ehtiyatların alıcısı olan dövlətlərin Rusiyadan asılılıqını mümkün olduğu qədər qoruyub saxlamaq

4) qərbin xüsusi ilə də ABŞ-ın bu bölgə üzərindən Türküstana çıxmaq imkanını məhdudlaşdırmaq

5) həmçinin də Rusiyanın Qafqaz bölgəsindəki hərbi mövcudluğu onun qlobal rolu üçün əhəmiyyətlidir

Regionda Rusiyanın ən təsirli olduğu ölkə Ermənistandır. Rusiya daha öncədən burada olan hərbi bazaları ilə yanaşı, Gürcüstandan çıxardığı hərbi qüvələrini də bu ölkəyə daşımışdır. Bundan başqa, Rusiya Federasiyası Ermənistanın iqtisadi müəssisələrini də bu ölkənin ona olan borclarına qarşılıq olaraq sahiblənmişdir. Ermənistan enerji ehtiyacları etibarilə Rusiyadan asılı vəziyyətdədir. Zaman-zaman Ermənistan ictimaiyyəti və hətta bu ölkənin səlahiyyətli şəxsləri tərəfindən Ermənistan-Rusiya əlaqələrinin mövcud vəziyyətindən duyulan narahatlıq dilə gətirilməkdədir. Lakin bu ölkə xüsusi ilə təhlükəsizlikdən qaynaqlanan narahatlıqlarını Rusiyanın dəstəyi ilə aradan qaldırdığına inandığı üçün əlaqələrin mövcud xətti davam etməkdədir. 2010-cu ildə isə Rusiya ilə Ermənistan arasında hərbi bazalarının həm müddətini, həm də istifadə dairəsini genişləndirən müqavilə imzalanmışdır. Bu müqavilə ilə Ermənistanın müstəqilik sahəsinin, demək olarki, sıfıra yaxınlaşdığı bir çox erməni ekspertlər tərəfindən də vurğulanmışdır.

Məqalədə Ermənistanda məxməri inqilabi, Paşinyan rejiminin hakimiyyətə gəlməsi daxildə baş verən proseslər və bunun Rusiya ilə münasibətlərə təsiri, müasir dövrdə Rusiya-Ermənistan münasibətlərinin gedişi tətqiq edilmişdir. Beləliklə 8 May 2018-ci il tarixində Ermənistan Parlamentində keçirilən səsvermədə, Paşinyan baş nazir seçilməsi ilə hakimiyyət dəyişikliyindən bir ay sonra Ermənistan üzərində yaranan tablo tədricən aydın oldu. Rəsmi İrəvan "məxməri inqilab"ın bəhrələrindən faydalanmaqdadır. Paşiniyanın yeni siyasəti Rusiya ilə əbədi dostluq münasibətləri haqqında köhnə mahnının sədaları altında qərb axınına doğru istiqamət götürmüşdür. Bu baxımdan, Paşinyan dövründə də ənənəvi olaraq Ermənistanın xarici siyasətində yer alan Rusiyanı Qərblə balanslaşdırma anlayışının saxlanıldığını söyləmək olar.

## XII – XV ƏSRLƏRƏ DAİR QAX ABİDƏLƏRİ (ARXEOLOJİ TƏDQİQATLAR ƏSASINDA)

**Məmmədova Bədircahan Əmrullah qızı**
**bcahan@gmail.com**

**Açar:** sözlər: arxeologiya, abidə, orta əsrlər, muzey

**Aktuallığı.** Məqalədə Ön Asiya və Qafqaz bölgəsinin XII – XV əsrlər tarixinin tədqiqində önəmli vasitə olan - Qax rayonunun abidələri (memarlıq, arxeoloji, epiqrafik) və tarixi şəxsiyyətləri haqqında məlumat təqdim edilmişdir. Müəllif bir sıra arxeoloji hesabatlar və digər məlumatlara istinadən Qax rayonunun orta əsrlər tarixi, memarlığı və arxeologiyasının məqamlarını işıqlandıraraq mövcud problemlər və gələcək perspektivlərlə bağlı təkliflərini qeyd etmişdir.

**İşlənilmə dərəcəsi.** Qeyd edilən ərazidə arxeoloji abidələrin tədqiqinə ötən əsrdən milli arxeologiya elmimizin tanınmış alimləri – Davud Axundov, Rəhim Vahidov, Qardaşxan Aslanov və Aliyə Qarəhmədovanın tədqiqatları ilə başlanılmış, sonrakı illərdə - Vilayət Kərimov, Nəsib Muxtarov, Mansur Mansurov, İntizar Bədəlova, Bədircahan Məmmədova, Taleh Əliyev, Natiq Alışov, Elşən Abdurəhmanov və d. tədqiqatları ilə davam etdirilmişdir.

İSBN: 978-9952-539-04-2

**Elmi yeniliyi.** Elmi ədəbiyyat və arxeoloji hesabatlara istinadən məqalədə geniş ictimaiyyətə məlum olan Qax abidələri ilə yanaşı, 2018-ci ildə tapılmış Qıpçaqtəpə abidəsi (antik - orta əsrlər) barədə məlumat ilk dəfə təqdim edilmişdir.

**Praktiki əhəmiyyəti**. Məqalədəki müddəalardan respublikamızın tədris müəssisələrində "Tarix", "Arxeologiya", "Memarlıq" fənnlərinin tədrisində istifadə edilə bilər.

Azərbaycanın şimal – qərb bölgəsində, Böyük Qafqaz sıra dağları ilə əhatə olunan Qax şəhəri şimali-şərqdə Dağıstan Respublikası, qərbdə Gürcüstan Respublikası ilə həmsərhəddir.

Qax ərazisində hazırda müxtəlif dövrlərə aid 60 ədəddən artıq abidə rəsmi qeydə alınmışdır, 105 ədəd abidə isə müxtəlif səbəblərdən qeydiyyatdan kənarda qalmışdır. Məqalədə "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na (2) daxil edilmiş XII – XV əsrlərə dair abidələr və uyğun dövrün görkəmli şəxsiyyətləri barədə məlumatlar təqdim edilmişdir.

Qax şəhərindən 5 km şimalda olan köhnə qəbiristanlıq (N 1280) və digər iki qəbiristanlığın (N 1281; 1282) arxeoloji və epiqrafik tədqiqi sayəsində belə abidələrin XI – XIII əsrlərə aid olduğu müəyyən edilmişdir.

İlisu kəndinə gedən yolun sağ tərəfində, Kürmükçayın sol sahilində, qaya üstündə inşa olunmuş istehkam tipli Cinli qalanın (IX – XIV əsrlər, N 4554) həyətində təsərrüfat tikililərinin qalıqları aşkar olunmuş, erkən orta əsr memarlıq üslubunun sonrakı əsrlərdə əlavələr edilməklə zənginləşdiyi müəyyən edilmişdir. Şamil Fətullayev abidəni daha erkən tarixə aid edir (VII – IX əsrlər) (3, s. 35).

İlisu kəndinin cənubunda olan "Səngər yeri" (N 5855) və Əmbərçay kəndindən 1 km qərbdə (N 1285) olan yaşayış yerlərinin təməli qədim dövrlərdə qoyulmuş, XI – XIV əsrlərdə bu ərazidə həyat davam etmişdir.

Ləkit-Kötüklü kəndinə gedən yolun kənarında, dağüstü meşənin içərisində Yeddi kilsə (XII – XIII əsrlər, N 4558) adlı monastır xarabalıqlarının inşa tarixi və memarlıq xüsusiyyətləri ötən əsrdə Davud Axundov, sonralar isə Aliyə Qarəhmədovanın tədqiqatları sayəsində aydın olmuşdur. Yeddi dini ibadətgahdan ibarət kompleksin yaşayış yeri və yerli dinləri təmsil edən abidənin dini inanc yeri funksiyası daşıdığı müəyyən edilmişdir (3, s. 32).

Əlçatmaz dağlıq ərazidə, yerli tikinti materiallarının tətbiqi ilə inşa edilmiş kompleksin şərq hissəsindəki dağın zirvəsində isə Kilsə qala adlı müdafiə qalasının qalıqları var. Arxeoloji tədqiqatlara əsasən qapıları qərb istiqamətində olan bu kompleks qala divarları ilə əhatə edilmiş, dəfələrlə bərpa edilərək əsrlərlə fəaliyyət göstərmişdir (3, s. 32 - 34).

Qax rayonunun Güllük kəndində qeydiyyata alınmış - ovdan kəhriz (XV əsr, N 1291) yerli əhalinin gündəlik tələbatının ödənilməsi ilə yanaşı, həm də qədim inanc (suya tapınma) yeri olaraq əhəmiyyət daşımışdır.

Kəndin yaxınlığımdakı Armatay (bolluq və dinclik ilahəsi Armaitinin şərəfinə) dağın zirvəsində Pəri (qadın obrazlı müqəddəslərin şərəfinə) qalası (XV – XVI əsrlər) adlanan məbəd qalıqları vardır. Bu abidədə ilkin tədqiqat işlərinə 1974-1975-ci illərdə Davud Axundov başlamış, 1982-1984-cü illərdə Şamil Fətullayev, Güllü Məmmədova və Aliyə Qarəhmədova davam etdirmişlər.

Yerli əhalinin ilkin sitayiş yeri olan bu məbəd sonralar xristianlıq ayinlərinin keçirildiyi ibadətgah olmuşdur. Üzəri kirəmitlə örtülü olan, çay daşı ilə hörülmüş məbədin şərq hissəsində iki cübbəxanası və tağı salamat qalsa da, şimal divarları dağıdılmışdır (3, s. 25).

Qax rayonunun mərkəzindən 2 km qərbdə, Kürmük çayının qərb sahilindəki Keçəldağ ərazisində yeraltı və yerüstü məbədlər (N 1283), Kötüklü kəndində monastır və iki kilsə, həmin kənddə kilsə qala (N 1288), Zərpa kəndində kilsə qalıqları (N 1290), Gümrük (Kürmük) çayı sahilində kilsə qalıqları (N 5856) əsrlələ yerli əhalinin yaşayış məskəni, sığınacaq və dini ibadətgah yeri olmuşdur.

Qax rayonunun cənub hissəsində olan Ağyazı düzənliyində 1958-1959-cu illərdə aparılmış arxeoloji qazıntılarda müxtəlif məişət qabları və heyvan sümükləri burada yaşayışın tunc dövründən başlayaraq XIII – XIV əsrlərə qədər davam etdiyi sübut olunmuşdur (1, s. 12).

2018-ci ildə Qax rayonunun Qıpçaq kəndinin cənubunda, yerli əhalinin "Əyrinin tapı" adlandırdığı ərazidə arxeoloq, t.ü.f.d. Taleh Əliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar nəticəsində "Qıpçaqtəpə" adlandırılmış abidə ilk dəfə qeydə alınmışdır. 4 hektarlıq ərazini əhatə edən abidənin, aşkarlanan arxeooji tapıntıların və yaxınlığındakı Sarı pirin arxeoloji tədqiqinə əsasən bu yaşayış yeri antik - orta əsrlər dövrünə aid edilir (4).

İSBN: 978-9952-539-04-2

Dünya poeziyasında möhtəşəm əsərləri ilə tanınan Nizami Gəncəvinin (1141-1209) əslən Qax rayonunun Qum kəndindən olması, şairin əsərlərindəki qeydlərə istinadlanan akademik Ziya Bünyadovun (1, s. 16) və arxeoloqlar Aliyə Qarəhmədova və məqalə müəllifinin ərazidəki müşahidələri və tədqiqatları ilə təsdiqlənməkdədir.

Nizamı Gəncəvinin “mən bir dürr tək boğulsam da Gəncə dənizində, özüm dağlıq Qum əyalətindənəm” adlı qeydinə və digər əsaslı tədqiqatlara istinadlanan akademik Ziya Bünyadov Qum məktəblilərinə olan müraciət məktubunda şairin Qax şəhərinin Qum kəndindən olmasını vurğulamışdır (şairin qıpçaq qızı Afaq ilə evli olması məlumatlarla təsdiqlənir. Qaxın Qum və Qıpçaq kəndləri yaxın məsafədədir). İlisu kəndindəki orta məktəb şairin adını daşıyır, şəhər mərkəzində, həmçinin Zəyəm, Qaxingiloy kəndlərində şairin şərəfinə abidələr ucaldılmışdır.

Qax şəhərindən 7 km məsafədə olan Qum kəndində aşkarlanan yaşayış məskənləri və digər abidələr (məbədlər və s.) bu ərazinin qədim yaşayış məskəni olduğunu sübut edir.

Qax rayonunun Oncallı (Onçallı) kəndindəki qədim Oğuz qəbiristanlığında türk poeziyasının klassik şairi, tanınmış sufi dərvişi Şeyx Yunus Əmrənin (1238 – 1321) dəfn edildiyi qəbir – abidə vardır. Türkiyə Cumhuriyyəti (Ankara, Karaman, Eskişehir, Sivas, Bursa və s.) və d. ölkələrdə Yunus Emreye aid edilən, müxtəlif məkanlarda olan məzarlardan fərqli olaraq Oncallıdakı qəbiristanlıqda şairin qəbri öz müəllimi - müridi Şeyx Hacı Tapdıq Əmrə (fəaliyyət dövrü - 1210 - 1215) ilə eyni yerdədir. Hər iki şəxsiyyətin Qax ərazisinə gəlmə missiyası İslam dininin yerli əhali arasında yaymaq olmuşdur. Yunus Əmrə Anadolu, Azərbaycan və İrana səfərlər edərək qədim Anadolu ləhcəli türk dilində Allah sevgisini təlqin etmişdir. Oncallı kəndindəki qəbirüstü kitabənin epiqrafik təyinatı ötən əsrdə akademik Məşədixanım Nemət tərəfindən təqdim edilmişdir (6, s. 94).

Müəlliminin hörmət və sədaqətini qazandığına görə Yunis Əmrə müəlliminin vəsiyyətinə əsasən, onun qəbrindən bir pillə yuxarıda – baş tərəfində dəfn edilmişdir. Mürşidlə müridinin qəbirləri sonradan onların ardıcılları tərəfindən bərpa və təmir edilmiş, qəbirüstü abidədə Yunis Əmrənin müəlliminə həsr etdiyi ifadələr qeyd edilmişdir.

Uyğun dövrün arxeoloji tapıntıları sırasında yerli və xarici istehsallı məmulatların (sikkələr, məişət qabları, bəzək əşyaları və s.) aşkarlanması mədəni-iqtisadi əlaqələri sübut etməkdədir. Mədəni əlaqələrin inkişafına həm də uyğun dövrün ictimai xadimləri də töhfələrini vermişlər.

Müxtəlif turizm növləri (ekoloji, arxeoloji və b.) tətbiqi üçün əlverişli olan Qax şəhərində və bir sıra kəndlərdə müxtəlif muzeylər, kitabxanalar və mədəniyyət müəssisələri fəaliyyət göstərir.

Müasir dövrümüzdə Qax şəhəri kəndlərindən mərkəzə bir qədər yaxın olan İlisu, Ləkit, Qum, Qaşqaçay kəndlərində bir sıra yeni turizm və istirahət mərkəzləri inşa edilmiş, ərazidə turizmin inkişafı üçün yeni təkliflər hazırlanmışdır. Qax rayonunda aşkarlanan arxeoloji tapıntılar yerli tarix-diyarşünaslıq muzeyində və d. muzeylərdə (Milli Azərbaycan Tarixi Muzeyi) saxlanılır.

Milli sərvətlərimizin qorunması və təbliği, əsasən də xarici ölkələrə daşınmasının qarşısını almaq üçün yerli əhali və turistlərə arxeoloji etika qanunları izah edilməli, əlverişli layihələr tərtib edilməlidir.



**Şəkil 1. Cinli qala (IX – XIV əsrlər)**

Beləliklə, qədim azərbaycanlıların yaşayış və mədəniyyət mərkəzi olmuş Azərbaycanın qədim regionlarından olan Qax rayonu ərazisində aparılmış arxeoloji qazıntılar və mövcud abidələrin tədqiqi sayəsində aşağıdakı nəticələr əldə edilmişdir:

- ərazidə aşkarlanan ən qədim arxeoloji tapıntı erkən aşel dövrünə (300 min il eramızdan əvvəl) aiddir (5). Azərbaycan xalqının etnogenezisində mühüm rola malik “karx” (7, s. 121), “kaspi” tayfalarının (3, s. 36) qaxlıların əcdadları olması tədqiqatlarla isbat edilir.
- rayon ərazisində aşkarlanan XII – XV əsrlərə aid çoxsaylı abidələrin memarlıq xüsusiyyətləri və arxeoloji tədqiqi uyğun dövrdə yerli əhalinin gündəlik yaşayış tərzi, dəfn adətləri, inanc sistemi, hərb

İSBN: 978-9952-539-04-2

tarixi, memarlıq mədəniyyəti haqqında məlumat toplamağa yardım edir və tarixi yaşı daha qədimdir. Müxtəlif işğalçılıq hücumları və təbiət hadisələrinin təsirinə məruz qalmış bu abidələr əsrlərin yadigarı olaraq günümüzədək gəlib çatmışdır;

- uyğun dövrün görkəmli ictimai xadimləri dövrün mədəni əlaqələrindin genişlənməsinə xidmət etmişlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov N. Qədim Azəri yurdu – Qax. Bakı: Ağrıdağ, 2000
2. Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı (memarlıq abidələri) // mta.gov.az
3. Əzimov H.M., Əhmədov Ş.Ə. Qax abidələri. Bakı: Səda, 1998
4. Qax rayonunda antik və orta əsrlər dövrünə aid yeni abidə aşkarlanıb// azertag.az
5. Qaxda tapılan daş əmək alətinin 300 min il yaşı var // qax.org.az
6. Nemət M. Azərbaycanda pirlər (sosial-ideoloji iqtisadi-siyasi mərkəzlər). Bakı: ADNPB, 1992
7. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев (историко-этнографическое исследование). Т. 1, Баку: Элм, 1991

# XII-XV ƏSRLƏR AZƏRBAYCAN VƏ ÖN ASİYA ALİMLƏRİNİN TARİXİ DEMOQRAFİK BAXIŞLARI

**t.ü.f.d.dosent Məmmədov Aydın Balamirzə oğlu**
**Bakı Dövlət Universiteti**
**aydin.mmmdov.67@mail.ru**

**Açar sözlər:** tarixi demoqrafiya, demoqrafik dinamika, əhali artımı, əhali məskunlaşması

XII əsrdə Azərbaycanda qabaqcıl ictimai-siyasi və fəlsəfi fikrin ən görkəmli nümayəndələrindən biri Nizami Gəncəvi (1141-1209) olmuşdur. Şair "İsgəndərnamə" poemasının "İqbalnamə" hissəsində ədalətli cəmiyyətlə bağlı ideyalarını geniş bəyan edərək "Xoşbəxtlər ölkəsi"nin modelini qurmuşdur. Bu ölkədə maddi nemətlərin bolluğundan yaranan rifah insanların uzun və xoşbəxt ömür sürməsinə, sağlam övladlar dünyaya gətirmələrinə səbəb olur. Burada təbii artım öz inkişaf dinamikası ilə ölümü üstələyir.

Bu gün əhalinin təbii artım və azalması bağlı əsas demoqrafik göstəricilər 1000 nəfərə görə düşən doğum və ölüm sayına görə hesablanır. Bu baxımdan onun əhalinin təbii artım və azalması ilə bağlı statistik göstəriciləri heyrət doğurur. Uzaqgörənliyi ilə əsrləri qabaqlayan mütəfəkkir əhali artımı ilə bağlı demoqrafik göstəricilərini min nəfərlə hesablayır. Belə ki, onun "Xoşbəxtlər ölkəsi"ndə min nəfər doğulmayınca bir nəfər ölmür. Deməli, Nizamini əhalinin doğum və ölüm arasındakı kəskin fərqdən yaranan artım dinamikası narahat etmir. Nizami Gəncəvi İbn Sina kimi Yerin həyat üçün yararlı olan dörddə bir hissəsində insanların çoxalmağından ehtiyatlanmır. Elə ona görə də "Xoşbəxtlər ölkəsi"ndə əhalinin sayına, çoxalmasına qadağan, heç bir məhdudiyyət yoxdur. Əksinə, ədalətli, pak və pəhrizkar olan hər kəs "Xoşbəxtlər ölkəsi"ndə yaşaya bilər.

Azərbaycanın dünya şöhrətli görkəmli alimlərindən biri olan Şeyx Nəsirəddin Tusi (1201-1274) də demoqrafik fikirləri ilə diqqəti cəlb edir. Tusi demoqrafik baxışlarını əsasən 1236-cı ildə yazdığı "Əxlaqi-Nasiri" əsərində əks etdirmişdir. "Əxlaqi-Nasiri"də Tusi ailənin quruluşu məsələsinə də çox fikir verir. Tusi qulluqçu və azuqəni də mənzilin rüknləri- elementləri, yaxud üzvləri sırasına daxil edir. Tusinin fikrincə, mənzilin rüknləri, yaxud ailənin üzvləri beşdir: ata, ana, övlad, xidmətçi və azuqə. Tusinin fikrincə evlənməyin səbəbi iki şey olmalıdır: malın mühafizəsi, nəslin davamı. Tusi ailənin başçısı olan əri bədəndəki ürəyə bənzədirdi: "Ər ailədə bədəndə olan ürək kimidir. Bir ürək iki bədənə həyat mənbəyi ola bilmədiyi kimi, bir kişi də iki ailədə nizam yarada bilməz". Tusi yaxşı qadını ana, dost və kənizə, pis arvadı isə zalım, düşmən və oğruya bənzədir. Tusinin fikrincə, bədcins arvada rast gələnin bircə çarəsi vardır: boşayıb canını qurtarmaq. Onun fikrincə, pis arvadla bir yerdə yaşamaq canavarla və ya əfi ilanla bir yerdə olmaqdan təhlükəlidir. Tusi ailəni bütöv bir bədənə, ailə üzvlərini

İSBN: 978-9952-539-04-2

isə bədən üzvlərinə oxşadır, ailə dolandırmaq sənətini isə bədəni sağlam saxlamaq istəyən həkimliyə bənzədirdi. Tusi ölüm anlayışı üzərində də dayanmış, bu hadisəyə yanaşmada İbn Sinanın mövqeyindən çıxış etmişdir: Əgər indiyə qədər doğulub-ölmüş bütün adamlar sağ qalsaydılar, yerə sığışmazdılar.

Şərqin böyük zəka sahiblərindən olan İbn Xəldun (1332-1406) insan cəmiyyətinin yaranması, inkişafı, yer üzündə məskunlaşması prosesinin qanunauyğunluqları ilə bağlı son dərəcə dəyərli fikirlər söyləmişdir. İbn Xəlduna görə insan daima dəyişən təbii aləmin ayrılmaz tərkib hissəsidir. Öz həyatlarını qorumaq, nəsil artımını davam etdirmək üçün qidanın əldə edlməsi zərurəti insanları cəmiyyət halında birləşməyə vadar etmişdir. Xəldunun insanın meydana gəlməsi, törəməsi barədə sosial-fəlsəfi düşüncəsi bu gün də maraq doğurur. Xəldun yer üzündə müxtəlif irqlərin yaranmasını dini baxışlarla deyil, təbii-coğrafi amillərin müxtəlifliyi ilə izah edirdi.

XIV əsrin II yarısı - XV əsrin I yarısında tarixi demoqrafik fikrin formalaşmasında görkəmli səyyah-alimlər Əbdürrəşid Bakuvi və Zəkəriyyə Qəzvininin (1203-1283) böyük rolu olmuşdur. Ə.Bakuvi "Abidələrin xülasəsi‖ əsərində əhali məskunlaşması, kənd və şəhərlərin əmələ gəlməsini obyektiv zərurət hesab edirdi. Bakuvinin fikrincə, Allah Təala insanlara divar, xəndək, hasar tikməyi təlqin edib. Beləliklə də, əhalisi sıx olan iri yaşayış məskənləri, şəhərlər meydana gəlib. Yeri gəlmişkən, XI əsrin ortalarında Azərbaycan şəhərlərində əhalinin sayı sürətlə artırdı. Gəncədə 500 min əhali yaşayırdı. 1139-cu il zəlzələsi zamanı Gəncədə 230 min, digər məlumatlara görə 300 min nəfər həlak olmuşdu. Bu zaman Beyləqanda 40 min, Şamaxıda 100 min nəfər yaşayırdı.

Azərbaycanın qiymətli demoqrafik fikirləri ilə diqqəti cəlb edən böyük dühalarından biri də Məhəmməd Füzulidir (1494-1556). Çox zaman M.Füzulinin öz əsərlərində atanın övlad arzusu ilə yaşamasını, uşağın doğulması ilə ailədə əmələ gələn şadlığı, sağlam həyat tərzini, sağlam qidanı, pəhrizi, uzunömürlülüyü və bu kimi bir çox demoqrafik səhnələri real təsvir etmiş, nəsil artımını müharibələrə qarşı qoymuşdur.

Beləliklə, XII-XV əsrlər Azərbaycan və Ön Asiya alimlərinin uzaqgörənliklə söylədiyi tarixi-demoqrafik fikirləri bu gün də heç zaman öz aktuallığını itirməyən müasirliyi və heyrətamizliyi böyük maraq doğurmaqdadır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. B., Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1958. – 312 s.
2. Məmmədov A. İbn Xəldunun tarixi demoqrafik baxışları. Tarix və onun problemləri №4, 2018. – s. 269-272.
3. Bakuvi Ə. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri. B., Şur, 1992. – 176 s.


# XX ƏSRİN I RÜBÜNDƏ MÜSƏLMAN TÜRKLƏRİN SOYQIRIMI KƏLBƏCƏR MUZEYİ MATERİALLARINDA

**Nəcəfli Ramiz Hüseyn oğlu**
**Bakı Dövlət Universiteti**
**necefli.ramiz80@gmail.com**

## ABSTRACT


## THE GENOCIDE OF AZERBAIJANIS IN ZANGEZUR, JAVANSHIR DISTRICTS AND SURROUNDING PROVINCES IN 1918-1920"S, CARRIED OUT IN KALBAJAR MUSEUM MATERIALS

In 1918-1920, Zangezur, Javanshir accidents and Muslim Turks were exposed to the genocide of the Armenian agessors. Article deals with the confessions of Armenian historians and the report prepared by the ADR Statute and the history of the historians exploring the period during, the events were mentioned. Were discussed the crimes, committed by Andronik in Goycha, Kalbajar and Lachin regions and the removal of Sultan bey of him from those territories

İSBN: 978-9952-539-04-2

**Key words:** Zar-Zeylik, Soltan bey, Mashadi Jamil Kalbajarly, Ibrahim Bey and Kostan bey, Sumuktokulan stream.

**Ключевые слова**: Зар-Зейлик, Султан бек, Келбеджерли Мешади Джамиль, Ибрагим бек и Костан бек, Сумукдокулан дере.

**Açar sözlər:** Zar-Zəylik, Sultan bəy, Kəlbəcərli Məşədi Cəmil, İbrahim bəy və Kostan bəy, Sümüktökülən dərə.

XIX əsrdən Rusiyanın əlində siyasi alətə çevrilən, XX əsrədək dövlətçiliyi olmamış ermənilər Türkmənçay müqaviləsindən sonra Azərbaycan torpaqlarında kompakt halda məskunlaşdırılmaqla ağ günə çıxdılar. Bu böyük köçdən təxminən yüz il keçməmiş xalqımıza qarşı dəhşətli faciələr törətdilər. Xarici havadarlarının, o cümlədən rusların yardımı ilə təşkilatlandılar. Bu təşkilatların işi müsəlman türklərinə qarşı terror törətməkdən ibarət idi. Başkəsənliyi ilə seçilən daşnak birləşmələri 1918-ci ildə İrəvan, Ermənistan, Zəngəzur, Naxçıvan, Şərur və Dərələyəz qəzalarının kəndlərində azərbaycanlılara qarşı yüzlərlə qanlı cinayətlər törətmişdilər. 1918-ci ilin mayından 1920-ci ilin noyabrına qədər Ermənistanda ağalıq edən Daşnaksütün azərbaycanlıların 60 faizini yer üzündən silmişdir. Əslində bu baş verənləri erməni müəllifləri özləri etiraf edirdi. Tarixçi A.Lalayan yazırdı ki, daşnak hökumətinin daxili siyasəti ölkə zəhmətkeşləri arasında milli nifrəti qızışdırmağa və Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalini fiziki cəhətdən məhv etməyə yönəlib. (5. 317)

Azərbaycanlı türk əhalisinin qırılması siyasəti yeritmələri faktını erməni müəllifi Hovanesyan da təsdiq edərək yazırdı: “1918-ci ilin əvvəllərindən avqustun 1-dək 300 müsəlman kəndinin dağıdılması haqqında məlumat vardı. Aşkara çıxmışdı ki, altı kəndin kişiləri öldürülmüş, onların qadınları isə erməni döyüşçülərinə hədiyyə edilmişdir. Azərbaycan öz torpaqlarının bir hissəsinin və adamlarının itgisi hesabına başa gələn belə vəhşiliklərə daha dözə bilməz”(5. 319)

Başqa bir cinayət faktını İ.Məmmədov və C.Əsədovun “Ermənistan azərbaycanlıları və onların acı taleyi” kitabında görürük. A.Lalayan “Əksinqilabçı daşnaksütyun” və 1914-1918-ci illərin imperialist müharibəsi” əsərində “Könüllülər” hərəkatının iki yekununu xarakterizə edərək yazır: “Könüllülər” hərəkatı onunla səciyyələnir ki, qaniçən xmabetlər (Andronik paşa, Hamazasp və başqaları) başda olmaqla daşnak dəstələri türk qadınlarının və uşaqlarının, qocaların və xəstələrin qırılmasında maksimum “cəsarətlilik” göstərmişlər. (9. 15)

1918-ci ilin payızında erməni quldurу Andronik Zəngəzurda 115 kəndi insanları ilə birlikdə məhv etmişdir. Bu barədə Azərbaycan Xalq cümhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyasının Gəncə quberniyasına aid olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları üzrə müsəlman kənd və insanlarının ermənilər tərəfindən başlarına gətirilən müsibətləri araşdıran komissiya üzvü Mixaylovun məruzəsində bildirilir (3. f.894, siy 4, iş 65, vər 3). 1919-cu ilin yayında da Azərbaycan ərazisində qanlı cinayətlər törətmiş, ingilis komandanlığının təkidi ilə Azərbaycan ərazisindən çıxarılmış Andronik sonralar Fransada olarkən bir cinayətkar kimi deyil, xalq qəhrəmanı kimi qarşılanmışdır. Cəmil Həsənli arxiv sənədlərindən yararlanaraq bu barədə yazır: “1919-cu ilin yayında Azərbaycan ərazisində cinayətlər törətmiş, ingilis komandanlığının təkidi ilə Azərbaycan ərazisindən çıxarılmış O.Andronik də Fransaya gəldi və iyun ayının 15-də Poqos Nubar paşanın vasitəçiliyi ilə Fransa prezidenti Raymon Puankare tərəfindən qəbul edildi. Bu zaman Avropa və Amerikada erməni və ermənilərə xidmət göstərən mətbuat orqanları qaniçən Androniki “Erməni Haribaldisi” kimi ictimaiyyətə və siyasi dairələrə təqdim edirdi (7. 231)

Erməni Milli Şurası əslində hadisələri planlaşdıran, ona baş drijorluq edən bir təşkilat idi. Onların Parisdəki nümayəndələri Qarabağda özlərinin törətdiyi cinayətləri müsəlman türklərinin ayağına yazır və bununla da müttəfiq ölkələrin nümayəndələri qarşısında Azərbaycan Respublikasını və onun Versaldakı nümayəndələrini gözdən salmağa çalışırdılar. 1919-cu ilin iyun ayında Qarabağda törədilmiş təxribatdan Ermənistan hökuməti Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovu ləkələmək istəyirdilər. Həmin ayın əvvəlllərində məlum olmuşdu ki, erməni milli şurası Şuşanın erməni hissəsinə gizli şəkildə silah gətirir. Bu, Zəngəzur yaylağına qalxan Azərbaycan əhalisinin qarşısını almaq üçün idi. Belə olduqda Xosrov bəy Sultanov köç gedən yollarda təhlükəsizliyi təmin etmək məqsədi ilə Azərbaycan ordusunun əsgərlərini təhlükəli yerlərə göndərdi və eyni zamanda erməni milli şurasının üzvlərinin həbs edilib Qarabağdan çıxarılması barədə göstəriş verdi. Buna cavab olaraq silahlanmış

İSBN: 978-9952-539-04-2

ermənilər Azərbaycan əsgərlərinə atəş açdılar və üç əsgər öldürüldü. Şuşa və ətraf kəndlərdə qayda-qanun yaratmaq üçün Xosrov bəy fəaliyyətə keçdi və ilk addım olaraq erməni milli şurasının üzvlərini Azərbaycan hüdudlarında kənara çıxarılmasına nail oldu. (7. 235); (3 )

1918-1920-ci illər ərzində Zəngəzur qəzasında baş verən hadisələri araşdıran tədqiqatçı Anar İsgəndərli öncə bu bölgənin nəyə görə daha ağır duruma düşmələrindən söz açır. Müəllif qeyd edir ki, Zəngəzur qəzasının Şuşa ilə əlaqələri tamamilə, Cəbrayıl ilə qismən kəsilmişdi. O, yazır ki, qəzanın müsəlman əhalisinin vəziyyəti bir də ona görə ağırlaşmışdı ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı, bu qəzada Andronikin erməni əsgərlərindən ibarət yaxşı təşkil olunmuş nizami qoşunları da var idi. A.İsgəndərli faktoloji materiallar əsasında hadisələrə qiymət verməyə çalışır. Bu məqsədlə o, Fövqalədə Təhqiqat Komissiyasının sənədləri üzərində işləyir. O, yazır ki, Fövqalədə Təhqiqat Komissiyasının sənədlərinə görə ermənilər tərəfindən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq şikəst edilmişdir. Nəticədə təkcə Zəngəzur qəzasında məruzə hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri barədə tam məlumat vermir. Belə ki, daha çox müsəlman, erməni vəhşiliklərinin qurbanı olmuşdur. Ancaq o zamankı qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır (4. 127-128)

1919-cu ilin aprelin 13-dən Göyçənin Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçən erməni qoşunları qarşılarına konkret məqsəd qoymuşdur. Məqsəd Göyçə gölünün şimal və şərq hissəsini burada yaşayan dinc müsəlmanlardan təmizləməkdir. Bu barədə "Azərbaycan" qəzetinin 1919-cu il mayın 17-də dərc olunan sayında bu məlumatlar verilir: "hal-hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhalisi qırılmışdır. Bədbəxt müsəlman əhalisi Göyçə müsəlmanlarını qarşısına məqsəd qoymuş və bunu yerinə yetirən erməni qoşunlarının atəşləri ilə rəhmsizcəsinə məhv olur. (2).

Sözü gedən qəzetdə daha sonra məlumat verilir ki, erməni təqibindən baş götürüb qaçanların bir çoxları isə dağlarda qarın altında qalıb qırılırlar: "Çox az miqdarda insanlar Gəncə qəzasının beşinci sahəsinin kənarlarına axışıb gəlirlər. Qalan 17 kəndin sakinləri isə Cavanşir qəzasının dağlıq hissəsinə qaçır, daha doğrusu 7-8 kəndin sakinləri erməni qoşunları tərəfindən təqib olunan Gəncə qəzasının 5-ci sahəsinin qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb kütləvi məhv olurlar. Ararat respublikasının məsələsi həll olunub, artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hal-hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır. Bunlar: Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca (Aşağı Şorca.R.N), Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu (Bu kənd Böyük Qaraqoyunlu kəndinin əhalisindən yaranmışdır. (Budaqov. səh. 300), Zərzübil, Çayəhmədli, İməkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Şişqaya, Baş Hacı, Qərib Qaya kəndləridir. 15 mindən artıq evi olan bu kəndlərin sakinləri bütün malı, dövləti başlı-başına buraxıb qaçmışlar. Bütün bu mal dövlət hal-hazırda ermənilərə qalıb. Qarət edilmiş əmlak bir neçə milyon və milyardlar qədərdir"(9. Səh 38).

Xatırladaq ki, yuxarıda adları çəkilən Yuxarı və Aşağı Şorca kəndləri Cavanşir qəzasının Kəlbəcər bölgəsi ilə (Zəylik kəndi ilə) həmsərhəd olub. Hadisələr zamanı yağılardan canını qurtarmaq məqsədi ilə Zəylik kəndinə baş götürüb qaçan yüzlərlə Göyçə sakini dağda şaxtadan donub ölmüşlər. Bunu Zəylik kəndinin yaşlı sakinləri 1991-1992-ci illərində bu yazının müəllifinə - muzeyin o zamankı elmi işçisinə söyləyiblər. Müsahiblərim 1889-cu il təvəllüdlü Zar kənd sakini Əhmədov Eyvaz Alməmməd oğlu və 1890-cı il təvəllüdlü Zəylik kənd sakini Keytiyev Məhəmməd Hüseyn oğlu (Kərbəla Hüseyn oğlu (R.N) hadisələrin yaxın şahidləri olublar.

Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin səkkizinci salonunda "Azərbaycan Xalq Cümhuriyyəti" və "Erməni soyqırımı" guşələrində mövzu ilə bağlı tarixi faktlar, ayrı-ayrı yerlərdə baş vermiş qətllərə aid şəkillər, döyüş səhnələrini əks etdirən erməni və müsəlman "əsgərlər"i müqəvvaları, yaşı yüzü haqlamış və hadisələrin iştirakçısı olanların lent yazıları qorunub saxlanılırdı. Bütün bu lent yazıları muzeyin səkkizinci ekspozisiya salonu ilə yanaşı 36 mindən artıq eksponat fondunda saxlanılırdı. Ermənilərin 1993-cü ilin aprelin 2-də Kəlbəcəri işğal etməsi ilə bu dünya şöhrətli muzey də yağıların əlinə keçdi. Ermənilər bu zəngin muzeyin materiallarını bu gün özününküləşdirərək "erməni mədəniyyəti" adı altında nümayiş etdirirlər.

İSBN: 978-9952-539-04-2

Onu da qeyd edək ki, Kəlbəcər muzeyinin yaradıcısı, zəhmətkeş alim Şamil Dəlidağ Bakı şəhərində də gecə və gündüz özünə rahatlıq vermədən ağır zəhməti hesabına muzey yaratdı. O, işğal altında qalan muzeyi "Şəhid muzey", Bakıda yaratdığı yeni muzeyi isə "Şahid muzey" adlandırdı. "Şahid Muzey" zənginliyinə görə təbii ki, "Şəhid muzey"i əvəz edə bilməz. Amma "Şahid muzey" də "Şəhid muzey" əsasında qurulub. Odur ki, Azərbaycan tarixinin bütün dövrlərini əhatə edən bu muzey 1918-1920-ci illərdə baş vermiş erməni soyqırımı ilə bağlı da bir mənbə rolunu oynayır. 1918-1920-ci illərdə erməni yağılarının müsəlmanlara qarşı istifadə etdikləri və sonralar Kəlbəcərlilər tərfindən "Sümüklü Dərə" deylən ərazidən tapılmış yararsız silahlar, həmçinin Qarabağ General Qubernatorunun Kəlbəcərin müdafiəsinə göndərdiyi silahların qalıqları da muzeydə qorunub saxlanılırdı.(14).

Göyçə mahalında vəhşiliklər törədən ermənilərin Cavanşir qəzasının Kəlbəcər bolgəsinə də hücumu gözlənilirdi. Ermənilərin Ağdərə tərəfindən Kəlbəcərə hücumu mümükünsüz idi. Odur ki, Basarkeçər tərəfdən sərhədin möhkəmləndirilməsinə ehtiyac yaranırdı. Laçlnlı Soltan bəy ermənilərin 5 aprel 1918-ci il hücumunun qarşısını almaq məqsədi ilə Kəlbəcərə gəldi. O, Zar və Zəylik kəndlərində əhali ilə görüşərək düşmənin qarşısına çıxacaq igidləri başına topladı. Ətraf kəndlərdən də bura xeyli sayda atlı köməyə gəldilər. Zəylik kəndindən 1896-cı il təvəllüdlü Hacı Keytinin nəvəsi Məhəmmədin (Kərbəla Hüseyn oğlu Məhəmməd. R.N) söylədiyinə görə silahlı daşnaklar Basarkeçərin bütün kəndlərinə hücun edərək ağır qətliamlar törətmiş, sağ qalanlar isə Basarkeçərin Şorca kəndindən Kəlbəcərin Zəylik kəndinə tərəf üz tutmuşdular: "Ermənilər müsəlmanlara qarşı sanki xaç yürüşünə çıxmışdılar. Onlar ingilislərdən kömək almışdı. Yəhər tikən Haykazın dəstəsində ingilislər də var idi. Tüfəngləri də ingilis silahı idi. Ermənilər Göyçə kəndlərində dəhşətli hadisələr törətmişdilər. İnsanların naləsi göyə qalxırdı. Biz kömək məqsədilə Göyçəyə tərəf yola düşdük. Kəndimizin Dərəyurdu adlı yaylağına çatanda Gədikdən üstümüzə güllələr yağış kimi yağdı. Ot qayası və Xaraba deyilən tərəfdən də düşmənlər üstümüzə gəlirdi. Birdən Keyti dağı tərəfdən bir nəfərin beş açılanla atəş açdığını gördük. Əvvəl elə bildik ki, o da ermənidir. Bir azdan onun güllələri düşməni dayandırdı və onlar geriyə qaçmağa başladılar. Bu el arasında cəngavər kimi tanınmış, sərrast nişançı Hacı Dünyamalı oğlu Teymur idi. Düşməni qovaraq gəldiyi yerə qaytardıq" (1992-ci ildə bu söhbəti aparmışıq. R.N).

Həbib Əhmədov, yazır ki, Göyçə mahalında 1918-ci ilin qışında 40-a yaxın müsəlman-türk kəndi Andronikin dəstəsi tərəfindən yandırılaraq külə dönmüşdü. Əlsiz-ayaqsızlar vəhşicəsinə qətlə yetirilmiş, qaçmaq imkanı olanları isə güllləborana tutub qış ayında Kəlbəcərin quşqonmaz dağ uçurumlarında dondurmağa məcbur etmişdilər. Gözlənilən ağır faciələrin qarşısını almaq üçün ən sadə silaha belə ehtiyac vardı. Belə bir durumda Kəlbəcərli Məşədi Cəmil Laçınlı dostu Soltan bəyə üz tutur. Soltan bəy Məşədi Cəmili yüksək səviyyədə qəbul edərək onun gəlişinə qurban kəsir. Soltan bəy Qarabağ general qubernatoru olan qardaşı Xosrov bəydən Kəlbəcərə silah sursat göndərməyi xahiş edir. Məşədi Cəmil Soltan bəylə Xosrov bəyə 40 qatır yükü yağ-bal payı aparır. Soltan bəy və Xosrov bəy qardaşları Məşədi Cəmilə istənilən qədər silah-sursat verir. Onun gətirdiyi yağ-balı da bazarda satdırıb pulunu Məşədi Cəmilə verir ki, silah alsınlar. Qarabağ general - qubernatoru Məşədi Cəmilin özünə isə Süzən (beşatılan) bağışlayır. (8. 22)

Məşədi Cəmil 40 qatır yükü silah-sursatla Kəlbəcərə qayıdır. O, Zodlu Səmədağa ilə əlaqə yaradaraq ermənilərin bir sıra hücumlarının qarşısını alır. Amma xristian dövlətlərindən kömək almış ermənilər Göyçədə böyük cinayətlər törədir. Göyçə yalında (Gədikdə.R.N) erməni quldurlarından canlarını qurtarmağa can atan yüzlərlə qadın, uşaq şaxtada donub ölür. Buradan Kəlbəcər istiqamətinə yürüş edən ermənilərlə Kəlbəcər döyüşçüləri arasında qanlı döyüşlər aparılır. Kəlbəcərli qadınlar səngərlərə patron daşıyaraq igidləri tək qoymurdular. Qadın dəstələrinə Məşədi Cəmilin bacıları Pəri, Telli və Dal Qılınclı kəndindən Mərcan adlı qadın başçılıq edirdilər. Bu gənc və igid qadınlar döyüşçülərə çörək və patrondan korluq çəkdirmədilər. Məşədi Cəmilin yurdu deyilən dərədə ölənlərin qalaq-qalaq sümükləri insanı dəhşətə gətirirdi. Sonralar bu ərazi yaddaşlarda "Sümüktökülən dərə" kimi qaldı. Beləliklə Sultan bəyin və Məşədi Cəmilin başçılığı ilə erməni cəlladları geri oturdulur. (8.24-25).

"Qəbələ" qəzetinin 13 aprel 2000-cil tarixli sayında "Onlara güzəşt oluna bilməzdi" başlıqlı məqalədə də Basarkeçər - Kəlbəcər bölglərində baş vermiş hadisələrdən bəhs edilir. Məqalə müəllifi Müslüm Şahüseynov bir sıra faktlara öz münasibətini bildirməklə yanaşı Kəlbəcər igidlərinin Soltan bəyin köməkliyi ilə Basarkeçər ərazisindəki erməni yaraqlılarını necə məhv etdiklərindən söz açır. (11)

İSBN: 978-9952-539-04-2

Müslüm Şahüseynov yazır ki, Göyçəyə köməyə gedən Sultan bəyin qoşununun önündə Zardan olan Seyid Əli gedirdi. Eləcə də həmin kənddən Rüstəm Məşədi Həsənli, İsa Cəfərli, Məhəmməd Əsgəroğlu da bu qoşunda idilər. (10. 39)

Başqa bir mənbədə də bildirirlir ki, Soltan bəy Göyçədə baş verən acı xəbərləri eşidərək 1918-ci ilin aprelində Şuşadan Kəlbəcərə gəlir: "Soltan bəy əvvəlcə Kəlbəcərin Zar kəndinə gəlib Zəylik kəndinin camaatını da bura dəvət edir. Burada o, hərəyə bir "beşatılan" və 30 daraq patron paylatdırır. Zar-Zəylikdən başqa Geşdək, Qaraçanlı, Alolar, Dalqılınclı, Milli və Kəlbəcərin özündən igidlər toplayaraq Göyçəyə köməyə gedir. Soltan bəyin qoşununun qarşısında Zardan olan Seyid Əli gedirdi. O zaman Basarkeçər 30-dan artıq azərbaycanlı kəndlərinin arasında idi. Soltan bəy bilirdi ki, erməni daşnakları əsasən Basarkeçər kəndinə yığışa bilər. O, əmr verir ki, bir nəfər dinc əhaliyə güllə atılmasın. İmkan verilsin ki, əhali Basarkeçərdən çıxsın" (12.58-59).

Zod kəndinə köməyə getmiş Sultan bəy erməni döyüşçülərini məhv etmək istəsə də, kəndin başbilənləri qan tökmək istəmirlər. Sultan bəy onları başa salır ki, orada çoxlu sayda erməni yaraqlıları var və hər an təhlükə gözlənilir. Doğrudan da o yanılmamışdı. Bölgə erməniləri 4 may 1918-ci ildə Andronikdən də əlavə qüvvə alaraq eyni vaxtda hücum etməklə müdafiəzsiz kəndləri yandırır, əhalini məhv edirlər. Kəvər, Bayazit, Gözəldərə, Haçalı, Yarpızlı, Əzizli, Tüskülü, Yuxarı Zağa, Aşağı Zağa, Kərkibaş, Qanlı, Qırxbulaq, Aşağı Məzrə, Yuxarı Məzrə, Daşkənd, Aşağı Şorca, Yuxarı Şorca, Sarıyaqub, Qayabaşı, Zərkənd, Ağkilsə, Tənbeh, Nərimanlı, Ağyoxuş, Qaraqoyunlu, Göysu, Canəhməd, İnəkdağı, Şişqaya, Sorcasu, Toxluca, Zod və s. qırxa yaxın kəndləri ermənilər darmadağın etdilər, əhalisi eybəcər üsullarla məhv edildi. (12. 124)

Zodlu Səmədağanı qətlə yetirmiş, aşıq Nəcəfin kürəyinə samovar bağladaraq onun faciəli ölümünə bais olan general Silikovun Basarkeçərin Qumlu bulaq kəndində Geştək kəndinin igidləri tərəfindən öldürülməsi hadisəsi də 1918-ci ilin aprel may aylarına təsadüf edir. (12.23).

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikası MDA, f.970, siy.1, iş 65, v.71
2. Azərbaycan qəzeti. 17 may 1919
3. ARDA, F. 894.siy 1, iş 65, vər 3
4. Anar İsgəndərli. Azərbaycan həqiqətləri. 1917-1920. Bakı. "Elm və təhsil" 2012. 228 səhifəlik
5. Atamoğlan Məmmədli. Ermənilərin gerçək tarixi. Bakı. Elm. 435 səhifəlik
6. B.Əbudaqov, Q.Ə.Qeybullayev. Ermənistandakı Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı.1998. "Şərq-Qərb" mətbəsi. Səh. 300
7. Cəmil Həsənli. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər. Bakı. Azərnəşr. 1993. səh 231. 362 səhifəlik
8. Həbib Əhmədov. Məşədi Cəmiı yolu.Bakı. Azərnəşr. 2007. səh 22.
9. İ.Məmmədov, C.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleləri. Bakı."Azərbaycan"nəşriyyatı". 1992.səh 38)
10. Müslüm Şahüseynov. Kəlbəcərsiz, Zarsız keçən ömürlər. Bakı.2003. Şirvannəşr. Səh 39, 100 səhifəlk
11. Müslüm Şahüseynov. Onlara güzəşt oluna bilməzdi." Qəbələ" qəzeti. 13 aprel 2000.
12. Ziyadxan Nəbibəyli.Sultan bəy və Xosrov bəy qardaşları. Nurlar. Bakı.2011.
13. Zimistan Həsənov. Məhəmməd Nərimanoğlu.Kəlbəcər. Azrbaycanın qala qapısı. Bakı. Təfəkkür. 2001.
14. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi. İnventar nömrə 3015
15. Kəlbəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi. Inventar nömrə 3032.

İSBN: 978-9952-539-04-2

# XII-XV ƏSRLƏRDƏ ÖN ASİYA REGİONUNUN MƏDƏNİYYƏT TARİXİ

**Dos. Piriyeva Afaq Yusif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
afaq.piriyeva@bk.ru

## XÜLASƏ

XII-XV əsrlərdə Ön Asiya regionu elm və mədəniyyətin inkişafında mühüm nailiyyətlət əldə etmiş, nadir memarlıq abidələri ucaldılmış, bəşər mədəniyyətinin inkişafına öz töhfələrini verməklə davam etmiş bu bölgənin əhalisi intibah dövrünü yaşamışlar.
**Açar sözlər:** Ön Asiya, intibah, İslam, elm, ədəbiyyat, memarlıq, musiqi.

## РЕЗЮМЕ

В XII-XV веках регион Передней Азии добился значительных успехов в развитии науки и культуры, были воздвигнуты уникальные архитектурные памятники, а население этого региона, продолжавшие вносить свой вклад в развитие человеческой культуры, пережили ренессанс.
**Ключевые слова:** Передняя Азия, Возрождение, ислам, наука, литература, архитектура, музыка.

## SUMMARY

In the XII-XV centuries, the Western Asian region made significant progress in the development of science and culture, unique architectural monuments were erected, and the peoples of this region, who continued to contribute to the development of human culture, experienced a renaissance.
**Key words:** Western Asia, Renaissance, Islam, science, literature, architecture, music.

Ərəb islam mədəniyyətinin tərkib hissəsi olan fəlsəfə ərəb, yunan, İran və hind mədəniyyəti ünsürlərinin ehtivası kimi yaranmışdır. İnkişaf etmiş feodalizm cəmiyyətinin ideoloji sistemi kimi formalaşan orta əsr ərəb fəlsəfəsinin əsas məzmununu ellinizm ənənəsi ilə bağlı olan Şərq peripatetizmi və dini-fəlsəfi təlimlər arasında mübarizə təşkil etmişdir. Kəlam rəsmi dini formal-məntiqi dəlillərlə əsaslandırmağa cəhd edirdi. Kəlamın məqsədi Allahın varlığını, onun birliyini və əbədiliyini sübut etmək idi. Kəlam tərəfdarlarının (mütəkəllimlər) fikrincə, dünyanı öz qüdrətilə heçdən yaradan və hər bir an yaşadan qüvvə vardır.

Panteist (ifrat) anlayışı mövcudata vahid ilahi substansiyanın təzahürü kimi baxan mistik İbn əl-Ərəbinin (1165-1240) adı ilə bağlıdır. Ərəb şairi İbn əl-Fərid (1182-1235) tərəfindən şairanə tərənnüm edilən "Vəhdəti-vücud" təlimi sonrakı dövrlərdə sufi bədii ədəbiyyatının əsas ideyası olmuşdur.

Görkəmli müsəlman teoloqu Əbu Hamid əl-Qəzalinin fəlsəfi nəzəriyyəsinə əsasən yunan fəlsəfəsi islam dininin müddəalarını sübut etmək üçün istifadə olunmalı idi. Bu dövrdə geniş yayılmış elmlərindən biri fiqh (islam hüququ) idi. O, Quranda və hədislərdə ifadə olunmuş şəriət qanunlarına əsaslanırdı.

XI əsrin sonu-XII əsrin əvvəllərində İdrisi özündən əvvəlki əsərlərə əsaslanaraq dünyanın təsvirini vermiş, coğrafiya elmini Avropa xalqları haqqındakı məlumatlarla zənginləşdirmişdir. XIII əsrdə coğrafiyaya aid bütün məlumatlar Yaqut Həməvi tərəfindən böyük coğrafi lüğətdə toplanıldı.

XIV əsrdə İbn Bəttutə demək olar ki, ona məlum ölkələrin hamısında, o cümlədən Orta Asiya, Volqaboyu və Krımda olmuşdur. Onun əsərlərində səyahətləri haqqında etnoqrafik xarakterli maraqlı məlumatlar vardır. Ərəb coğrafi ədəbiyyatının inkişafında ərəb dənizçiliyinə dair çoxəsrlik təcrübəni öz əsərlərində ümumiləşdirən Əhməd ibn Məcid və başqalarının xidmətləri böyükdür.

XII-XIII əsrlərdə ərəb-islam tarix elminin mərkəzi Suriyaya keçdi. Qəznəvilər tarixinə dair yazdıqları əsərlərlə başlanğıcı qoyulan sülalə tarixi bu dövrdə daha da inkişaf etdi. Sülalə tarixi ilə yanaşı ümumi tarixə aid əsərlərdə yarandı. Ərəb dilində tarixi əsərlər təkcə ərəb ölkələrində deyil, müsəlman Şərqinin başqa ölkələrində, o cümlədən İran, Türkiyədə də yaranmışdır.

İslam dininin yaranması və onun qonşu ölkələrdə yayılması ərəb ədəbiyyatının inkişafı üçün geniş şərait yaratdı. Quranın meydana gəlməsi ərəb ədəbiyyatının, xüsusilə nəsrinin yüksəlişinə, yeni elm sahələrinin meydana çıxmasına təkan verdi. Lakin poeziya yenə də ədəbiyyatın əsas qolu olaraq qalırdı.

İSBN: 978-9952-539-04-2

Abbasilər dövrü ərəb ədəbiyyatının "qızıl dövrü" adlanır. Xilafət daxilində yaranmış yeni ictimai-siyasi şərait ədəbiyyatda da böyük dönüşə səbəb oldu. Abbasi xəlifələri siyasi və mədəni həyatda daha çox qeyri-ərəb xalqlarının qüvvələrinə arxalanmağa başladılar. Abbasilər dövründə yaranmış ədəbiyyat, sözün əsl mənasında, ərəbdilli ədəbiyyata çevrildi. Abbasilər dövründə bədii nəsrin yeni nümunələri yaranırdı. "Min bir gecə" kimi böyük epik əsər də bu dövrün məhsuludur. Abbasilər dövründə yunan dilindən tərcümələr geniş vüsət aldı. Qədim İran və hind yazılı abidələri ərəb dilinə tərcümə olundu. Bu dövrdə ədəbiyyatşünaslıq və ədəbi tənqid də inkişaf edirdi. Xətib Təbrizi ədəbiyyatşünaslığı və ədəbi tənqidi yüksək professional səviyyəyə qaldırdı. Azərbaycan alimi Xətib Təbrizi filologiya və bir sıra başqa elmlərin inkişafına təsir göstərmişdi. Bağdadda, əsası Nizam əl-Mülk tərəfindən qoyulmuş Nizamiyyə mədrəsəsində dərs demişdir. Fəlsəfə, məntiq və ədəbiyyata dair mühüm əsərlərin müəllifidir. Ərəb şairi Əbu Təmamın "Həmasə" ("Qəhrəmanlıq") və öz müəllimi Əbül-əla Məərinin "Sətüz-zənd" ("Çaxmaq daşından sıçrayan ilk qığılcımlar") kitablarını şərh edən əsərlər yazmışdı. Bu əsərlər o qədər mükəmməl idi ki, əsərlərin özlərini kölgədə qoymuşdular. Ömrünün sonunda "Kitabül-kafi fi-l-əruz vəl-qəfavi" ("Əruz vəzni və qafiyə haqqında elmlərin yekunu") kitabını yazmışdı. Monqol istilası nəticəsində Xilafətin dağılması ərəb islam ədəbiyyatında uzun müddət durğunluğa səbəb oldu. Bu, bir tərəfdən siyasi vəziyyətlə, digər tərəfdən isə ərəbdilli mədəniyyətin yüksəlməsində mühüm rol oynamış türkdilli xalqlardan olan sənətkarların öz ana dillərində yazmağa başlamaları ilə bağlı idi. Dini mövzular əsas yer tuturdu. Bununla yanaşı, həmin dövrdə müxtəlif elm sahələrini əhatə edən irihəcmli ensiklopedik lüğətlər də yaranmışdır (3, 797).

Ərəb islam memarlığı Qafqaz, Mərkəzi Asiya, Hindistanın müsəlman memarlığına təsir göstərmişdir. Memarlıqda günbəzli tikililərə böyük diqqət verilirdi. Sonralar dini tikililərdə və məşhur şəxsiyyətlərin qəbirüstü abidələrində günbəzlərdən geniş istifadə edilmişdir. Abbasilər zamanında şəhərsalma işləri genişləndi. Dəməşqdə və Suriyanın başqa şəhərlərində məsad, mədrəsələr tikilmişdi. Binaların bəzək işlərində oyma naxışlar və rəngli daşlarla inkrustasiyadan istifadə edilirdi. Orta əsr bədii təfəkkürünə xas olan dekorativlik prinsipi ərəb islam incəsənətində öz əksini tapmışdır. Memarlıq dekorlarında (daş, ağac və s. üzərində oyma) ornament, kalliqrafik yazılar və arabeskdən geniş istifadə olunurdu. Mesopotamiya, Suriya və digər ölkələrin keramik qab və çılçıraqları, naxışlı ipək parçaları və xovlu xalçaları, qızıl və gümüşlə bəzədilmiş incə oymalı tunc bədii məmulatlar dünya şöhrəti qazanmışdır. Bütün bunlar XIV-XV əsrlər Avropa tətbiqi sənətinə böyük təsir göstərmişdir. İslam ölkələrində incəsənət din ilə qarşılıqlı əlaqədə inkişaf edir, məscidlər, Quran nüsxələri nəbati, həndəsi ornamentlərlə bəzədilirdi. İslam dininin canlı məxluq (xüsusilə insanın) təsvirini qadağan etməsinə baxmayaraq insan və heyvan təsvirləri, real və mifoloji səhnələr orta əsr rəssamlarının əsərlərində mühüm yer tuturdu. Bu dövrdə boyakarlıqda insan təsvirləri və məişət səhnələri, dekorativ-tətbiqi sənətdə isə keramik qablar, vazalar, kətan, ipək məlumatlar, tuncdan heyvan və quş fiqurları, sümük və ağac üzərində oyma üstün yer tuturdu.

Dünya incəsənəti tarixində şöhrət qazanmış ərəb kitab miniatürləri XII-XIII əsrlərdə İraqda yüksək inkişaf səviyyəsinə çatmışdı. Əl-Həririnin "Məqamələri"nə (1237-ci il əlyazması), Hacı Kirmaninin "Xəmsə"nə (1396-cı il əlyazması) çəkilmiş illüstrasiyalar. İraq miniatür məktəbinin ən gözəl nümunələrindəndir. Bütövlükdə ərəb islam incəsənəti orta əsrlərdə dünya mədəniyyət tarixində parlaq, özünəməxsus hadisə olmuş, onun təsiri bütün müsəlman dünyasına və onun hüdudlarından uzaqlara yayılmışdı.Ərəb islam musiqisi bilavasitə ərəb xalqları incəsənəti ilə işğal olunmuş ölkə xalqları incəsənətinin qovuşması nəticəsində formalaşmışdır. Vahid islam dininin qəbul edilməsi və Xilafətin yaranması musiqi sənətinin yüksəlişi üçün zəmin oldu (fars və Bizans musiqisinin təsiri altında ərəb islam musiqisinin səsdüzümü genişləndi, farsların not yazısı, musiqi alətlərinin kökü mənimsənildi). Ərəb islam musiqisi 7 pərdəli 12 məqama (rast, iraq, isfahan, nəva, segah, hicaz, istixal və s.) əsaslanır. Ərəb islam musiqisi üçün özünəməxsus kolorit, rəngarəng melizmlər, məqam xüsusiyyətlərindən irəli gələn oxuma tərzi və zəngin ritm səciyyəvidir. Klassik ərəb islam musiqisi, əsasən, vokal musiqi ilə təmsil olunur.

Abbasilər dövründə musiqiçilərdən Mosullu İbrahim və oğlu Mosullu İshaq, Mənsur Zəlzəl məşhur olmuşlar. Orta əsrlərin görkəmli musiqi nəzəriyyəçilərindən əl-Rindi (neoplatoniklərin "Kainatin harmoniyası" metafizik elmi nəzəriyyəsini işləmiş və ərəb musiqisinə tətbiq etmişdir), İsfahani, Fərabi, İbn Sina, Səfiəddin Urməvi və Əbdülqadir Marağainin əsərlərində Şərq musiqisi

İSBN: 978-9952-539-04-2

haqqında mühüm məlumatlar var. Orta əsrlərdə Avropa musiqi sənəti və bəzi musiqi alətlərinin formalaşmasına ərəb islam musiqisinin təsiri olmuşdur.

Səlcuq memarlığı dünya memarlığı tarixində ən parlaq memarlıq dövrlərindəndir. Bağdadda Alp Arslanın əmiri və vəziri Nizam əl-Mülkün nəzarəti ilə qurulan Nizamiyyə mədrəsəsi böyük bir universitet olmuşdur. Nəcəfdə Həzrət Əlinin qəbri Məlikşah tərəfindən, Həzrət İmam Rzanın qəbri Məşhəddə Sultan Səncər tərəfindən tikdirilmişdir (4, 100).

Türklər Konyanı tarix dolu bir şəhər adlandırırlar. Elə buna görə də Türkiyədə "gəz dünyanı, gör Konyanı" deyimi geniş yayılmışdır. Memar Bədrəddin Təbrizi 1274-cü ildə Konyada mütəfəkkir şair Mövlanə Cəlaləddin Ruminin qəbri üstündə Mövlanə türbəsi adı ilə məşhur olan uca və gözəl biçimli bir türbə ucaldır (5, 81).

Marağa rəsədxanasının banisi və rəhbəri N.Tusi astronomiya, riyaziyyat, fəlsəfə və s. elmlər üzrə mühüm əsərlərinin müəllifi olmuşdu. Onun elmi əsərləri arasında "Zic Elxani" ("Elxani cədvəlləri") xüsusi əhəmiyyətə malikdir. Marağa rəsədxanasında Yaxın və Orta Şərq ölkələrindən gəlmiş alimlər çalışırdılar. Rəsədxananın zəngin kitabxanası və öz dövrü üçün mükəmməl avadanlığı var idi. Onun kitabxanasını məşhur İsgəndəriyyə kitabxanası ilə müqayisə edirdilər. Burada dünyanın hər yerindən gətirilmiş bir neçə yüz min kitab toplanmışdı. Rəsədxanada elmi risalələr (traktatlar), ulduzlu səmanın xəritəsi, astronomiya cədvəlləri tərtib olunurdu. N.Tusi etika və sosiologiya elmlərinə aid "Əxlaqi Nasir" əsərində dünyanın inkişafı ilə bağlı təkamül ideyalarını irəli sürmüşdür.

Xaqani Şirvani və Nizami Gəncəvi Azərbaycan elmində intibah dövrünün ən görkəmli nümayəndələrindən idi. Onlar, əsasən, şair kimi taninsalar da, öz əsərlərində o dövrün elmlərini bir çox alimlərdən daha geniş əhatə etmişlər. Xaqani Şirvani dərin biliyə və geniş dünyagörüşə malik idi. Nizami Gəncəvinin "Xəmsə"sində astronomiya, tibb, fəlsəfə, coğrafiya, kimya, mineralogiya, sosiologiya, tarix və s. elmlərə aid məlumatlar vardır. "Şeyx-ül-mühəndis" ləqəbi daşımış Əcəminin məlum olan ilk əsəri Yusif ibn Küseyr üçün tikdiyi türbənin həm əsas tikintisi, həm də bəzək hörgüsü bişmiş (qırmızı) kərpiclə işlənmişdir. Məqbərənin bucaqlarındakı həndəsi bəzəklər köndələninə düzülmüş kərpiclər əsasında əmələ gətirilmişdir. Usta, rəngli material əlavə etmədən işıq və kölgənin maksimal bədii effektinə nail olmağa çalışmışdır (2, 453).

Sultan Mehmet Xan Qazi Həzrətləri maarif və elmin yüksəlməsi üçün çalışmış, üləma söhbətlərinə qatılmış olduğundan Anadolu onun sayəsində elmlərin mərkəzi olmuşdur. Bu dövrün elm və kamal əhli özlərindən öncəkilərin haqlı olaraq önünə keçmişdir (1, 232).

XII-XV əsrlərdə Ön Asiya regionu xalqları dünya mədəniyyəti xəzinəsinə öz əsərləri ilə zəngin irs qoymuş və mədəniyyətin sonrakı inkişafında mühüm rol oynamışlar.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abdurrahman Şeref Efendi. Osmanlı dövləti tarixi-1. İzmir-1995
2. Azərbaycan tarixi. Yeddi clddə. II cild. B, 1998
3. Azərbaycan Milli Ensiklopediyası. Bakı 2007
4. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə baxış. B, 1993
5. Cəfər Qiyasi. Yaxın-uzaq ellərdə. B, 1985

# IDENTITY VERSUS LINGUISTIC EVIDENCE IN THE SHAHDAG AREA OF AZERBAIJAN

**Rınd-Pawlowskı Monıka**
**Goethe Unıverstıy Frankfurt**

## ABSTRACT

My paper will address nomadic cart culture in the Eurasian Steppe, which developed over the long term and reached its apex with the advent of the imperial Mongols. I will employ a range of narrative, archaeological, and visual sources in order to examine how the carts were used, adapted, technologically improved, and ritualized in the lives and burials of the imperial Mongol and specifically

İSBN: 978-9952-539-04-2

the Golden Horde nomads. As an example, I will present and analyze a unique Golden Horde burial with ornamented cart parts from the Republic of Kalmykia (Russia) and argue that this example reveals the inclusivity of the cart culture in Ulus Jochi whereby a wide use of personal carts by nomads of different ages, genders, and states of health encouraged their active participation in the mobile social life of this Steppe Empire.

The Shahdag area is inhabited by several Caucasian ethnicities: Khinalug (a separate branch among Nakh-Dagestanian), Budugh, Kryz, Haput (Southern Samur branch of Lezgic), and Lezgi (Eastern Samur branch of Lezgic). All of these self-identify as decendants of the Caucasian Albanians, even though the branching of Lezgic must have happened before the Albanian period, and the branching of Khinalug several thousand years earlier. Moreover, the Albanian language is an ancestor to modern Udi (a separate branch of Lezgic) (Gippert et al. 2009, Schulze 2015), and not to the above-mentioned. One hypothesis based on Strabon's description (Jones 1924) is that the Albanians were a multiethnic conglomerate of independent groups, possibly a tribal confederation (cf. Schulze 2018), which was later-on dominated by the Udi, whose language was used as a lingua franca, hence as the only written language. In that case, Albanian loan words should be detectable in the languages of the ethnicities self-identifying as Albanian. Latest research particularly on Khinalug and Southern Samur (in particular: Hümmətov & Rind-Pawlowski 2019, and Rind-Pawlowski's yet unpublished dictionaries of further South Samur varieties and Khinalug) can help to investigate the relationship between the Shahdag tribes and the Albanians.

**Reference**

1. Gippert, Jost & Schulze, Wolfgang & Aleksidze Zaza & Mahé Jean-Pierre (2009): The Caucasian Albanian Palimpsests of Mount Sinai. Two volumes. Brépols, Turnhout.
2. Hümmətov, İsrafil Əbülfərz oğulu & Rind-Pawlowski, Monika (2019): Qrızca-Azərbaycanca-İngiliscə Lüğət. AFPoligraf, Baku.
3. Jones, Horace Leonard (1924). The Geography of Strabo. Cambridge, Mass.: Harvard University Press; London: William Heinemann.
4. Schulze, Wolfgang (2015). From Caucasian Albanian to Udi. Iran and The Caucasus 19, 149-177.
5. Schulze, Wolfgang (2018): "Caucasian Albanian and the Question of Language and Ethnicity. Sprach- und kulturwissenschaftliche Studien zur Ethnizität." In: Sprachen, Völker und Phantome (pp.275-312)

## ORTA ƏSRLƏR ÖN ASİYA MEMARLIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Rüstəmli Sevda**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**rustemlisevda077@gmail.com**

**XÜLASƏ**

Ön Asiya memarlığı dərin köklətə sahibdi və qədim ənənələr özünü orta əsrlərdə inşa edilən nümunələrdə də göstərməkdədir. Orta əsrlərə aid mmarlıq abidələrinin estetik cəhətdən mükəmməl olmasında müxtəlif ornamentlərdən istifadə olunurdu. İslam dinin meyadana gəlməsi və Ön Asiyada hakim mövqey tutması bu ərazidə olan memarlıq sənətinin canlanmasına xidmət etmişdir.
**Açar sözlər:** Ön Asiya, memarlıq, orta əsrlər, sintez, monumental boyakarlıq

**РЕЗЮМЕ**

**ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ СРЕДНЕВЕКОВОЙ АРХИТЕКТУРЫ ПЕРЕДНЯЯ АЗИЯ**

Среднеазиатская архитектура имеет глубокие корни, и древние традиции отражены в средневековых образцах. Для придания средневековых архитектурных памятников эстетическому совершенству использовались различные орнаменты. Появление ислама и его господство в Центральной Азии способствовали возрождению архитектуры в регионе.

İSBN: 978-9952-539-04-2

**Ключевые слова:** Передняя Азия, архитектура, средневековье, синтез, монументальная живопись

## SUMMARY
## ARTISTIC FEATURES OF MEDIEVAL WESTERN ASIA ARCHITECTURE

Central Asian architecture was deeply rooted, and ancient traditions are reflected in medieval specimens. Various ornaments were used to make medieval architectural monuments aesthetically perfect. The emergence of Islam and its dominance in Central Asia contributed to the revival of architecture in the region.
**Key words:** Western Asia, architecture, the middle ages, synthesis, monumenta painting

Ön Asiyanın memarlıq sənəti qədim köklərə malikdir. Bütün orta əsrlər boyu istər Qafqazın, istərsə də Ön Asiyanın cənubunda və qərbində böyük tarixi keçmişə malik memarlıq abidələri qorunub saxlanılmışdı. Onların əksəriyyəti, ya dini abidələr, ya da müxtəlif tikililər olub ərazidə mövcud olan dövlətin siyasi və iqtisadi gücünü göstərilməsi məqsədi ilə müxtəlif dövründə yaradılmışdı.

Məlum olduğu kimi hər bir tarixi dövrün öz tələbləri olur və onlar mədəniyyətdə də öz təsirini açıq şəkildə göstəri. Misal üçün İslam dini meydanı çıxdığı dövrdən onun qanunlarının hakim olduğu ərazilərdə monumental təsviri sənət ənənələri zəifləyir, lakin tamamilə yox olmur. Məscid və mədrəsələrin süjet təsvirləri ilə bəzədilməsinə qadağa qoyulduğundan, onlardan əsasən hökmdarların və məmurların saraylarının, adi insanların evlərinin, hamamların və digər kübar tikililərin divarlarının bəzədilməsində geniş istifadə olunmuşdu. Bunu yazılı mənbələr və arxeoloji tapıntılar sübuta yetirir. Hətta memarlıq tikililərinin interyerini əks etdirən miniatürlərdə divar rəsmlərinə rast gəlinir.

1936-1939-cu illərdə Nyu-Yorkun Metropoliten muzeyi, İranın şimalında, orta əsrlərin iri şəhərlərindən biri olmuş Nişapurda arxeoloji-qazıntı işləri aparılarkən, saray tikililərinin qalıqları arasında IX-X əsrlər mənsub olan dekorativ divar boyakarlığı və kəc üzərində oyma nümunələri aşkarlanmışdı. Şəhər divarlarını bəzəyən boyakarlıq nümunələrini tədqiqatçılar monoxrom və polixrom olmaqla iki qrupa bölmüşdülər. Tehran muzeyində monoxrom qrupa aid edilən bir nümunə saxlanılır. Onda at üzərində oturmuş varlı geyimdə, iki qılınc və dairəvi qalxanla silahlanmış ovçu təsvir olunmuşdu. Təsvirin ikonoqrafiyasında isə atlının sol əlində şahin və atın yəhərinə ovlanmış dovşanın bərkidilməsini görmək olar. Bu boyakarlıq əsəri VIII əsrin sonu, IX əsrin əvvəllərinə aid edilir. Polixrom boyakarlıq nümunələri içərisində çoxrəngli həndəsi ornamentlər və "vaza" motivləri ilə yanaşı çox fiqurlu insan və şeytan təsvirli kompozisiyalarda mühüm yer tutur.

Orta əsrlər Ön Asiya memarlıq sənətinin çiçəklənməsi XII əsrdən başlayaraq yeni bir mərhələyə qədəm qoyur. Bunu Səlcuqlar dövrünün iri şəhərləri Rey, Sov və digərlərində XII-XIII əsrlərdə yaradılmış monumental-dekorativ yaradıcılıq abidələri sübuta yetirir. Bizim dövrə kimi əsasən fraqment şəklində gəlib çıxmış və müasir dövrün müxtəlif muzey və şəxsi kolleksiyalarda saxlanılan bu əsərlər içərisində Filadelfiyanın İncəsənət muzeyindəki iri ölçülü (hünd. 213,5 sm, uzunl. 671 sm) kəc relyef xüsusilə seçilir. Onun yazılarında XII əsr Səlcuq hökmdarının adı çəkilir. Bu səbəbdən ehtimal olunur ki, bu relyef həmin hökmdarın sarayı üçün nəzərdə tutulmuşdu. Bu iri panno üzərində o dövrlər üçün xas olan ənənəvi səhnə - hökmdar və onu şənləndirən qulluqçular və saray xidmətçiləri təsvir olunmuşdu. İki insan fiquru tacın yanında, digər səkkiz fiqur - əlində dolça tutmuş altı qadın və iki kişi isə simmetrik olaraq əsərin sağında və solunda təsvir olunmuşdular. İnsan fiqurları yüksək relyefdə yerinə yetirilmişdi. Onlar kaşılar vasitəsi ilə səkkizguşəli ulduz və xaç formaları ilə bəzədilmiş divarların dekorasiyasının imitasiya edən, ornamental naxış fonunda plastik baxımdan aydın ifadə olunurlar. Qulluqçuların təsvirlərindəki müxtəlif miqyaslı, daxili məsafə təəssüratı yaradır. Tərtibat baxımından şərti-dekorativ verilmiş rəqs edən qadın fiqurlarının hərəkət və jestləri canlı işlənilmişdi. Hökmdar kompozisiyanın dərinliyində təsvir edilmiş və obraz olaraq da çox ifadəlidir. O, bahalı geyimdə, Şərq ənənəsinə uyğun ayaqlarını bir qədər sıxmış vəziyyətdə öz taxtında təsvir olunmuşdu.

Yazılı mənbələr vasitəsilə də biz monumental boyakarlıq haqda xeyli məlumat alırıq. Buna parlaq nümunə kimi Orta şərq xalqlarının klassik poeziya nümayəndələrinin – Firdovsinin, Nizaminin, Nəvainin və digərlərinin əsərlərini xüsusi ilə qeyd etmək lazımdır. Onların əsərlərinin əksəriyyətində o dövrün saray və qəsrlərinin divar boyakarlığı haqda geniş məlumat verilir. Baysunqurun əmri ilə XV

İSBN: 978-9952-539-04-2

əsrdə yazılmış “Şahnamə”nin giriş hissəsində verilmiş informasiyadan məlum olur ki, Firdovsinin Mahmud Qəzvininin sarayında yaşadığı otağın divarları hökmdarların portret təsvirləri ilə bəzədilmişdi. Bununla yanaşı burada silah, at və vəhşi heyvan təsvirlərinə də rast gəlinirdi. Beləliklə, orta əsrlərin bir çox şair və yazıçıları binaların divarlarındakı boyakarlıq haqqında məlumat verir.

Süjetli divar boyakarlığı, XIV-XV əsrlərdə İranda öz çiçəklənmə dövrünü yaşamış miniatür üslubuna böyük təsir göstərmişdi. Ərəb ornamenti fars, bizans incəsənətindən (qismən də yunan – roma incəsənətindən) bir çox şeyləri mənimsəmişdir. İslamda insan təsviri qadağan edildiyinə görə, müsəlman mədəniyyətinin bədii ifadəsinin əsas forması memarlıq və tətbiqi incəsənət oldu. Bunlarda ornament qeyri-adi müxtəliflik və ifadəliliyə çatdı.

Müsəlman incəsənətində ornamentin iki növünü ayırırlar: həndəsi – “girih” (mərkəzi simmetriya prinsipi ilə qurulur) və bitki – “islimi”. Onlar, bir qayda olaraq, ayrılıqda istifadə olunurlar. Lakin, birlikdə də istifadə oluna bilərlər. “Girih” ərəb dilindən tərcümədə “düyün” deməkdir. Girih “düyün” əmələ gətirən “şəbəkələrdə” qurulur. Onun qurulması əsas fiqurun müəyyən edilməsinə və bu fiqurun “şəbəkədə” yerinin dəqiq tapılmasına əsaslanır. Bəzən bir ornamental şəbəkə sanki digərinin üstünə qoyulur. Girihin qurulmasının əsasında çox vaxt dairə həndəsəsi, onun hissələrə düzgün bölünməsi dayanır və bunların köməyi ilə kvadratın, düzbucaqlının, çoxbucaqlının qurulması aparılır. Başqa sözlə, girih pərgar və xətkeşin köməyi ilə yaradılır.

Girih kompozisiyasında çoxbucaqlıların bir-birinə, çoxbucaqlıların dairəyə, v.s. çoxqat qoyulmasından alınan onlarca müxtəlif həndəsi ornamentlər qonşuluq edir və rəqabət aparırlar. İxtiyarı girih riyazi yoxlanılmış, rasional qaydaya müvafiq qurulmuşdur. Bu qayda, bir rapportun sonsuz sayda və mexaniki təkrarlanması vasitəsiə ornament yaratmağa imkan verir. Şərqin ornamental – dekorativ incəsənətinin uğurları riyaziyyat sahəsində böyük elmi kəşflər olmadan ağlasığmazdır. Bu kəşflər mücərrəd həndəsi quruluşların yaradılması üçün ornamentə geniş yol verdilər. Ərəblər tərəfindən tətbiq olunan və adətən arabeska kimi adlanan ornament, şəbəkə şəklində mürəkkəb hörülmüş həndəsi və üslublaşdırılmış bitki xarakterli dekorativ motivlərdən ibarət idi. Bu motivlərə kanonlaşdırılmış şriftlər olan “kufi”də (ərəb yazısının düzbucaqlı hərfləri) və “nash”da (kursiv yazı) icra olunmuş yazılar əlavə olunurdu. Bitki naxışının ayrı-ayrı elementləri həndəsi fiqurlardan ibarət ornamentin fonunun doldurulmasına, eləcə də daha müstəqil məsələlərin həllinə xidmət edirdi.

Naxışlılıq orta əsrlər (XI–XII) müsəlman ornamentinin ayrılmaz hissəsidir. Bu dövrdə naxışlılıq Şərq incəsənətinin bütün növlərinə xas idi və həm memarlıq və tətbiqi incəsənətdə, həm də poeziya və musiqidə özünəməxsus təyinedici üslubdur. O dövrün mütəfəkkir və sənətkarları bütün kainatı gah mücərrəd düzülüş formalarında, gah da fantastik heyvanlar şəklində təsəvvür edirdilər. Biruni canlı təbiətlə incəsənətdə formaların həndəsiləşdirilməsi arasında əlaqənin elmi əsasını verdi və, bununla da, ornamental yaradıcılıqda həndəsənin əlamətlərinin olmasına haqq qazandırdı.

“Gül üslubu” adlanan üslubda orta əsrlər Şərqinin filosofları, hətta nağılvari, “qeyri – təbii” şəkildə olsa belə, insanların rahatlıq, gözəllik, səadət haqqında arzularını ifadə etmək imkanını görürdülər. Bitki və həndəsi ornamentlər arasındakı sərhəddə bəzi fiqurlar: medalyonlar, xonçalar, fiqurlu tağlar, madoxillər, baftalar dayanırlar.

Ərəb ornamenti, onlardan başqa, digər – zoomorf, mifoloji (qanadlı heyvanlar), astral (ay, günəş, ulduzlar), qədim zamanların heyvan eposu, ov səhnələri, müqəddəs həyat ağacı kimi motivlərdən də istifadə edirdi. Ornamental yazılarda, oymanın işlənməsində qırmızı və mavi rənglərin ağ və qızılı rənglərlə həmahəngliyi üstünlük təşkil edirdi; digər, oxra – sarı, yaşıl rənglər də istifadə edilirdi. Vahid rəng qamması mövcud deyildi; Yaxın və Orta Şərqin müxtəlif ölkələrində özlərinin xüsusi rəng uyuşması tətbiq olunurdu.

Ərəblərin memarlığında “stalaktitlər” adlanan bir-birinin üzərində asılan xırda divar çıxıntılarının – taxçaların bağlaşması yayılmışdı. Stolaktitlər qipsdən, terrakotdan hazırlanırdı və işıq və kolgənin son dərəcə incə oyununu yaradırdı. Çox da olmayan mebel formalarının taxta ayaqları, söykənəcəkləri, dirsəkcikləri ərəblər üçün səciyyəvi olan müxtəlif həndəsi ornamental motivlərin tətbiqi ilə işlənilirdi. Bunların arasında ən görkəmli yeri maili çatma tağ tuturdu.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Mahmudov Y. Səyyahlar Azərbaycana gəlir. Bakı: Gənclik, 1977, 138 s.

İSBN: 978-9952-539-04-2

2. Rasim Əfəndiyev, Məmmədağa Tərlanov və Mürsəl Nəcəfov Təsviri incəsənət
3. Древнеиндийская цивилизация: история, религия, эпос, литература, наука. – Москва 2000.
4. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_avqust2009/88066.htm
5. http://unec.edu.az/application/uploads/2018/12/Orta-sr-rq-lk-l-rind-dekorativ-t-tbiqi.pdf
6. https://www.islamrf.ru/news/culture/c-news/36541/

## ORTAÇAĞ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ ƏCƏMİ NAXÇIVANİ SƏNƏDLİ FİLMİNİN SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

**Rüstəmova Aysel Ağaşirin qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin**
**aysel_rustemliar@mail.ru**

**XÜLASƏ**

Təqdim edilmiş araşdırma "Əcəmi Naxçıvani" sənədli filminin təhlili əsasında aparılmışdır. Filmdə orta əsr Azərbaycan memarlığının görkəmli şəxsiyyəti Əcəmi Naxçıvaninin həyat və yaradıcılığı, onun Azərbaycan və Yaxın Şərq ölkələri memarlığına təsir konteksti öz əksini tapmışdır. Araşdırmada 850 il əvvəl Naxçıvan torpağında Əcəminin dünyaya göz açmasından, dünya memarlıq tarixinə əvəzsiz incilər bəxş etməsindən, Yusif Küseyir oğlu və Möminə Xatun türbələrini ucaltmasından, Naxçıvan memarlıq məktəbinin binasını qoymasından bəhs olunmuşdur. Sənədli filmdə Yusif Küseyir oğlu və Möminə Xatun türbələri haqqında ətraflı söhbət açılmışdır.

**Açar sözlər:** Əcəmi Naxçıvani, Yusif Küseyir oğlu türbəsi, Möminə Xatun türbəsi, memar, film.

**Ключевые слова:** Аджами Нахчывани, могила Юсифа Кусейир оглу, могила Момина Хатун, архитектор, фильм.

**Key words:** Ajami Nakhchivani, tomb of Yusif Kuseyir oglu, tomb of Momina Khatun, architect, film.

Filmdə Yusif Küseyir oğlu türbəsinin Əcəminin ilk əsərinin olmasından, abidənin yeraltı sərdabədən və yerüstü qülləli qurğudan tikilməsindən, türbənin səkkiz üzü müxtəlif şəkilli həndəsi ornamentlə bəzədilməsindən, başlığın piramidavari gəc və kərpiclərlə tikilmiş günbəzlə örtülməsi diqqətə çatdırılır. Kompozisiya aydınlığı, hissələrin və ayrıntıların uyarlığı, lakonizm, obrazlılıq, inşaat işlərinin son dərəcə dəqiq aparılması cəhətdən öyünməli memarlıq abidəsi kimi fərqlənməsindən danışılır. Memarın digər sənət əsəri Möminə Xatun türbəsinin 1086-cı ildə Atabəy Eldəgizin oğlu Məhəmməd Cahan Pəhləvanın həyat yoldaşı Möminə Xatunun şərəfinə ucaltması, yeraltı sərdabənin on bucaqlı olması, qogika memarlıq üslubunun köklərinin yaratması, monumental sərdabənin memarlıq tarixində ilk mükəmməl, dolğun mürəkkəb nümunə kimi seçilməsi ətraflı məlumatlandırılmışdır.

Filmin sonunda Əcəmi Naxçıvaninin sənət yaradıcılığının baxış nöqtəsi ortaçağda Azərbaycanın mədəniyyət məsələlərinin aktual mövzusu baxımından işıqlandırılmışdır.

## GÜRCÜSTANIN ORTA ƏSRLƏR DÖVRÜNDƏKİ MƏDƏNİYYƏT TARİXİ

**Salayev Kamal**
**AMEA–nın Qafqazşünaslıq İnstitutunun**
**kamalsalayev1988@gmail.com**

**XÜLASƏ**

Məqalədə Gürcüstanın orta əsrlərdəki zəngin mədəniyyət tarixi tədqiq olunur. Rus tarixçisi N.P.Kondakovun da sübut etməyə çalışdığı kimi, Gürcüstanın orta əsrlər dövründəki mədəniyyətinin tənəzzül dövrü olmamışdır. Gürcüstanın orta əsrlər dövrünün rəsmlərində Bizans incəsənətinin əsas inkişaf xəttinin olduğu araşdırılmışdır. Belə ki, incəsənətin təkamülü prosesi Bizansda olduğu kimi

Gürcüstanda da mərhələlərlə baş vermişdir. Bu baxımdan qeyd etmək lazımdır ki, dövrün dekorasiya sxemləri, eləcə də ikonoqrafik mövzuların çoxu Bizans mənbələrindən götürülmüşdür. Bundan əlavə, Gürcüstanın orta əsrlər dövründəki kilsələrin freskaları təkcə gürcü mədəniyyətinin milli yüksəlişini deyil, eləcə də bütün xristian Şərqinin sənətinin dirçəlişini əks etdirmişdir. Qeyd etmək lazımdır ki, orta əsrlər dövründə Gürcüstanın digər mədəniyyət sahələrində də inkişaf prosesinin olduğu müşahidə olunmuşdur. Bu baxımdan Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" poeması orta əsrlər dövründə Gürcüstan mədəniyyətinin inkişaf etdiyini sübut edir. Gürcüstanın orta əsrlər dövründəki mədəniyyəti dövlətin möhkəmlənməsini də əks etdirir. Qeyd etmək lazımdır ki, orta əsrlər dövründə gürcü ustaları, ən yaxşı hesab olunan, Bizans və italyan sənətkarlarının ustalığına bərabər dərəcədə olan şedevrləri hazırlamışlar.
**Açar sözlər:** Gürcüstan, orta əsrlər dövrü, incəsənət, mədəniyyət, kilsələr, freskalar, rəsmlər, sənətkarlıq

## РЕЗЮМЕ

В статье исследуется богатая средневековая история Грузии. Как пытался доказать и русский историк Н. П. Кондаков, не было периода упадка грузинской культуры средневековья. В картинах средневекового периода Грузии основное развитие византийского искусства было исследовано. Так, процесс эволюции искусства происходил поэтапно, как в Византии, так и в Грузии. В связи с этим следует отметить, что схемы декора эпохи, а также большая часть иконографических тем взяты из византийских источников. Кроме того, фрески церквей средневекового периода Грузии отражали не только национальный подъем грузинской культуры, но и возрождение искусства всего христианского востока. Следует отметить, что в период средневековья наблюдался процесс развития Грузии и в других областях культуры. С этой точки зрения поэма Шота Руставели "Пахлаван в тигровой шкуре" свидетельствует о развитии грузинской культуры в период средневековья. Средневековая культура Грузии также отражает укрепление государства. Следует отметить, что в эпоху средневековья грузинские мастера изготавливали шедевры, которые считались лучшими, равными мастерству византийских и итальянских мастеров.
**Ключевые слова:** Грузия, средневековье, искусство, культура, церкви, фрески, картины, ремесла

## SUMMARY

The article explores the rich medieval history of Georgia. As Russian historian N. P. Kondakov tried to prove, there was no period of decline of the Georgian culture of the middle ages. In the paintings of the medieval period of Georgia, the main development of Byzantine art was explored. Thus, the process of art evolution took place in stages, both in Byzantium and in Georgia. In this regard, it should be noted that the schemes of decoration of the era, as well as most of the iconographic themes are taken from Byzantine sources. In addition, the frescoes of the churches of the medieval period of Georgia reflected not only the national rise of Georgian culture, but also the revival of art throughout the christian east. It should be noted that during the middle ages there was a process of development of Georgia in other areas of culture. From this point of view, Shota Rustaveli's poem "Pahlavan in tiger skin" testifies to the development of Georgian culture in the middle ages. The medieval culture of Georgia also reflects the strengthening of the state. It should be noted that in the middle ages, Georgian masters made masterpieces that were considered the best, equal to the skill of Byzantine and Italian masters.
**Keywords:** Georgia, medieval period, art, culture, churches, frescoes, paintings, crafts

XIII əsrə aid olan rəsm əsərləri Gürcüstanın necə zəngin mədəniyyətə sahib olmasını göstərir. Belə ki, bu rəsmlər XIII əsrdəki xristian Şərqinin bədii həyatında hökm sürən canlanmaya parlaq işıq saçır ki, bu da N. P. Kondakovun da sübut etməyə çalışdığı kimi, bir daha onu göstərir ki, bu dövr heç bir halda durğunluq və tənəzzül dövrü olmamışdır. Bütövlükdə, dövrün bir sıra Şərqi-ellinist və Suriya qalıqlarını qoruyub saxlayan Gürcüstan rəsmləri dəqiq şəkildə ifadə olunmuş bir milli qrupu təmsil edir. Rəsmdəki yelkənlərdə Konstantinopol üçün qeyri-adi olan, Kapadokyadakı medalyonlarda, günbəzlərdə rast gəlinən yevangelistlər təsvir olunur ki, burada da Misirdəki Ağ monastırdan başqa heç yerdə görünməyən xaçın yüksəlməsinə dair kompozisiya öz əksini tapır. Freskaların rəngi əsasən,

İSBN: 978-9952-539-04-2

qəhvəyi-qırmızı, boz, mavi, yaşıl və ağ boyalarda öz əksini tapmışdır. Gürcüstan rəsmlərinin müstəqilliyinə baxmayaraq, onları Bizans incəsənətinin əsas inkişaf xəttindən ayırmaq mümkün deyildir. Rəngkarlığın təkamülü Bizansda olduğu kimi Gürcüstanda da eyni mərhələlərlə baş vermişdir. Qeyd etmək lazımdır ki, Bizans formaları davamlı olaraq gürcü kilsələrinin də rəngləmə sisteminə daxil olmuş və bu baxımdan əsas konturda Bizans kilsələrinin dekorasiya sxemi, eləcə də ikonoqrafik mövzuların çoxu Bizans mənbələrindən götürülmüşdür. Buna görə də, XIII əsrdə gürcü rəssamlığının inkişafdan xeyli qabaq özünəməxsus, tamamilə xüsusi yollarla inkişaf etdiyini düşünmək bir qədər doğru olmazdı. Yalnız bu yanaşma nəticəsində həmin qəbildən olan Ubisi freskalarını [1]

XIII əsrin birinci yarısına aid etmək təşəbbüsü ortaya çıxdı. Bu baxımdan Gürcüstanı paleoloji rəsmlərin vətəni hesab etmək olar. Çünki Ubisi freskaları XIV əsrin ikinci yarısından daha erkən görünməmişdir. Məsələni bu şəkildə ortaya qoyduqda isə XIII əsrə aid bir sıra gürcü rəsmlərinin təkcə kraliça Tamaranın dövründəki gürcü mədəniyyətinin milli yüksəlişini deyil, eləcə də bütün xristian Şərqinin sənətinin dirçəlişini əks etdirən bədii əhəmiyyətini qeyd etmək olar. Bununla belə, Gürcüstan rəssamlığı yalnız XIV əsrdə, paleoloji mirasın üzvi olaraq işləndiyi zaman Ubisi rəsminin təmsil olunduğu səviyyəyə yüksələ bildi.

Gürcüstan üçün kraliça Tamaranın (1184-1213) hakimiyyəti [2], ölkənin ən yüksək siyasi və mədəni tərəqqisinin olduğu dövr idi. Qeyd etmək lazımdır ki, məhz Tamaranın parlaq hərbi uğurları sayəsində Ermənistanın bir hissəsi, o cümlədən, İran, İraq, Xorasan, Zəncan, Qəzvin və digər əyalətlər Gürcüstana tabe edildi. Qərb dünyası ilə, Şərqlə, Bizansla olan fəal əlaqələr – fars ədəbiyyatı ilə, neoplatonistlərin fəlsəfəsi, Bizans yazıçılarının əsərləri və ərəb alimlərinin risalələri ilə yaxından tanış olan gürcü şairi Şota Rustavelinin simasında irəli sürülmüş, gürcü cəmiyyətinin dünyagörüşünü daha da genişləndirmişdir. Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" poeması, XII və XIII əsrlərdə gürcü mədəniyyətinin nə qədər inkişaf etdiyini sübut edir.

Son XII və erkən XIII əsrin gürcü naxışlarının silsiləsi Vardziyada 1184-1186-cı illərdə yaranmış mağara məbədinin freskalarında əks olunur ki, bu da çar Georgi və qızı Tamaranın [3] şimal divarında yerləşdirilmiş portretləri ilə sübut olunur. Təxminən 1207-ci ildə Betaninin [4] rəsm işləri tamamlandı. Burada yevangelistlərin səhnələrindən əlavə, çar III Georginin, kraliça Tamaranın, habelə Georgi Laşanın rəsmləri olan nadir kompozisiyalara rast gəlmək mümkündür. 1208-ci ildən gec olmayaraq, gürcü monumental boyakarlığının ən yaxşı nümunələrindən biri hesab olunan – Kintsvisi [5] rəsmi meydana çıxdı. Həmin məbədin günbəzində on iki fiqurla (Deisus və doqquz mələk) əhatə olunmuş xaç təsvir olunmuşdur. Orada III Georginin, qızı Tamaranın, şimal divarında nəvəsi Georgi Laşanın, cənub divarında isə kraliça Tamaranın ilk naziri Antonianın təsviri, bu rəsmlərin Bizans mədəniyyətinin təsiri altında olduğunu göstərir. Kintsvisinin rəsm əsəri fövqəladə bir təfsir yumşalığı ilə, eləcə də kəskin konturların tam olmaması ilə xarakterizə olunur. Bundan əlavə konturlar elastikliyi ilə seçilir, rənglərdəki mavi və yaşıl tonlar isə üstünlük təşkil edir. Kintsvisi dekorativ sisteminə yaxınlıq daha sonrakı dövrə aid olan Timotesubanidəki [6] məbədin freskalarında da öz əksini tapır (XIII əsrin birinci rübü). Kintsvisinin günbəzindəki rəsm əsəri burada da təkrar olunur. Bu məbədin qərb divarında dəhşətli məhkəmənin möhtəşəm kompozisiyası öz əksini tapır.

Qeyd etmək lazımdır ki, bütün gürcü rəsmlərində, gürcü yazılarında, o cümlədən, Kintsvisi və Timotesubani freskalarında fiqurun daha sərbəst şəkildə şərh edilməsinə üstünlük verilir. Bu ənənələr Axtala [7] məbədinin mehrab hissəsinin rəsm üslubunu da müəyyən edir. Orada taxtda oturan Tanrı anası və uşağı, eləcə də digər müqəddəslər təsvir olunur. Bu rəsmi çəkən rəssam Bizans mədəniyyətinin təsiri altında olmuşdur. O, müqəddəs mələkləri, müqəddəs birliyin tərkibi olaraq təqdim etmişdir. Onun rəsmi dəqiqliyi və zərifliyi ilə fərqlənir. Rəsmdə təsvir olunan ağ paltarların və sıx mavi fonun arasındakı kontrast çox təsirlidir. Məbədin şimal və cənub divarlarının aşağı təbəqəsinin naxışları fərqli şəkildə həyata keçirilmişdir. qərb divarında dəhşətli məhkəmənin böyük bir kompozisiyası öz əksini tapır.

XIII əsrin [8] ilk yarısına dair Mtsxeta yaxınlığında, Şio-Mqvim monastırının yaxınlığındakı kiçik bir zal kilsəsinin rəsmini göstərmək olar. Türbələr və divarlar yevangelist səhnələri ilə, eləcə də müqəddəslərin və sütunların rəqəmləri ilə bəzədilmişdir. Rəsmdəki üzlərdə əks olunan işıqlar, Nereditsada işləyən ustaların tez-tez işlədikləri rəsm üslubuna bənzəyir.

İSBN: 978-9952-539-04-2

İnkişafın sonrakı mərhələsinə nəzər saldıqda aydın olur ki, Gelat kilsəsinin cənub-şərq istiqamətindəki qurbangahı, eləcə də Xobidəki bazilikanın cənub-qərb binalarının divarları XIII əsrin sonuna və XIV əsrin əvvəllərinə [9] təsadüf edir. Üslubuna görə onlar erkən paleoloji dövrün abidələrinə çox yaxındırlar. Divarlarda peyğəmbərlərin fiqurları, o cümlədən, Dmitrinin, müqəddəs döyüşçülərin və monastır geyimində olan David Narinin portreti yerləşdirilmişdir. Qeyd etmək lazımdır ki, Gelat məbədinin cənub-şərq freskaları məhz XIII əsrin 90-cı illərində meydana çıxmışdır.

Xobidə vəftizçi İoannanın həyatı və Minqrelia sahibi Şerqila Dadianinin ailə portreti verilmişdir. Bu rəsm də Minqreliada [10] (Martvili, Otsindale, Tsalencixa) olan digər rəsmlər kimi ya güclü Bizansın təsiri altında olmuş, ya birbaşa rumların tərəfindən, ya da ki, yunanların tərəfindən həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, Martvilinin rəsmləri XII əsrdən XVII əsrə qədər olan bir dövrü əhatə edir.

XIII əsrin gürcü monumental rəssamlığının ən qabaqcıl abidəsi sayılan Xobinin freskalarından fərqli olaraq, Bertubaninin (Kaxetiyadakı gürcülərin David Qareci adlandırdığı Keşikçidağ məbədi) [11] mağara kilsəsinin rəsmində böyük bir arxaizmin möhürü öz əksini tapır. Kraliça Tamaranın və başında qırmızı tac təsvir olunan oğlu Georgi Laşanın portretlərindən belə bir nəticəyə gəlmək olur ki, bu freskalar - erkən XIII (1212-1213) əsrə aiddir. Kilsənin qərb istiqamətindəki rəsmlərində dəhşətli məhkəmənin yarımçıq kompozisiyasının qalıqları qalmışdır. Ehtimal ki, rəssamlar, düşmənlərin qəfil işğalına görə öz işlərini dayandırmışlar.

Rəsmlərin çoxunda sujet xətti İncildən götürülmüşdür. Belə ki, burada İbrahimin qonaqpərvərliyi, Kandakı evlilik, Şam yeməyi və s. anları əks etdirən səhnələr çəkilmişdir. Bununla yanaşı, rəssamlar David Qarecinin şagirdi Lukianın da rəsmini çəkmişlər. Keyfiyyət baxımından bu freskalar Bertubanidə olanlardan daha incədirlər. Belə ki, bu ənənələr Gürcüstanda çox güclü olduğundan, yalnız XIII əsrin sonu və XIV əsrin əvvəllərindən etibarən Gürcüstan torpağında kök salmağa başlayan yeni bir üslubun formalaşmasını təxirə salmışdır [12].

Şərq və Bizans tipli formaların paralel şəkildə mövcudluğu gürcü miniatürlərində də müşahidə olunur. Onu səciyyələndirən yeni cəhətlər isə tez-tez çərçivədən kənara çıxan fiqurların daha sərbəst şəkildə olmasıdır. Belə ki, həmin miniatürlərdə, klassik simmetriyanın pozulması, bir tərəfdən mətn arasındakı kompozisiya əlaqələrinin gücləndirilməsi, digər tərəfdən isə mavi, çəhrayı və yasəmən tonlarının üstünlük təşkil etməsi nəzərə çarpır. Ayrı-ayrı əlyazmalar mürəkkəblə ifadə olunur ki, bunlar da rənglənməmiş perqamentin fonunda verilir. Ornamentikada hörmə təsviri daha tez-tez özünü biruzə verir. Belə ki, Larqvis İncili kimi əlyazmalar, İncildən olan hissələr [13], o cümlədən, Tbilisidəki əlyazmalar institutunda və Leninqradın kütləvi kitabxanasındakı [14] Gelat monastırından olan İncil bütün özünəməxsusluğu ilə Bizans nümunələrinə daha yaxındır.

Gürcüstandakı monastırların inkişafı və rahibliyin artması xeyli dərəcədə ərəb hökmranlığı ilə bağlı olmuşdur. Monastırlara axışan insanlar dilin və dinin milli təməllərini qoruyub saxlamağa çalışırdılar. Gürcüstanın milli müstəqilliyini itirdiyi dövrdə monastırlar çox vaxt köhnə mədəni ənənələrin mövcud olduğu yeganə məkan idi. Bu baxımdan isə Keşikçidağ (gürcülərin David Qareci adlandırdığı) məbədi xüsusi əhəmiyyətə malikdir. Belə ki, oradakı rəsmlərin əksəriyyəti IX əsrdən XVII əsrə qədər olan bir dövrü əhatə edir. Burada Qafqazda sevilən Deisusun təsviri ilə yanaşı, Məsih və monastırın qurucusu David Qarecinin həyatından da çox sayda səhnələr, müqəddəslərin fiqurları, eləcə də, gürcü freskaları üçün xarakterik olan xaçın yüksəlməsi kompozisiyası öz əksini tapır. Divar rəsmləri Kapadokyadakı, həmçinin, Fransadakı roman freskaları ilə olan bənzərlikləri ortaya qoyur: burada formaların eyni düz şəkildə təfsiri, kompozisiyanın divar səthində eyni ibtidai şəkildə yerləşdirilməsi, eləcə də mavi, qızıl sarı və yaşıl rənglərdə olması nəzərə çarpır.

O dövr kral sifarişlərinin siyahısına, III Baqrat tərəfindən tikilən Bedia monastırının freskaları da aiddir [15]. Buradakı orjinal naxışın azsaylı fraqmentlərinin arasındakı iki qrupu müəyyən etmək olur. Belə ki, monastırın şimal divarında xeyir-dua verən Məsihin portretinə üz tutan qadınların, kişilərin və gənclərin fiqurları var. Monastırın əks tərəfindəki cənub divarında isə sağ əlində günbəz məbədinin modelinin, başında isə tacın təsvir olunduğu Baqratın fiquru salamat qalmışdır. Baqrat dövrünün freskaları XII əsrin sonu – XIV əsrin birinci yarısında bərpa edilmiş və genişləndirilmişdir.

Gürcüstanın qüdrətli dövlət şəklində birləşdirilməsi uğrunda mütərəqqi mübarizə, bu mübarizənin gedişində ayrı-ayrı sahələr arasındakı mədəni əlaqələrin güclənməsi, eləcə də orta əsr gürcü

İSBN: 978-9952-539-04-2

mədəniyyətinin və incəsənətinin yüksəlişi üçün ideya şəraitini yaratmışdır. Ayrı-ayrı sahələrin yaradıcılıq nailiyyətləri bir-biri ilə daha sıx birləşmiş, tədricən XI–XIII əsrlərdə Gürcüstanın orta əsr incəsənətinə xas olan bədii üslubun ümumi xüsusiyyətləri yaranmışdır. Bu zaman ərzində Gürcüstan Yaxın Şərqin ən böyük dövlətlərindən birinə çevrilərək, öz iqtisadiyyatını və siyasi nüfuzunu möhkəmləndirərək, maddi və mənəvi həyatın bütün sahələrində yüksəliş dövrünü yaşamışdır. Antik filosof və şairlərin əsərləri, o cümlədən, İran, Azərbaycan və tacik poeziyasının gözəl əsərləri gürcü dilinə tərcümə olunmuşdur.

O dövrün mədəniyyəti üçün kilsənin və qəbilə feodal zadəganlığının rolunun azalması, cəmiyyətin dünyəvi dairələrinin ideologiyası ilə bağlı tendensiyaların artması, əsasən xidmət edən ticarət-sənətkarlıq təbəqəsinin olması da səciyyəvidir [16]. Həmin dövrdə görkəmli gürcü filosofu İoane Petrisi də fəaliyyət göstərmişdir (təxminən 1125-ci ildə).

XII-XIII əsrlər incəsənəti, yeni ideya vəzifələrini – ölkə qüvvələrinin birləşməsini və dövlətin möhkəmləndirilməsini əks etdirir. Həmçinin, insanın mənəvi dünyasına müraciət də getdikcə mühüm yer tutmağa başlayır. Monumental memarlıqda obrazların daxili gərginlikləri ilə dolu əzəmətli görünüşlərin yaradılması tendensiyası nəzərə çarpır. Tikililərin mütləq ölçülərinin artırılması, binaların həm xaricdən, həm də daxildən zəngin şəkildə ornamentləşdirilməsi səciyyəvidir.

XII-XIII əsrlərdə Tamaranın çarlığı dövründə tikilmiş yaşayış məskənlərinin arxitekturası ilk növbədə müdafiə məqsədlərinə xidmət edirdi. 25 m hündürlüyünə çatan güclü divarların olması buna sübutdur. Birinci mərtəbədə mal-qara saxlanılırdı, ikinci mərtəbədə evdəkilər yaşayırdı, üçüncü mərtəbə isə adətən müdafiə məqsədlərinə xidmət edirdi [17].

Gürcüstandakı Msxeta-Armazidə Yunan-Roma dövrünə aid ictimai binaların və sarayların çoxlu xarabalıqları qalmışdır [18]. Bu baxımdan forumun və teatrın qalıqlarını, o cümlədən, Kaxetidəki qədim antik şəhər olan Ucarmanı, XI-XII əsrlərdə gürcü hökmdarlarının qış iqamətgahı olan Gedutidəki möhtəşəm orta əsrlər sarayını misal olaraq göstərmək olar ki, o da Kutaisinin cənubundakı geniş bir düzənlikdə yerləşir.

Gürcüstan dağları yeraltı və ya qayalı yaşayış binalarının tikilməsi üçün qeyri-adi dərəcədə rahat olmuşdur. Belə ki, onların bir çoxu təbii mənşəli olduğu üçün daş dövrü insanlarının da ideal sığınacağı olmuşdur. Belə tikililərə misal olaraq, Uplissixe şəhərini göstərmək olar ki, onun da inşası tunc və Yunan-Roma dövrünə təsadüf edir. Bu tip konstruksiyaya XII əsrdə, Mtkvari çayının yuxarı hissəsində yerləşən Vardziya adlı şəhərdə rast gəlinmişdir.

Orta əsr incəsənətinin bir istiqaməti vardır ki, burada da gürcülərin nailiyyətlərinə dair heç kim mübahisə etmir. Bu istiqamət isə sənətkarların zərbxanası, eləcə də qızıl və gümüş işlərinin sənəti ilə bağlıdır. Belə ki, bu dövrdə gürcü ustaları, ən yaxşı hesab olunan Bizans və ya italyan nümunələrinin ustalığına bərabər dərəcədə olan şedevrləri hazırlamışlar.

XII əsrdə boyalı keramikanın istehsal mərkəzi Dmanisi şəhəri idi. Bu baxımdan həmin yerli məhsulların maraqlı tədqiqatı V.Caparidze və Z.Maysuradze, həmçinin, Los-Ancelesdən olan amerikalı tarixçi D.D.Friman tərəfindən aparılmışdır [18].

XII – XIII əsrlərdə Gürcüstanın incəsənətində əvvəlki dövrün ənənələri inkişaf edərək daha da zənginləşmişdir. Qeyd etmək lazımdır ki, Gürcüstanın zəngin mədəniyyətindən fərqli olaraq Ermənistanın mədəniyyəti olmamışdır. Ona görə də, saxtakar erməni tarixçiləri, nəinki Azərbaycanın, Gürcüstanın da zəngin mədəni irsini mənimsəməyə, öz adlarına çıxarmağa çalışmışlar. Bu proses günü bu gün də davam etməkdədir. Həqiqət isə ondan ibarətdir ki, ermənilər əslində heç vaxt Cənubi Qafqazın yerli əhalisi olmamışlar. Onların Cənubi Qafqaza XIX əsrin birinci yarısında köçürülməsi bütün tarixçilərə məlumdur. Belə bir halda isə ermənilərin hər hansı köklü mədəniyyətindən söhbət gedə bilməz.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Ш. Амиранашвили. Убиси. Материалы по истории грузинской живописи. Тифлис. 1929, 127 с.
2. Государственный Эрмитаж. Памятники эпохи Руставели. Ленинград. 1938. 406 с.; Шота Руставели и его время. Москва. 1939. 275 с.
3. Кипшидзе Д. А. О росписи большого храмового пещерного сооружения Вардзии // Изв. КИАИ. Т.3. Тифлис, 1925. 87–96 с.; Ш. Амиранашвили. История грузинского искусства.

İSBN: 978-9952-539-04-2

М.: «Искусство». 1950. 526 с.; Г. Д. Джамбурия, К. Н. Мелитаури, Ш. А. Хантадзе, Н. Ф. Шошиашвили. Вардзиа. Путеводитель. Акад. наук Груз. ССР. Тбилиси. Изд. АН ГрузССР, 1957. 95 с.

4. Д. П. Гордеев. Отчет о поездке в Ахалцихский уезд в 1917 году. Росписи в Чуле, Сапаре и Зарзме. Петроград. 1923, 95 с.; Толмачевская. Фрески древней Грузии, Тифлис. 1931. 54 с.; Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.
5. Гордеев, Д. П. Предварительное сообщение о К'инцвисской росписи. 1929. 411-416 с.; Толмачевская. Фрески древней Грузии, Тифлис. 1931. 54 с.; Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.; ვაჩეიშვილი კ. ყინწვისის მშენებლის გამოსახულების შესახებ (Вачейшвили К. А. Об изображении кинцвисского ктитора) // Сообщения АН Грузинской ССР XXXII. Вып. 3, Тбилиси, 1963. 745–752 с. (на груз., резюме на рус. яз.).
6. Краткий отчет о командировках в Кахию и Горийский уезд летом 1917 г. // Изв. Кавказского отдела Московского Археологического общества. Тифлис. 1919. Вып. 5. 1-36 с.; Толмачевская. Фрески древней Грузии, Тифлис. 1931. 54 с.
7. Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.; Толмачевская. Фрески древней Грузии, Тифлис. 1931. 54 с.
8. Ш. Амиранашвили. Некоторые замечания о происхождении художественно-живописных приемов письма фресок Нередицы. 1980. 122-139 с.; Толмачевская. Фрески древней Грузии, Тифлис. 1931. 54 с.
9. Е. Такайшвили. Археологические экскурсии и заметки, Тбилиси. 1914, 134–137 с. (на груз. яз.); Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.
10. Гордеев Д. К стилистической характеристике Мартвильской росписи. (Наукові записки Наукові Дослидчоі Катедри Історіі Украинськоі Культури, Харків) 1927. 357–364 с.
11. Д. П. Гордеев. Отчет о поездке в Ахалцихский уезд в 1917 году. Росписи в Чуле, Сапаре и Зарзме. Петроград. 1923, 95 с.; Г. Н. Чубинашвили. Пещерные монастыри Давид-Гареджи: Очерк по истории искусства Грузии. Тбилиси. 1948. 31-130 с.; Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.
12. Г. Н. Чубинашвили. Пещерные монастыри Давид-Гареджи: Очерк по истории искусства Грузии. Тбилиси. 1948. 31-130 с.; Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.; Ш. Амиранашвили. История грузинской монументальной живописи.1957. 53 с.
13. Ш. Амиранашвили. Грузинская миниатюра. 1966. 73 с.; Шмерлинг. Образцы декоративного убранства грузинских рукописей. Тбилиси. Изд-во Груз. филиала Акад. наук СССР, 1940. 82 с.; Ш. Амиранашвили. История грузинского искусства. М.: «Искусство». 1950. 526 с.
14. Шмерлинг Р.О. Образцы декоративного убранства грузинских рукописей. Тбилиси. Изд-во Груз. филиала Акад. наук СССР, 1940. 82 с.
15. Толмачевская. Фрески древней Грузии, Тифлис. 1931. 54 с.; Шмерлинг Р.О. К вопросу о датировке росписи Бедийского храма. Сообщения Академии наук ГССР. 1957. 503-511 с.
16. Искусство Грузии /02.10.2020/ https://helpiks.org/8-1094.html
17. Древнее и средневековое искусство Грузии /02.10.2020/ http://ency.info/mirovaya-khudozhestvennaya-kultura/izobrazitelnoe-iskusstvo-i-arkhitektura-drevnikh-narodov/555-drevnee-i-srednevekovoe-iskusstvo-gruzii
18. Лэнг Дэвид. Грузины (Хранители святынь). Глава 6. Ранная средневековая архитектура и искусство /02.10.2020/ https://history.wikireading.ru/171681

İSBN: 978-9952-539-04-2

# XII-XV ƏSRLƏRDƏ ÖN ASİYA VƏ QAFQAZ REGİONUN ETNOQRAFİYASI VƏ ONA KƏNAR TƏSİRLƏRİN NƏTİCƏLƏRİ

**Səfərova Çinarə Qabil qızı**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**Seferova.cinare@bk.ru**

**XÜLASƏ**

Xalqları coğrafi cəhətdən təsnif edərkən, onları xəritə üzrə deyil tarixi-etnoqrafik vilayətlər üzrə təsnifləşdirirlər. Qədim xalqların formalaşması, yer üzərində insanların ilkin yayılması prosesi dövründə baş vermişdir. Daha sonradan ayrı-ayrı tarixi etnoqrafik əyalətlərin xarakterik xüsusiyyətləri dəyişdiyi kimi, onların sərhədləri də dəyişmişdir. Bunun nəticəsində bəzi əyalətlər yox olmuş, bəziləri isə əksinə yenidən meydana çıxmışdır. Bu proses uzun minilliklər boyu müxtəlif ictimai-iqtisadi formasiyalar daxilində cərəyan etmişdir. Tarixi–etnoqrafik əyalətə müəyyən ərazidə məskunlaşan, bir-birilə əlaqədə olan, lakin ictimai-iqtisadi inkişafın səviyyəsi və istiqaməti, dili və irqi mənsubiyyəti ilə fərqlənən xalqlar daxildir.

**Açar sözlər:** Ön Asiya, Qafqaz, oğuz-səlcuq türkləri, xalqların təşəkkülü prosesi.

**SUMMARY**

**ETHNOGRAPHY OF THE FORWARD ASIAN-CAUCASIAN REGION XII-XV CENTURIES AND THE RESULTS OF ITS EXTERNAL IMPACTS**

Geographically classifying peoples, they must be classified by historical-ethnic regions, and not by a map. The formation of ancient peoples took place during the process of the first spread of people on earth. Later, as the characteristics of individual historical and ethnographic provinces changed, their borders changed. As a result, some provinces disappeared and some, on the contrary, arose. This process took place in various socio-economic formations for many millennia. The historical-ethnographic province includes the peoples living in a certain area, who are connected with each other, but differ in the level and direction of socio-economic development, language and race.

**Keywords:** Central Asia, Caucasus, Oghuz-Seljuk Turks, the process of formation of peoples.

**РЕЗЮМЕ**

**ЭТНОГРАФИЯ ПЕРЕДНЕЙ АЗИАТСКО-КАВКАЗСКОЙ ОБЛАСТИ XII-XV ВЕКОВ И РЕЗУЛЬТАТЫ ЕГО ВНЕШНИХ ВОЗДЕЙСТВИЙ**

Географически классифицируя народы их необходимо классифицироватъ по исторически-этническим регионам, а не по карте. Формирование древних народов происходило в процессе первого расселения людей на земле. Позже, по мере изменения характеристик отдельных историческо-этнографических провинций, изменялись их границы. В результате некоторые провинции исчезли а некоторые наоборот, возникли. Этот процесс происходил в различных социально-экономических формациях на протяжении многих тысячелетий. Историко-этнографическая провинция включает народы проживайщие на определенной территории, которые связаны друг-друга, но различаются по уровню и социально-экономического развития, языку и расе.

**Ключевые слова:** Средняя Азия, Кавказ, тюрки-огузы-сельджуки, процесс формирования народов.

## GİRİŞ

Eramızın birinci minilliyinin ikinci yarısından Cənubi Sibir, Mərkəzi və Orta Asiyada türk dilli xalqların kütləvi axını baş vermişdir. Bunun nəticəsində, həmin ərazilərdə bir-birini əvəz etmiş bir çox

İSBN: 978-9952-539-04-2

tayfa ittifaqları və dövlət birləşmələri meydana gəlmişdi. V əsrin sonunda isə Orta Asiya tayfalarından biri olan Evtalitlərin (İrandilli tayfa) böyük qrupu Hindistan ərazisində məskunlaşmışdı və keçmiş Kuşan imperiyasının ərazisində böyük bir dövlət yaratmışdılar.VII əsrdən etibarən isə Ön Asiyanın və Şimali Afrikanın yerli əhalisinin assimiliyasiyası ilə müşayiət olunan geniş ərəb işğalları dövrü başlayır. Bu dövrdə eyni zamanda Şərqi və Cənub-Şərqi Asiyada koreyalıların və yaponların konsolidasiyası başlayır. Çinlilər də tədriclə cənuba doğru yayılaraq, oradakı müxtəlif xalqlarla qarışmış, onların mədəni və təsərrüfat nailiyyətlərini mənimsəyərək, həmçinin bir-birindən fərqlənən yerli qruplara parçalanmış və yerli xalqlara çin dilini qəbul etdirmişdilər.

Tarixin ulu çağlarından türklərin ən qədim əcdadları Qafqazda, Ön Asiyada və Aralıq dənizinin şərq sahillərində avtoxton əhali kimi yaşam sürmüşlər. Müasir dövrdə türklərin Anadoluya ilk dəfə XI əsrdə “Altaydan gəlməsi” nəzəriyyəsi elmi cəhətdən iflasa uğramışdır. Eyni zamanda Altay bölgəsini türklərin ilkin vətəni sayan tədqiqatçıların sayı getdikcə azalmaqdadır. Bir çox türkşünaslar türklərin Altaylara sonralar Ön Asiyadan gəldiyini vurğulayırlar.[4]

Tanınmış antropoloqların (Q.F.Debets, V.V.Bunak) uzun illər apardığı tədqiqatların nəticəsi bu olmuşdur ki, Xəzər dənizinin akvatoriyasından Aralıq dənizinə qədərki coğrafiyada hələ miladdan öncəki minilliklərdən eyni kökə malik etnos yaşamışdır ki, antropoloji olaraq, dolixokefal tipə aid bu etnosu bəzi mütəxəssislər “kaspi” tipi adlandırmışlar. [7,səh. 33]

Xəzər və Aralıq dənizi arasındakı ərazilərin sakinlərinin eyni bir soykökdən olduğunu göstərən ən tutarlı dəlillərdən biri də buradakı yer adlarının ümumi mənşəyə malik olması, təkrarlanmasıdır. İstər Azərbaycan, istərsə də bugünkü Türkiyə və türklərin yaşadığı region dövlətlərinin ərazilərində eyni mənşədən olan şəhər, kənd, dağ, çay, göl və s. toponimlərə rast gəlmək olar. Belə yer adlarından biri də həm Anadoluda, həm də Azərbaycanda mövcud olan Biləcik və Göynük yer adlarıdır. Müasir dövrdə Türkiyə Respublikası ərazisində Biləcik adında vilayət və vilayətin mərkəzi olan, əhalisinin sayı 50 mini keçən eyni adlı Biləcik şəhəri var. Eyni zamanda, hal-hazırda Azərbaycan Respublikasının şimal-qərb bölgəsində, Şəki rayonunda Biləcik adında iki kənd - Birinci və İkinci Biləcik kəndləri mövcuddur. Eynilə, Göynük yer adına da indiki Türkiyə və Azərbaycan Respublikalarının bir çox bölgələrində rast gəlmək olar.[3,s.117]

Onlardan ən böyüyü Türkiyənin Bolu vilayətində, Bolu-Biləcik avtomobil yolunun üstündə yerləşən, əhalisi 20 minə yaxın olan Göynük şəhəridir. Bundan başqa Türkiyə Cümhuriyyətinin bir sıra vilayətlərində Göynük adında yaşayış yerlərinə rast gəlinir. Məsələn, Amasya vilayətində Göynücek köyü, Bingöldə əvvəllər Göynüklər, indi Göynük adlanan köy, Antalyada Göynük qəsəbəsini, Kahramanmaraşda adı tarixi mənbələrdə hələ XV əsrdən tanınan Göynük köyünü göstərmək olar. [9,s.305,306]

Azərbaycan Respublikasının şimal-qərb bölgəsində Şəki rayonunda Baş Göynük və Aşağı Göynük kəndləri və Naxçıvan MR-nın Culfa rayonunda Göynük kəndi, Babək rayonunda Göynüksu adlı yaşayış məntəqəsi və eyni adda çay mövcuddur. Türk tarixi üzrə tədqiqatçıların əsərlərində Biləcik və Göynük yaşayış yer adlarına tarixi mənbələrdə ilk dəfə XIII-XIV əsrin əvvəllərinə aid Bizans və ərəb mənbələrində, XV əsrdən isə artıq Osmanlı mənbələrində rast gəlindiyi vurğulanmışdır. [10]

Eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda məskunlaşan türklərin etnocoğrafi mövqeyini IX-XI əsrlərdə tədricən intensivləşən oğuz-səlcuq yürüşləri möhkəmləndirir. Mərkəzi Asiyadan başlayıb Xəzərin Cənubundan keçməklə Anadoluya doğru istiqamətlənən (və orta əsrlərin sonlarına qədər mərhələlərlə davam edən) bu yürüşlər, hun-qıpçaq axınlarından fərqli olaraq, daha çox hərbi- siyasi xarakter daşıyırdı. Qıpçaqların mədəniyyəti daha çox şifahi yaradıcılığa, köçəri həyat tərzinə əsaslandığı halda oğuzların mədəniyyətində yazı, oturaqlıq, şəhər həyatı daha üstün olmuşdur. Və bir fərq də ondan ibarət idi ki, oğuz-səlcuqlar artıq islam dinini qəbul etmiş, yaxşı təşkilatlanmışdılar. Onların saraylarında türk dili ilə yanaşı fars, ərəb dilləri də böyük nüfuza malik idi. Çünki oğuz-səlcuq əsilzadələri özlərini yalnız türk kimi deyil, həm ərəb, həm fars, həm də bir türk kimi hiss edir, yəni bütövlükdə müsəlman dünyasının varisləri sayırdılar. Azərbaycanda Atabəylər dövlətini yaradan oğuz-səlcuqlar tədricən Anadoluya-Bizansa

İSBN: 978-9952-539-04-2

öz passionar güclərini göstərməyə başladılar. Və XI-XIII əsrlərdə böyük bir ərazini zəbt edərək dövlətlərini qurdular. Anadolunun (nəticə etibarilə, İstanbulun) fəthi XIII əsrdən sonra-osmanlılar dövründə də davam etdi.

Azərbaycanda (eləcə də Şərqi Anadoluda) oğuz-səlcuqların tarixi missiyasını əks etdirən ən mühüm tarixi-ədəbi mənbə "Kitabi Dədə Qorqud" dastanıdır. Epos Azərbaycanın (və Şərqi Anadolunun) türkləşməsinin ikinci dövrünü olduqca aydın detal və təfərrüatlarla təqdim edir. Maraqlıdır ki, regiona yürüş edən oğuzların qarşısında artıq yerli əhaliyə çevrilmiş qeyri-müsəlman (kafir) qıpçaq türklərini, daha uzaqlarda (Qərbdə) isə yunanları görürük ki, bu da regionun etnik tərkibi barədə obyektiv təsəvvür yaradır. Odur ki, erməni, eləcə də gürcü mənbələrinin IX-XI əsrlərdə – I minilliyin sonu II minilliyin əvvəllərində erməni və ya gürcülərin Qafqazın Cənubunda hansısa ciddi etnik-siyasi hadisə olmaları barədəki məlumatları böyük şübhə doğurur. Və xristian missionerliyinin gələcəyə-təbliğata hesablanmış xəyalpərəst iddialarından başqa bir şey deyildir.

Oğuz fəthlərindən əvvəl də Cənubi Qafqazda, Şərqi Anadoluda, indiki İranın bütün şimali və mərkəzi torpaqlarında türk ünsürünün yaşadığını ortaya çıxaran faktlar var. [8]

Məlumdur ki, özlərinə tarixi vətən təşkil etmək məqsədilə dünya erməni irtica qüvvələrinin Kiçik Asiya və Ön Qafqaz türklərinə qarşı torpaq iddialarının tarixi ötən yüzilliklərdən başlayır.Ümumtürk tarixinə -Osmanlı və Azərbaycan türklərinə qarşı tarixdə misli olmayan qanlı fəlakət səhifələri açacaq ideoloji irtica maşınının Mxitar Sevastiyski tərəfindən 1717-ci ildə Venetsiyanın yaxınlığında Müqəddəs Lazar adasında inşa etdirilmiş katolik monastrında mxitaristlər dərnəyində, digəri XVIII əsrin əvvəllərində Moskvada yaradılmış Musin-Puşkin məktəbində işə salınır. Erməni keşişlərinin və tarixçilərinin iddialarına gəldikdə isə, onlar kilsə rəvayətlərindən və məlum əfsanə epizodlarından başqa elmi tarixin suallarına real cavab verə bilən silahdan-arxeoloji etnomədəniyyətdən, etnoantropologiyadan və etnolinqvistikadan məhrumdurlar. [1,səh,5-6]

Tatar-monqol yürüşlərindən bir qədər əvvəl Balkan yarımadasına, müasir Mərkəzi Asiya türkmənlərinin əcdadı olan oğuz-türk tayfalarının köçü başlanmışdı. Onların yerli əhali ilə qarışması nəticəsində bir sira yeni xalqların, o cümlədən azərbaycanlıların və Osmanlı türklərinin formalaşması üçün şərait yarandı. Təxminən eyni vaxtda bantu dillərində danışan tayfaların Şərqi və Mərkəzi Afrikadan cənuba doğru yayılması prosesi gücləndi, XV əsrin sonunadək Asiya, Avropa və Afrikada demək olar ki, bizim dövrümüzə qədər gəlib çıxan bütün xalqlar artıq təşəkkül tapmışdı. [5,s.21]

Oğuz-səlcuq yürüşləri XIII əsrdən başlayaraq Anadoluda – Kiçik Asiya yarımadasında (sonralar isə Balkanlarda) digər bir oğuz-türk xalqının – Osmanlıların (nəticə etibarilə, Türkiyə türklərinin) əsasını qoydu. Biri digərinə çox yaxın olan türkmənlər, Azərbaycan və Türkiyə türklərinin etnik-coğrafi əsasları müxtəlif dövrlərdə qoyulsa da, onların müstəqil bir xalq kimi formalaşması, demək olar ki, eyni dövrə – XVI-XVII əsrlərə təsadüf edir. Əsasları eyni "etnik material"dan olan müasir türkmən, Azərbaycan və türk xalqlarının orta əsrlərin sonlarına doğru müstəqil xalqlar kimi meydana çıxmalarının etnik-coğrafi, siyasi, dini və s. səbəbləri vardır ki, bunlar bir kompleks halında oğuz türklərinin həmin xalqlara bölünməsini şərtləndirmişdir. [6,səh.36-49]

Böyük Səlcuqlu Dövlətinin yaranmasından Malazgirt Zəfərinə qədər olan dövrdə türkmən köçü qərb istiqamətində başlayaraq Anadolunun ortasınadək yayılmışdı. Xüsusilə Azərbaycan ərazisindən keçərək Anadoluya sıx bir əhali axını olmuşdur. XI əsrin köç dalğaları ilə Anadoluya gələn türklər ümumiyyətlə köçəri bir əhalini təşkil edirdilər. Gəldikləri coğrafiyadan mədəniyyətlərini, inanclarını və həyat tərzlərini gətirən bu kütlələr Anadolunun türkləşməsində və islamlaşmasında mühüm rol oynadılar. Köçlər XI əsrdə sıx şəkildə olmasa da XII əsr boyunca davam etmişdir. Bu əsrdə gerçəkləşən köçlərdə qarakitayların Türküstanı istilası, Sultan Səncərin ölümü, Xorasan Səlcuq dövlətinin süqutu kimi səbəblər təsirli olmuşdur. Səlcuqlarla, Bizans və Xaçlılar arasında meydana gələn müharibələr zamanı Anadoluya çoxlu sayda türkmən gəlmişdi. Gürcüstan torpaqlarının gürcü kralları tərəfindən ələ keçirilməsi isə türkmən kütlələrinin Anadoluya köç etməsinə səbəb olmuşdu.

II minilliyin birinci yarısında Asiya və Avropanın etnik tarixinə monqol hücumlarının böyük təsiri olmuşdur. Etnik qrupların uzaq yerlərə köçü ilə müşayiət olunan monqol işğalları xalqların bir-birinə qarışmasını sürətləndirirdi. Mərkəzi, Orta və Ön Asiyada, habelə Qafqazda və Şərqi Avropada yeni xalqların meydana gəlməsinə səbəb oldu. Bu etnik proseslərə misal olaraq Sibirdə, Volqa boyunda, Krımda müxtəlif tatar qruplarının təşəkkül tapdığını göstərmək olar. Məlumdur ki, XIII əsrdə Asiyanı

İSBN: 978-9952-539-04-2

bürümüş Monqol istilası, bu coğrafiyada varlığını davam etdirən bir çox dövlətin siyasi səssizliyinə səbəb olduğu kimi sosial, mədəni və iqtisadi cəhətdən bərpa edilə bilməz dağıdıcılıq gətirmişdi. Bu yürüşlərin ən vacib nəticələrindən biri də Orta Asiyada yaşayan bir çox türk kütlələrinin Anadoluya köçü olmuşdur. Yeni gələn monqol qəbilələri Rum Səlcuqlu dövlətinin ərazisində-I Əlaədddin Keyqubad ölkəsində sığınacaq tapmışdılar. Köç dalğaları ilə gələnlər arasında hər sinifdən olan insanlarla birlikdə, elm adamları, din və sənət adamları da vardı. Sultan Keyqubadın ölümündən sonra Monqol istilası bu dəfə Anadolu istiqamətində olmuşdu. Anadolunun Monqol hökmranlığı altına girməsi köhnə və yeni türkmən köçlərinin monqol təqibinin çatmadığı dağlıq ərazilərə sığınmalarına səbəb olmuşdu. Beləliklə köçəri qruplar, elm və fikir adamları, dərvişlər,ticarətçilər və sənətkarların bir çoxu türkmən bəylərinin ətrafında toplanmışdılar. Türkmən dairələrin bir qismi Krım və Qıpçaq bölgələrinə gedərkən,bəzi elm adamları da Suriya və Misirə köç etmək məcburiyyətində qalmışdı.

Azərbaycanın həm cənubunda, həm də şimalında oğuz-səlcuq türklərinin yayılması əhəmiyyətli bir maneə ilə qarşılaşmır. Artıq qeyd etdiyimiz kimi, yalnız Şimalda qıpçaq türklərinin o qədər də davamlı olmayan müqavimətindən danışmaq olar. Bununla belə nəzərə almaq lazımdır ki, oğuz-səlcuq yürüşlərinin əsas istiqaməti Qərbə-Anadolunun içərilərinə doğru olduğundan nə Cənub-Qərb, nə də Şimal-Qərb istiqamətləri strateji əhəmiyyət kəsb etmirdi. Azərbaycanda məskunlaşan (və Azərbaycan xalqının formalaşmasını təmin edən) oğuz-səlcuqların, müəyyən qədər isə digər türk etnoslarının axınları XVI əsrə qədər davam etmişdi. Monqol-tatarların, Əmir Teymurun, Qaraqoyunluların və Ağqoyunluların yürüşləri formalaşmaqda olan Azərbaycan xalqının etnik tərkibini (potensialını) gücləndirdi. Və eramızın ilk əsrlərindən başlayan bu proses orta əsrlərin sonu, yeni dövrün əvvəllərinə qədər kəsilmədən davam etdi.

Azərbaycan xalqının təşəkkül prosesinin başa çatması Qaraqoyunlu, Ağqoyunlu və xüsusilə Səfəvilər dövlətlərinin qurulması ilə eyni dövrə düşür. Bu, təsadüfi deyil. O mənada ki, bunlar biri digərini şərtləndirən hadisələrdir. Xalqın təşəkkül-formalaşması milli dövlətin qurulması ehtiyacını doğurur, milli dövlətin qurulması isə xalqın formalaşmasını ( mütəşəkkilliyini) təmin edir.

Bildiyimiz kimi XVI əsrin ilk illərində meydana çıxan Səfəvilər dövləti türk dövlətçilik ənənələrinə əsaslanırdı və Qaraqoyunlularla, Ağqoyunluların birbaşa davamı idi. I Şah İsmayılın qurduğu bu türk dövləti Azərbaycanın (və Azərbaycan xalqının) sərhədlərini müəyyənləşdirdi. Səfəvilərin Azərbaycan xalqının "tərcümeyi-halı"ındakı yerini təsəvvür etmək üçün yalnız o faktı xatırlatmaq kifayətdir ki, nə Səfəvilərə qədər, nə də Səfəvilərdən sonra Azərbaycanı (və Azərbaycan xalqını) bu qədər genişliyi (və bütövlüyü, tamlığı) ilə özündə birləşdirən bir dövlət olmamışdır.

Azərbaycan və Aran oğuzları qısa müddət sonra bu coğrafiyaya uyğun adlar almış və ümumi oğuz-türkmən boylarının tarixində böyük rol oynamışdılar. Navekiyyə türkmənləri, Gəncə türkmənləri, Aran türkmənləri sadəcə, Azərbaycanın deyil, Anadolu və Suriyanın fəthində əvəz edilməz fəaliyyətlər həyata keçirmişdir. Yəni oğuzların Azərbaycana gəlişi bu ölkənin türkləşməsinə səbəb olmamış, sadəcə, buradakı türk ünsürü çoxalmış və hakim mövqeyinə çıxartmışdır. Səlcuqlulardan əvvəl də Azərbaycan türk boylarından hunların, peçeneqlerin,sabirlərin, oqur/oğuzların, xəzərlərin, qanqlıların və d. kompakt (birlikdə) yaşadığı ölkə olmuşdur.[2, s.3]

Bu fikirlər həm də bir daha sübut edir ki, işğal altında olan qədim torpaqlarımızın əzəli sakinləri məhz Azərbaycan türkləri olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əjdər Tağıoğlu. Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları. II cild. Bakı-Nurlan-2006.səh5-6,346
2. Əkbər N.Nəcəf. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər). QANUN-2010, s.3- 55)

3. İkram Ağasiyev. Biləcik və Göynük: Oğuz türklərinin ən qədim yurd yerləri. Akademik Tarih ve Düşünce dergisi, 6(5) Kış 2019 ss.113-133
4. Firuddin Ağasıoğlu, Doqquz biti, Azərbaycan türklərinin islamaqədər tarixi, I Biti, Tarixi qaynaqlar. Bakı: nəşr yeri göstərilməmişdir, 2014,7-17; Kərəm Məmmədov, "Kaspi (Oğuz) antropoloji tipinin xüsusiyyətləri haqqında", Tarix və onun problemləri, 2 (2003):177-181.)
5. Nərgiz Quliyeva.Etnoqrafiya və Etnologiya.Bakı,2009.s.158
6. Nizami Cəfərov. Azərbaycan xalqının tarixi və ya "tərcümeyi-hal"ı. Azərbaycanda Atatürk Mərkəzinin "Bülleten"i. - 2017. -№ 1(61).- S.36-49.,
7. Süleyman Əliyarlı, Tariximiz açılmamış səhifələri ilə, Bakı: Mütərcim nəşriyyatı, 2012, 33.)
**Türk dilində**
8. Hatā'i Külliyatı, Haz: Necef E.N. - Cavanşir B., İstanbul 2006,Giriş kısmı.
9. Osmanlı yer adları, Genişletilmiş ikinci basqı, Ankara, 2007, 305,306
**Rus dilində**
10. Dmitriy Yeremeyev, Etnogenez turok (proisxojdeniye i osnovnıye etapı etniçeskoy istorii), Glavnaya redaksiya Vostoçnoy literaturı, Moskva: İzdatelstvo "Nauka", 1971, 125-132; İsmail Hakkı Uzunçarşılı

## XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNDƏ MOSUL VƏ KƏRKÜK MƏSƏLƏSİ

**Şəmilzadə Şəbnəm**
**Bakı Dövlət Universiteti**

Məlum olduğu kimi I Dünya müharibəsi illərində və müharibədən sonrakı dövrdə Yaxın və Orta Şərq regionu uğrunda böyük dövlətlər bir-birləri ilə mübarizə aparırdılar. Osmanlı dövlətinin şərq torpaqlarını ələ keçirmək məsələsində əsasən İngiltərə və Fransanın maraqları üst-üstə düşürdü. Qeyd edək ki, I Dünya müharibəsinin başlanması İngiltərəyə Yaxın Şərq regionunda çoxdankı məqsədlərini reallaşdırmaq imkanı verdi. 1916-cı ildə Fransa və İngiltərə arasında imzalanmış Says-Piko müqaviləsinə görə Mosul Fransaya verilməli idi. İngiltərə isə Kərküklə kifayətlənməli olmuşdu. Amma İngiltərənin Mosuldan əl çəkmək niyyətinin olmadığı hadisələrin sonrakı gedişində özünün göstərdi.

Belə ki, Osmanlıların İraq cəbhəsində savaşdığı İngiltərə ordusu Kutl-Amarada təslim olmasına baxmayaraq yenidən hücuma keçmiş və 1918-ci il 30 oktyabrda imzalanmış Mudros barışığına zidd olaraq 15 noyabrda Mosulu işğal etmişdir. Hansı ki, Mudros barışığına əsasən Mosul Osmanlı dövlətinin tərkibində qalmalı idi. Fransa isə 1919-cu il 15 iyul tarixində İngiltərə ilə imzaladığı müqavilə ilə Suriya və Çukurova bölgəsini əldə edərək Mosulun İngiltərə tərəfindən işğalını tanımışdır. Ancaq Türkiyə bu işğalı tanımayaraq 1920-ci il yanvarın 28-də parlamentdə dövlətin sərhədlərini müəyyən edən "Misaki-Milli"-ni qəbul etdi. "Milli And" adlanan bu sənədə görə Mosul Türkiyənin sərhədləri daxilindədir. Bundan sonra Mustafa Kamal paşa Misaki-Millini reallaşdırmaq üçün mübarizə aparmışdı.

Belə ki, Mustafa Kamal paşa I Dünya müharibəsi, istiqlal mübarizəsi, Lozanna konfransı və ondan sonra da Mosul məsələsi ilə yaxından məşğul olmuş hətta İngiltərə ilə müharibəyə də hazır olmuşdur. Qeyd etməliyik ki, Türkiyənin 1922-1926-cı illərdə xarici siyasətinin əsas istiqamətini Mosul məsələsi təşkil etmişdir. Türkiyə danışıqlarda müsbət nəticələr əldə etməməsi, müttəfiq dövlətlərlə müxtəlif problemlər yaşaması və daxildə baş verən üsyanların dövlətin bütövlüyünü təhdid etməsi nəticəsində 1926-cı il 5 iyunda Ankara müqaviləsini imzaladı. Bununla da müharibə variantından imtina etmiş və sərhədlərin dəyişilməməsi şərti ilə Mosulun İngiltərənin mandatı olan İraqa verilməsinə razı olmuşdur. Məlumdur ki, nə Mustafa Kamal paşa nə də Türkiyədə hər hansı bir rəhbər şəxs Mosuldan əl çəkmək istəyində olmamışdır. Ancaq beynəlxalq aləmdə Türkiyənin təkliyi və qeyd olunan digər səbəblərə görə Ankara müqaviləsi imzalandı. Biz Türkiyənin siyasi təkliyini xüsusilə də Lozanna konfransında İngiltərənin digər dövlətlər tərəfindən dəstəkləndiyi zaman görürük. Millətlər Cəmiyyətində isə

İSBN: 978-9952-539-04-2

İngiltərə kifayət qədər təsirli qüvvə idi. Hətta bu zaman İtaliya Türkiyəni İngiltərəyə qarşı müharibəyə başlayacağı təqdirdə Antalyanı işğal edəcəyi ilə təhdid edirdi. Türkiyə belə bir şəraitdə Sovet İttifaqının yardımı ilə siyasi təkliyinə son qoymaq istəsədə bu məqsədinə nail ola bilmədi. Çünki Sövet İttifaqı ilə Türkiyə arasında imzalanan 17 dekabr 1925-ci il müqaviləsinə görə tərəflərdən biri hər hansı dövlətlə müharibəyə girərsə digəri bitərəf qalmalı idi.

Yəni Türkiyə Mosula görə İngiltərəyə qarşı müharibəyə başlayacağı təqdirdə Sovet İttifaqı onu müdafiə etməyəcəkdi. Həmçinin Türkiyəni bu müqaviləyə təşviq edən digər bir səbəb də məsələnin Millətlər Cəmiyyətində müzakirə olunduğu bir vaxtda başlayan Şeyx Səidin başçılığı ilə kürdlərin üsyanı oldu. Bu üsyanın arxasında İngiltərənin dayanması ilə bağlı dəqiq məlumat yoxdur. Ancaq üsyançıların İngiltərənin iddialarını dəstəkləməsi və İngiltərə mətbuatında bununla bağlı məlumatların yazılması İngiltərənin üsyançılara yardım etməsini təsdiq edir. Nəticə olaraq qeyd edə bilərik ki, Türkiyə Mosulu itirməmək üçün beynəlxalq sülh yollarına müraciət etmişdir. Ancaq beynəlxalq arenada siyasi təkliyi səbəbindən və ölkənin daxilində sabitliyi qorumaq üçün ondan imtina etmək məcburiyyətində qalmışdır. Beynəlxalq əhəmiyyətini qoruyan Mosul məsələsi bu gün də Türkiyənin gündəmindədir.

Belə ki, Türkiyə 1990-cı illər boyunca mənimsədiyi siyasətinə uyğun şəkildə, İraqın bölünməsinə qarşı olduğunu, bölgədə bir kürd dövləti qurulmasına icazə verməyəcəyini və İraqdakı türkmənlərin qorunmasının prioritetləri arasında olduğunu açıqlamışdır. Həmçinin 1926-cı il Ankara müqaviləsinə görə də Türkiyənin İraqda yaşayan türkmənlər üzərində himayəçilik hüququ vardır. Türkiyə hökuməti daim bölgədə kürd dövlətinin qurulmasını müharibə səbəbi sayacağını elan etmişdir. Türkiyənin bu addımının hüququ əsasını isə Ankara müqavilәsi təşkil edir. Türkiyə, İran, İraq və Suriya öz aralarında çox sayda fikir ixtilafının olmasına baxmayaraq kürd məsələsində ortaq siyasət yeridirlər. Onlar ilk növbədə Məsud Bərzaninin keçirməyə can atdığı referendumun və onun nəticələrinin onların özlərinin kürd əhalilələrini alovlandıracağından narahat idilər. Nəticədə qonşu ölkələrin birgə səyləri sayəsində Məsud Bərzani 2017-ci ilin sentyabrında baş tutan mübahisəli müstəqillik referandumu məsələsində geri addım atmalı oldu.

Hal-hazırda İraqda baş verən hərbi-siyasi hadisələr fonunda İraqın ərazi bütövlüyünün pozulması səbəbindən Türkiyə hökuməti Ankara müqaviləsinin şərtlərinə uyğun olaraq, Mosul və Kərkükə müdaxilə etmək haqqını özündə saxlayır.

İSBN: 978-9952-539-04-2

***Kitabda müxtəlif məzmunlu və fərqli səviyyəli elmi əsərlərə görə Qərbi kaspi Universiteti məsuliyyət daşımır.***

---

***Western Caspian University is not responsible for scientific works in different levels in the book.***